# 26 İyun Silahlı Qüvvələr Günüdür


RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 132 (8725) ŞƏNBƏ, 26 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Qüdrətli sərkərdə

## İlham Əliyevin Komandanlığı ilə Silahlı Qüvvələrimiz Vətən müharibəsində qarşısında duran tarixi missiyanı şərəflə yerinə yetirdi

**İyunun 26-sı Vətən müharibəsində düşmənin başını əzən, torpaqlarımızı azad edən Azərbaycan Silahlı Qüvvələrinin yarandığı gündür. Xalq Cümhuriyyəti dövründə "Əlahiddə Azərbaycan korpusu"nun yaradıldığı bu tarix Ulu Öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı fərmanla artıq 23 ildir ki, Silahlı Qüvvələr Günü kimi təntənəli şəkildə qeyd olunur.**

### Heydər Əliyevin yaratdığı ordu

Ordu dövlətin əsas təhlükəsizlik sütunlarından biridir. Təsadüfi deyil ki, ötən əsrin 90-cı illərinin əvvəllərində cəbhədə məruz qaldığımız uğursuzluğun əsas səbəblərindən biri də ordu ilə bağlı problemlər idi. O illərdə Azərbaycana rəhbərlik edənlərin qətiyyətsiz və səriştəsiz olması səbəbindən ordu quruculuğu sahəsində də çox ciddi boşluqlar var idi ki, bunun da nəticəsində Ermənistanla aparılan müharibədə respublikamızın etibarlı müdafiəsini təmin etmək mümkün olmadı. Ayrı-ayrı şəxslərin və partiyaların nəzarətində olan silahlı dəstələr yalnız onların hakimiyyət uğrunda çəkişmələrdə maraqlarının təmin olunmasına xidmət edirdi. Elə buna görə də cəbhədə milli xəyanətlər baş verdi, Şuşa və Laçın işğal edildi.

Beləliklə, Azərbaycan dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Bu baxımdan müasir, mütəşəkkil ordunun yaradılması hələ 28 il əvvəl Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri olmuşdur. Heydər Əliyevin rəhbərliyi ilə qısa zaman kəsiyində müxtəlif təyinatlı hərbi birləşmələr yaradıldı. Ordunun formalaşdırılması, onun döyüş qabiliyyətinin yüksəldilməsi, torpaqlarımızın müdafiə olunması üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi tezliklə cəbhə xəttindəki vəziyyətdə özünü göstərdi. Cəbhəbə döyüş əməliyyatlarının vahid komandanlıq əsasında hazırlanaraq həyata keçirilməsi 1994-cü ildə öz bəhrəsini verməyə başladı.

*Ardı 11-ci səh.*

# Döyüş meydanına səyahət

## Böyük Qələbəmizin əbədiləşdiyi Hərbi Qənimətlər Parkı qürur rəmzimiz, fəxarət ünvanımızdır

**Diqqət, ehtiyatlı olun! Hər addımınıza, ayağınızı basdığınız hər bir yerə diqqət edin...**

Hər tərəf düşmənin tırtıllı zirehli texnikası, hərbi avtomobilləri, iriçaplı atıcı silahları, hiyləgərcəsinə hazırladığı minalı sahələri, tikanlı məftilləri, yeraltı bunkerləri ilə əhatə olunub. Ağır texnikalar, tank, döyüş maşını, artilleriya qurğusu, atıcı silahlar, hərbi nəqliyyat, müdafiə sistemi, sığınacaqlar, istehkamlar, hərbi kazarmalar və daha nələr, nələr...

Bir anlıq özümü yenidən savaş meydanında hiss edirəm. Çünki 44 günlük Vətən müharibəsi dövründə üz-üzə



gəldiyimiz mənzərə ilə yenə qarşı-qarşıyam. Amma gördüklərim qürur hissi yaşadır mənə. Çünki müharibə nə qədər həyəcanlı, qorxulu, qan qoxulu olsa da, Vətən üçün haqq savaşına qalxan igid Azərbaycan oğulları bu sədləri, istehkamları elə yarıb keçirdilər ki, düşmənin canına vəlvələ düşürdü. Silahını, bayrağını atıb qaçmaqdan başqa çarəsi qalmırdı erməni hərbçisinin. Qoyub qaçdıqları hərbi texnikaları, silah-sursatları isə qənimət olaraq qalırdı bizə. Ayaq altında qalan boş dəbilqələri isə lazımsız əşya kimi ortalıqda dığırlanırdı.

*Ardı 8-ci səh.*

# Qaliblərin bayramı

*- Böyüyəndə nə olmaq istəyirsən?*
*- Əsgər.*
*- Niyə?*
*- Çünki güclü olub torpaqlarımızı qorumaq istəyirəm.*
*- Sənə nəyin hədiyyə edilməsini arzulayırsan?*
*- Əsgər forması...*

Oğlan uşaqlarına bu sualları verdiyimiz zaman daha çox eyni cavabları eşidirik. Onların demək olar ki, çoxu hərbi forma geyinib əsgər olmağı xəyal edir. Çünki əsgər onların anlamında məğlubedilməz qəhrəmandır.

*Ardı 11-ci səh.*




# İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları, Xüsusi Təyinatlı Qüvvələrdə və əməliyyat briqadalarında xidmət edən hərbi qulluqçular istisna olmaqla) aylıq vəzifə maaşlarına 2021-ci il iyulun 1-dən Azərbaycan Respublikası Prezidentinin əlavəsi müəyyən edilsin.

2. Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan hərbi qulluqçulara (bundan sonra - hərbi qulluqçular):

2.1. Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçuların hərbi xidmət müddəti və xidmət yeri nəzərə alınmaqla bu Sərəncamın Əlavəsinə uyğun olaraq aylıq vəzifə maaşlarının 20-60 faizi həcmində 5 (beş) il müddətində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ödənilir;

2.2. 2021-ci ildə hərbi qulluqçulara Azərbaycan Respublikası Prezidentinin əlavəsi "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1241 nömrəli Fərmanının 1.2.1.4-cü "Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi" yarımbəndində nəzərdə tutulmuş vəsaitin qalığı hesabına, növbəti illərdə isə dövlət büdcəsində müdafiə xərcləri üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilir;

2.3. Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçulara Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq ödənilir.

1.3. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

2.4. Bu Sərəncam 2021-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2021-ci il*

◆ Milli Məclisin iclasında

# Azərbaycan Ordusu tariximizə yeni parlaq səhifələr yazdı

**İyunun 25-də Spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasında iclası keçirilib.**

Öncə Milli Məclisin Sədri 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibəti ilə təbriklərini çatdırıb. Vurğulayıb ki, bu il Azərbaycan xalqı Silahlı Qüvvələr gününü böyük sevinc və qürur hissi ilə qeyd edir. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu xalqımızın qəhrəmanlıq tarixinə yeni parlaq səhifələr yazıb. Azərbaycan torpaqlarını 30 ildən bəri işğal altında saxlamış Ermənistan silahlı qüvvələri darmadağın edilib. Əzəli və tarixi torpağımız olan Qarabağ mənfur düşmənin əsarətindən xilas edilib.

Sahibə Qafarova deyib ki, tarixi ədalətin öz yerini tutması, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması xalqımızın inamını özünə qaytarıb və ruhunu təzələyib. "Bu gün biz yurd yerlərimizə, doğma Qarabağa qayıdırıq. Bu haqqı bizə qəhrəman ordumuz, onun Ali Baş Komandanı qaytarıb.

*Ardı 3-cü səh.*

# Avropa İttifaqı regional məsələlərdə öz iştirakını nümayiş etdirir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi Cozef Borelin mandatı əsasında Azərbaycana səfər edən Rumıniyanın xarici işlər naziri Boqdan Aureskunu, Avstriyanın xarici işlər naziri Aleksandr Şallenberqi, Litvanın xarici işlər naziri Qabrielius Landsbergisi və Avropa İttifaqının nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV dedi:**



- Xoş gəlmisiniz. Avropa İttifaqından belə böyük nümayəndə heyətini görməyə şadam. Bu, bizim əməkdaşlığımızın, Avropa İttifaqı və onun üzvlərinin regional məsələlərə cəlb olunmasının yaxşı göstəricisidir. Bilirsiniz ki, bizim Avropa İttifaqı ilə əməkdaşlığımız çox uğurludur. Azərbaycan bir çox ölkə ilə, 9 üzv ölkə ilə strateji tərəfdaşlığa dair sənəd və sazişlər imzalayıb və qəbul edib. Düşünürəm ki, bu, bizim ölkəmizin çox böyük nailiyyətidir. Çünki bu, üzv ölkələrin üçdəbirini təşkil edir və onu göstərir ki, əməkdaşlığın çərçivəsi, həqiqətən, çox genişdir, qarşılıqlı maraq, qarşılıqlı əhəmiyyət kəsb edən çox sahələri əhatə edir.

Biz üç il əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını dəstəkləyən tərəfdaşlıq prioritetlərinə dair sənədi parafladıq. Bu, yeni hərtərəfli sazişin razılaşdırılması istiqamətində çox mühüm addım oldu. Mən başa düşdüyüm qədərilə sizin regiona səfəriniz Ermənistanla Azərbaycan arasında münaqişədən sonra yaranmış hazırkı vəziyyətə həsr olunub. Başqa sözlə desək, postmünaqişə vəziyyəti əhəmiyyət kəsb edir, çünki düşünürəm ki, indi - bu il və gələn il ərzində postmünaqişə vəziyyəti ilə bağlı əsas fundamental yanaşmalar işlənib hazırlanacaq. Azərbaycanın mövqeyi çox açıq və aydındır.

Mən artıq dəfələrlə bu barədə danışmışam ki, biz postmünaqişə vəziyyətindən Cənubi Qafqazda sülhməramlı inkişafa və əməkdaşlığa keçmək istəyirik. Əfsuslar olsun ki, biz indiyədək Ermənistan hökumətindən buna bənzər nə isə eşitməmişik. Ermənistan hökuməti bizim Ermənistanla sülh sazişinə dair danışıqlara başlamaqla bağlı heç bir bəyanatımıza məhəl qoymur. Lakin ola bilsin ki, seçkiqabağı vəziyyət bu cür bəyanatlar vermək üçün çox əlverişli olmayıb. Amma indi Ermənistanda seçkilər başa çatandan sonra ümid edirik ki, müsbət cavab olacaq. Əlbəttə, düşünürəm ki, sizin Ermənistanda təmaslarınız zamanı bu məsələ də müzakirə ediləcək. Çünki əgər bizim Ermənistanla sülh sazişimiz olmasa, bu o deməkdir ki, sülh də yoxdur. Təkcə iki ölkə arasında deyil, həm də Cənubi Qafqazda sülh yoxdur. Bizə sülh və dayanıqlı inkişaf, proqnozlaşdırılma, sıfır müharibə riski lazımdır, bizə müharibə lazım deyil. Bizə əvvəl də müharibə lazım deyildi.

Beləliklə, düşünürəm ki, bu, bizim fəal əməkdaşlıq edə biləcəyimiz sahələrdir. Şadam ki, Avropa İttifaqı regional məsələlərdə öz iştirakını nümayiş etdirir və sizin səfəriniz bunun aydın göstəricisidir. Biz Cənubi Qafqazda sülh, barışıq, inkişaf və əməkdaşlıq istiqamətinə xidmət edən istənilən təşəbbüsü qiymətləndiririk.

Müharibədən əvvəlki vəziyyətə gəlincə, mən, sadəcə olaraq, bir daha öz mövqeyimizi ifadə etmək istəyirəm. Azərbaycan hər zaman Ermənistanla münaqişənin sülh yolu ilə həllinə sadiq olub və bizim 28 il ərzində Minsk qrupu yaradılandan etibarən danışıqlar prosesində olmağımız faktının özü bunun aşkar göstəricisidir. Biz məsələni sülh yolu ilə həll etmək istəyirdik və danışıqlar prosesinin müxtəlif dövrlərində ümidlərimiz var idi.

Mən 2003-cü ildən danışıqlar prosesində iştirak etmişəm. Ermənistanın 3 lideri ilə danışıqlar aparmışam və sizə deyə bilərəm ki, bu, dünyada aparılmış istənilən növ danışıqlarda çox mənfi təcrübə idi. Çünki uzun illər davam edən bu mənasız danışıqlardan sonra biz açıq-aydın dərk etdik ki, Ermənistan sülh istəmir. Onlar status-kvonu dəyişməz saxlamaq istəyirdilər. Onlar bizim torpaqlarımızı əbədi işğal altında saxlamaq istəyirdilər və onların danışıqlarda iştirakı bir növ danışıqlar prosesinin imitasiyası idi. Onlar beynəlxalq və Avropa təşkilatlarını çaşdırmağa çalışırdılar ki, onlar həll istəyirlər, Azərbaycan isə konstruktiv deyil. Son vaxtlar baş verənlər isə çox sayda təxribatçı addımlar atmış, əməllər törətmiş və müharibəyə təhrik etmiş Ermənistan hökumətinin məsuliyyətidir. Mənim mövqeyimi sübut edə bilən çox sayda dəlil var. Mən sizə cəmi bir neçə nümunə göstərəcəyəm. Ermənistanın müdafiə naziri ictimai şəkildə bəyan etdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır. Bu, Azərbaycana qarşı açıq təhdid idi. Ermənistanın baş naziri bildirdi ki, Dağlıq Qarabağın qondarma rəhbərliyi danışıqlarda iştirak etməlidir. Bu, əslində, təkcə bizim maraqlarımıza qarşı deyildi, həm də ATƏT-in Minsk qrupu və onun həmsədrlərinin işləyib hazırladığı formata qarşı idi. Bu səbəbdən də bu mövqe ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini də, yumşaq desək, bir qədər təəccübləndirmişdi. Onlar obyektiv olaraq bunu danışıqlar prosesindən çıxmaq cəhdi hesab etmişdilər. Çünki danışıqların formatı iki ölkə və ATƏT tərəfindən yaradılmışdı: Ermənistanla Azərbaycan arasında olan münaqişə.

Ermənistan rəhbərliyinin daha bir təxribatçı bəyanatı o idi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bu da faktiki olaraq istənilən danışıqlara son qoydu. Birincisi, bu, çox ziddiyyətli bəyanat idi, çünki bir tərəfdən Ermənistan rəhbərliyi deyirdi ki, Qarabağ müstəqil ölkədir və Azərbaycan onunla danışıqlar aparmalıdır. Sonra da deyirdilər ki, Qarabağ Ermənistandır. Biz onlardan bunlardan hansının həqiqət olduğunu soruşduq. Əslində, onlar hər iki halda yalan danışırdılar. Lakin bu, istənilən danışıqları lazımsız və mənasız edən çox təxribatçı bəyanat idi. Minsk qrupu ölkələrinin səfirləri ilə görüşlərimdə mən gördüm ki, bu mövqe onları da bir qədər çaşdırır və təəccübləndirir və əslində, onlar nə edəcəklərini bilmirlər. Əgər Qarabağ Ermənistandırsa, onda bu barədə nə danışmaq olar? Bu, danışıqlar prosesini tamamilə məhv etmək və torpaqları əbədi işğal altında saxlamaq üçün Ermənistan rəhbərliyinin məqsədli cəhdi idi.

Lakin bu hələ hamısı deyil. Ötən il onlar təmas xəttində və bizim dövlət sərhədində üç təxribatçı hərbi əməl törədərək mülki şəxsləri qətlə yetirdilər, kəndlərimizi bombaladılar və bizi təhrik etdilər. Beləliklə, İkinci Qarabağ müharibəsi qaçılmaz idi və hər kəs üçün aydın idi.

Hazırda biz münaqişədən sonrakı inkişaf vəziyyətindəyik. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Bununla bağlı danışıqlar aparası heç nə yoxdur. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat bəzi beynəlxalq siyasətçilərin təqdim etməyə çalışdığı kimi, təkcə atəşkəs razılaşması deyil. Bu sənədə baxan hər kəs görəcək ki, o, təkcə atəşkəslə bağlı deyil, bir çox başqa məsələlərə bağlıdır. Biz postmünaqişə vəziyyəti barədə düşünməliyik. Çıxışımın əvvəlində qeyd etdiyim kimi, biz səhifəni çevirməyə, irəli getməyə və regional sabitliyə töhfə verməyə hazırıq.

Bir daha səfərə görə minnətdarlığımı bildirmək istərdim. Ümidvaram ki, səfər çox uğurlu, səmərəli olacaq. Sizin regiona səfərinizdən sonra gələcək planları müzakirə etmək üçün biz Brüsseldəki səfirliyimiz, Xarici İşlər Nazirliyimiz vasitəsilə mütləq əlaqə saxlayacağıq. Bir daha xoş gəlmisiniz.

Rumıniyanın xarici işlər naziri **Boqdan AURESKU** dedi:

- Cənab Prezident, əvvəla, bu görüşdə olmaq və müzakirə aparmaq bizim üçün böyük şərəfdir, bu təklifi qəbul etdiyiniz üçün təşəkkür edirik. Üç nazir, xüsusi nümayəndə və Avropa İttifaqının xarici əlaqələr xidmətindən olan həmkarlarımızın ölkənizə səfərə gəlməsi cari ilin may ayında Lissabon şəhərində keçirilmiş Avropa İttifaqı xarici işlər nazirlərinin qeyri-rəsmi görüşü nəticəsidir. Həmin görüş Rumıniyanın təşəbbüsü ilə keçirilib və bizim təşəbbüsümüzlə gündəliyə regional münaqişələr mövzusu da daxil olunub. Sözügedən görüşün sonunda biz qərara gəldik ki, Avropa İttifaqı regionla daha yaxından məşğul olmaq, münaqişələrin həllində iştirak etmək, Dağlıq Qarabağ münaqişəsinə gəldikdə isə tərəflərin razılığı olduğu təqdirdə postmünaqişə dövründə inkişaf proseslərinə cəlb olunmaq istiqamətində səylərini artırmaq niyyətindədir.

Bizim burada olmağımızın məqsədi regionun sabitliyi və təhlükəsizliyinə güclü dəstək mesajını vermək, habelə Sizin də qeyd etdiyiniz kimi, münaqişədən sonrakı dövr üçün qarşıda duran bütün məsələlərin müfəssəl həlli istiqamətində nə kimi dəstəyin göstərilə biləcəyini nəzərdən keçirməkdir.

Eyni zamanda bu səfər cari ilin sonunda keçirilməsi nəzərdə tutulan Şərq Tərəfdaşlığı Zirvə toplantısına hazırlıq məqsədi daşıyır. Avropa İttifaqı üçün Azərbaycan mühüm rola malikdir, enerji sahəsində strateji tərəfdaşdır, regionda Avropa İttifaqının ən iri ticarət tərəfdaşıdır və Avropa İttifaqının ən çox sərmayə yatırdığı ölkədir. Bizim üçün Azərbaycan Cənubi Qafqazın sabitliyi və firavanlığı baxımından böyük əhəmiyyət kəsb edir. Biz Azərbaycanı tolerantlığın, multikulturalizmin və dinlərarası dialoqun nümunəsi kimi yüksək qiymətləndiririk. Mən bilirəm ki Siz prezidentlik dövrünüzdə bütün bunlara nail olmaq üçün böyük işlər görmüsünüz.

Ölkəniz regional bağlılıq baxımından da vacib rol oynayır. Bu sahədə də müzakirələrin aparılması və gələcək əməkdaşlıq üçün geniş imkanlar var. Münaqişədən sonrakı dövr üçün proseslərdən danışarkən Sizin fikirlərinizi öyrənmək istərdik. Bildiyiniz kimi, biz buradan Ermənistana, oradan isə Tbilisiyə səfər edəcəyik. Yəni etimad quruculuğu, yenidənqurma, vəziyyətin sabitləşdirilməsi kimi sahələrdə biz nə edə bilərik? Bu yaxınlarda müəyyən addımlar atılıb, saxlanılan bəzi şəxslər qarşı tərəfə verilib, minaların xəritələri təqdim olunub. Biz belə prosesləri gələcəkdə dəstəkləməkdə maraqlıyıq və hesab edirik ki, etimad quruculuğu baxımından bu olduqca vacibdir.

Avstriyanın xarici işlər naziri **Aleksandr ŞALLENBERQ** regionun postmünaqişə dövrünü yaşadığını vurğulayaraq, bundan sonra sülh dövrünə və dayanıqlı dinc həll mərhələsinə keçilməsinin önəmini qeyd etdi. Bildirdi ki, Avropa İttifaqının regiona, o cümlədən bölgənin iqtisadi sahəsinə böyük marağı var. Aleksandr Şallenberq dedi ki, Avropa İttifaqı regionda bir çox məsələlər üzrə ATƏT ilə əlaqəli şəkildə fəaliyyət göstərir.

Litvanın xarici işlər naziri **Qabrielius LANDSBERGİS** bir neçə ay əvvəl Azərbaycana səfərini məmnunluqla xatırladı. Həmin səfər zamanı bir sıra məsələlər ətrafında fikir mübadiləsinin aparıldığını qeyd edərək, budəfəki səfərin müzakirələrin davamı üçün imkan yaratdığını vurğuladı.

## "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793; 2014, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1194; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 384, № 5, maddə 761, № 7, maddələr 1322, 1335, № 8, maddə 1521; 2018, № 5, maddə 906, № 9, maddə 1844, № 12 (I kitab), maddə 2609; 2020, № 5, maddə 560) 28.13.1-ci yarımbəndində "250 000" rəqəmləri "450 000" rəqəmləri ilə əvəz edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
3. Bu Fərman 2021-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2021-ci il*

## "Enerji təminatı məsələləri" üzrə İşçi Qrupunun növbəti iclası keçirilib

**İşğaldan azad edilmiş ərazilərin enerji təminatı məsələlərinin həllində zəruri koordinasiyanın təmin olunması məqsədilə İdarələrarası Mərkəzdə yaradılmış "Enerji təminatı məsələləri" İşçi Qrupunun videokonfrans formatında növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda ölkəmizin işğaldan azad edilmiş ərazilərində enerji infrastrukturunun bərpası və yenidənqurulması ilə bağlı görülmüş işlər, regionun enerji potensialından səmərəli istifadə olunması üzrə həyata keçirilmiş tədbirlər və bu ərazilərin dayanıqlı enerji təminatına nail olunması istiqamətində atılacaq növbəti addımlar barədə aidiyyəti dövlət qurumlarının nümayəndələrinin məruzələri dinlənilib.

İşğaldan azad edilmiş ərazilərdə enerji infrastrukturunun bərpası ilə bağlı işlərin görülməsi zamanı texniki təhlükəsizlik qaydalarına, xüsusilə yanğın təhlükəsizliyi məsələlərinə diqqət yetirilməsinin zəruriliyi vurğulanıb. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 3 may tarixli 2620 nömrəli Sərəncamından irəli gələn vəzifələrin icrası barədə müzakirələr aparılıb, Yaponiyanın "TEPSCO" şirkətinin təqdimatı dinlənilib.

İclasda İşçi Qrupunun ötən iclaslarında qəbul edilmiş qərarların icrası ilə bağlı görülən tədbirlər, "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyalarının tikintisi ilə bağlı görülən işlər, Şuşa şəhərinin istilik təchizatına dair layihələndirmə işlərinin gedişi haqqında məlumat verilib. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində hərbi-siyasi, sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli ilə bağlı Fəaliyyət Planı"nın müvafiq hissəsinin icrasına dair fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

## Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə Respublika Hərbi Prokurorluğunda tədbir keçirilib

Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 103-cü ildönümü ilə əlaqədar iyunun 25-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin iştirakı ilə Hərbi Prokurorluqda tədbir keçirilib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə tədbir iştirakçıları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Hərbi Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoyublar.

Tədbirdən əvvəl Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, qazilərə şəfa dilənib.

Baş prokuror Kamran Əliyev tədbirdə çıxış edərək Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik konsepsiyasını və ordu quruculuğunu inamla reallaşdıran Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlət siyasəti və səriştəli idarəçiliyi, zabitlərimizin, əsgərlərimizin qəhrəmanlığı sayəsində əzəli torpaqlarımızın işğaldan azad edilərək, Silahlı Qüvvələrimizin 103-cü ildönümünün ölkəmizin hər bir diyarında üçrəngli bayrağımızın dalğalanması sevinci və təntənəsi ilə qeyd edildiyini bildirib.

Böyük Zəfərin əldə edilməsində dövlətimizin başçısının həyata keçirdiyi köklü islahatların və kompleks tədbirlərin nəticəsi olaraq Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir ordunun formalaşdırılması mühüm rol oynamaqla yanaşı, həyata keçirilən effektiv xarici siyasətin hərbi-siyasi qələbəmizi şərtləndirməklə ölkəmizin regional liderliyini birmənalı təsbit etdiyi vurğulanıb.

Diqqətə çatdırılıb ki, döyüş meydanında uğurların əldə edilməsində aparılmış islahatlarla yanaşı, hərbi qulluqçuların xidmət şəraitinin müasirləşdirilməsi, onların sosial və məişət məsələlərinin həlli, əmək haqlarının davamlı olaraq artırılması, imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, eləcə də dövlətimizin başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri, müharibə əlilləri və veteranları ilə mütəmadi olaraq görüşləri, onların qayğıları ilə maraqlanmaları, problemlərini həll etmələri olub. Bütün bunlar Vətən uğrunda xidmətləri olan insanlara yüksək diqqətin təcəssümü olmaqla bərabər, hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradaraq qələbə əzmini daha da artırıb. Sevindirici haldır ki, müharibədən sonra da bu diqqət ən yüksək səviyyədə göstərilməklə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən oğullarının ailələri, qazilər, eləcə də müharibə iştirakçıları Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna qayğısı ilə əhatə olunublar. Bu qəbildən olan şəxslərin maddi-sosial problemlərinin aradan qaldırılması istiqamətində yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması mühüm əhəmiyyətə malikdir.

"Qarabağ Azərbaycandır və nida" devizini gerçəkliyə çevirən dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşaya və azad olunmuş digər rayonlara səfərləri, orada üçrəngli Azərbaycan bayrağının ucaldılması, Füzuli-Şuşa, Bərdə-Ağdam, Zəngilan-Horadiz avtomobil yollarının, həmçinin Füzuli və Zəngilan beynəlxalq hava limanlarının təməlinin qoyulması, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının tətbiqinin doğma torpaqlarımıza Böyük qayıdışın rəmzi ifadəsi olduğu bildirilib.

Xüsusi vurğulanıb ki, Azərbaycan dövləti və xalqı üçün əlamətdar olan bir gündə - iyunun 15-də Şuşada imzalanan Türkiyə ilə Azərbaycan arasında müttəfiqlik haqqında müstəsna siyasi və tarixi əhəmiyyətə malik Bəyannamə Qarabağ zəfərindən sonra qazanılan növbəti tarixi uğur olmaqla iki dost və qardaş ölkə arasında mövcud əlaqələri və əməkdaşlığı yeni mərhələyə yüksəldib.

Tədbirdə hərbi-siyasi qələbəmizlə başa çatan Vətən müharibəsi zamanı cəmiyyətimizlə bərabər səfərbər olan prokurorluq orqanlarının aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyi, xüsusən döyüş əməliyyatlarının aparıldığı şəraitdə mümkün olan bütün istintaq-əməliyyat tədbirlərini uğurla icra etdiyi qeyd edilməklə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 31 dekabr tarixli Sərəncamı ilə 38 nəfər prokurorluq əməkdaşının, o cümlədən hərbi prokurorluq orqanlarının 9 əməkdaşının yüksək dövlət mükafatları - orden və medallarla təltif edilməsinin Azərbaycan Prokurorluğuna dövlət başçısı tərəfindən göstərilən inamın ifadəsi və dövlətçiliyimizin maraqlarının qorunması işində prokurorluğun fəaliyyətinə verilən yüksək etimad kimi dəyərləndirildiyi bildirilib. Qeyd edilib ki, Silahlı Qüvvələrdə nizam-intizamın, qanunçuluq və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər dövlət qurumları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin böyük əhəmiyyəti olub.

Hərbi Prokurorluq orqanları qarşısında duran vəzifələrin önəmini diqqətə çatdıran baş prokuror Kamran Əliyev işğaldan azad edilmiş ərazilərin yenidən həyata qaytarılmasının dövlət siyasətinin prioritetini təşkil etdiyini bildirməklə dövlət başçısının sərəncamı ilə həmin ərazilərdə yaradılmış yeni hərbi prokurorluqların qısa zamanda fəaliyyətə başlamasının mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Baş prokurorun müavini - respublika hərbi prokuroru Xanlar Vəliyev tədbirdə çıxış edərək hərbi prokurorluq orqanlarına göstərilən yüksək diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirib, qurumun qarşısında duran vəzifələrin həyata keçirilməsi ilə bağlı görülən işləri diqqətə çatdırıb.

Tədbirin sonunda Baş Prokurorluq üzrə müvafiq əmrlə həvəsləndirilmiş bir qrup əməkdaşa mükafatlar təqdim edilib. Həmçinin Azərbaycan Respublikası Hərbi Prokurorluğunun kollektivinin qanunçuluğun və hüquq qaydasının, o cümlədən Silahlı Qüvvələrdə nizam-intizamın daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və cinayətkarlığa qarşı mübarizə istiqamətindəki səmərəli fəaliyyətinin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

## Aİ-nin nümayəndə heyəti işğaldan azad olunmuş ərazilərdə dağıntıların miqyası və mina təhlükəsi barədə məlumatlandırılıb



**İyunun 25-də Avropa İttifaqının (Aİ) üzv ölkələri - Avstriyanın xarici işlər naziri Aleksandr Şallenberq, Litvanın xarici işlər naziri Qabrielius Landsberqis və Rumıniyanın xarici işlər naziri Boqdan Aureskunun rəhbərliyi ilə nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində nazir Ceyhun Bayramovun qarşı tərəflə görüşü keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan tərəfindən həmçinin Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev iştirak edib.

Görüşdə tərəflər münaqişəsonrası bölgədə mövcud olan vəziyyət ətrafında geniş fikir mübadiləsi aparıblar.

Azərbaycan tərəfi bölgədəki mövcud cari vəziyyət, azad olunmuş ərazilərdəki dağıntıların miqyası, mina təhlükəsi, həyata keçirilən quruculuq və bərpa işləri barədə məlumat verib. Azərbaycanın üçtərəfli Bəyanatın icrası ilə əlaqədar həyata keçirdiyi tədbirlər, o cümlədən humanitar sahədə görülən işlərdən bəhs edilib.

Azərbaycanın dialoqa və beynəlxalq təşkilatlarla əməkdaşlığa hər zaman əhəmiyyət verdiyi vurğulanıb. Ölkəmizin BMT-nin müvafiq qurumlarının Azərbaycanın azad edilmiş ərazilərinə missiyalarını qəbul etməyə hazır olduğu, UNESCO və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığından bununla bağlı cavab gözlədiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

Tərəflər cari vəziyyətdə bölgədə sülh və dayanıqlı inkişafın təmin edilməsi yolları, o cümlədən etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi, birgə əməkdaşlıq layihələrinin reallaşdırılması imkanlarını müzakirə ediblər.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər müzakirə edilib.

## Silahlı Qüvvələr Günü münasibətilə Müdafiə Nazirliyinin şəxsi heyəti İkinci Fəxri xiyabanı ziyarət edib

**Silahlı Qüvvələr Günü münasibətilə iyunun 25-də Müdafiə Nazirliyinin şəxsi heyəti İkinci Fəxri xiyabanı ziyarət edib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın suverenliyinin, müstəqilliyinin qorunması və ərazi bütövlüyünün bərpası uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə gül dəstələri qoyulub.

Milli Məclisin iclasında

# Azərbaycan Ordusu tariximizə yeni parlaq səhifələr yazdı

*Əvvəli 1-ci səh.*

Biz şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını heç zaman unutmayacağıq. Xalqımız əmindir ki, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri nəinki Qarabağ bölgəsinin mənzərəsini kökündən dəyişəcək, həm də bütün Azərbaycanın inkişaf tarixində yeni bir dövr açacaq."

Spiker əminliklə vurğulayıb ki, Azərbaycan bayrağını Şuşada, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Ağdamda, Hadrutda, Qarabağın digər şəhər və kəndlərində dalğalandıran qalib xalqımız erməni vandalları tərəfindən viran qoyulmuş yaşayış məntəqələrimizi bərpa edib qurucu xalq olduğunu bir daha dünyaya göstərəcək. Bu gün Silahlı Qüvvələrimiz işğaldan azad olunmuş bölgənin müdafiəsi, dövlət sərhədlərimizin qorunması naminə öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirir. "Xalqımız həm Vətən müharibəsi dövründə, həm də bu gün, dinc dövrdə ölkəmizin hərbi təhlükəsizliyinin təmin edilməsində fədakarlıq göstərən hərbçilərimizlə haqlı olaraq fəxr edir,"- deyən Milli Məclisin Sədri əminlik ifadə edib ki, Azərbaycan Silahlı Qüvvələri qarşıdakı illərdə də inkişaf edəcək və dünyanın ən güclü orduları sırasında öz yerini möhkəmləndirəcək.

Milli Məclisin rəhbəri Sahibə Qafarova Azərbaycan parlamentinin tribunasından Silahlı Qüvvələr günü münasibəti ilə müzəffər Ali Baş Komandana, Silahlı Qüvvələrin qəhrəman əsgər və zabitlərinə, bütün hərbi qulluqçularımıza təbriklər ünvanlayıb, ölkəmizin mənafelərinin qorunması naminə şərəfli missiyalarını həyata keçirməkdə onlara yeni uğurlar arzulayıb.

İclasda 12 məsələdən ibarət gündəlik təsdiqlənib. Cari məsələlərin müzakirəsində Milli Məclis Sədrinin müavini Adil Əliyev, deputatlar Siyavuş Novruzov, Aydın Mirzəzadə, Elman Nəsirov, Musa Qasımlı, Aqiyə Naxçıvanlı, Qənirə Paşayeva, Şahin İsmayılov, Elşad Mirbəşir oğlu, Elşən Musayev, Cavid Osmanov Silahlı Qüvvələr günü münasibəti ilə təbriklərini və xoş arzularını ifadə ediblər, bir sıra digər aktual məsələlərə münasibət bildiriblər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıb. Öncə ikinci oxunuşda plenar iclasa təqdim olunmuş 5 qanun layihəsi bu oxunuşun prosedur qaydalarına uyğun müzakirə edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanun layihəsi (ikinci oxunuş) üzərində birinci oxunuşdan sonra aparılmış dəyişikliklər barədə ətraflı məlumat verib. Bildirib ki, layihə üzərindəki hər bir dəyişiklik qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılıb.

Parlamentdə geniş müzakirə aparılıb. Deputatlar Razi Nurullayev, Vahid Əhmədov, Fazil Mustafa, Etibar Əliyev, Vüqar Bayramov, Aydın Hüseynov, İltizam Yusifov, Şahin İsmayılov, Rauf Əliyev, Qənirə Paşayeva rəy və təkliflərini bildiriblər. Məsələ səsə qoyulub və 8 fəsil, 23 maddədən ibarət olan "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Plenar iclasda Sədr diqqətə çatdırıb ki, gündəlikdəki növbəti 2 qanun layihəsi mahiyyətcə bir-biri ilə bağlıdır və parlamentə bir zərfdə daxil olub.







Həmin layihələri ikinci oxunuşda təqdim edən Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib ki, "Əmək pensiyaları haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsindən məqsəd əlilliyi olan pensiyaçı vətəndaşlarımızın sosial müdafiəsini gücləndirmək və təkrar ekspertiza müddətini ötürdüyü halda ilkin 6 ay müddətində həmin pensiyanın əlillik başlandığı müddətdən hesablanmasını təmin etməkdir.

İclasda deputat Qüdrət Həsənquliyevin bu layihələrə dair rəyi dinlənildikdən sonra səsvermə keçirilib, hər iki qanuna təklif olunan dəyişikliklərlə ikinci oxunuşda təsdiqlənib.

Sonra iclasda parlamentə bir zərfdə daxil olmuş növbəti 2 qanun layihəsinə baxılıb. Öncə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) məlumat verib. Bildirib ki, bu layihələr də vətəndaşların sosial müdafiəsini gücləndirmək xarakteri daşıyır. Layihəyə görə, vətəndaş 13 il dövlət qulluğunda işlədikdən sonra əgər onun 13 il çalışdığı orqan publik hüquqi şəxsə çevrilərsə, o halda həmin şəxs pensiyaya çıxarkən dövlət qulluqçusu kimi pensiya almaq hüququ əldə edəcək.

Müzakirə zamanı deputatlar Qüdrət Həsənquliyev, Könül Nurullayeva, Fazil Mustafa qeyd və təkliflərini bildiriblər. Qanun layihəsi səsə qoyulub və ikinci oxunuşda qəbul edilib.

"Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) məsələni təqdim edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deputatların nəzərinə çatdırıb ki, bu layihə indicə qəbul olunan "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə üzvi surətdə bağlıdır, faktiki olaraq həmin normalar "Dövlət qulluğu haqqında" qanuna köçürülür.

Fikir mübadiləsində deputat Etibar Əliyevin çıxışı dinlənildikdən sonra bu qanun da ikinci oxunuşda qəbul olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəlikdəki növbəti 7 qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunub. İclasda Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərov və Ali Məhkəmənin Mülki Kollegiyasının sədri Sənan Hacıyev iştirak edirlər.

Gündəlikdəki növbəti məsələləri təqdim edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, Əmək Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, İnzibati Prosessual Məcəlləsində, "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" və "İnzibati icraat haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi faktiki olaraq məhkəmələrin, mediatorların, vətəndaşların və dövlət orqanlarının mediasiya institutunun fəaliyyəti ilə bağlı prosessual əsaslarını özündə ehtiva edir və "Mediasiya haqqında" qanuna uyğunlaşdırma xarakteri daşıyır.

Məlumat dinlənildikdən sonra müzakirə aparılıb. Deputatlar Razi Nurullayev, Müşfiq Cəfərov, Aqiyə Naxçıvanlı, Siyavuş Novruzov rəy və təkliflərini diqqətə çatdırıblar. Birinci vitse-spiker çıxışlara münasibət bildirib, suallara aydınlıq gətirib. Qanun layihəsi səsə qoyulub və birinci oxunuşda qəbul olunub. Həmçinin "Mediasiya haqqında" qanunun bir sıra maddələrinə təkmilləşdirmə məqsədi ilə edilən dəyişikliklər də (birinci oxunuş) parlamentdə razılıqla qarşılanıb.

İclasda "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında", "Diplomatik xidmət haqqında", "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" qanunlarda və Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 12 iyun tarixli qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 29 iyun tarixli qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də və 2009-cu il 4 dekabr tarixli qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi barədə Əli Hüseynlinin məlumatı dinlənilib. Layihəyə görə, xüsusi dövlət qulluğuna qəbul olunan dövlət qulluqçusunun barəsində sınaq müddəti müəyyən edilməyəcək. Bildirilib ki, dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır.

Parlamentdə bu qanun birinci oxunuşda qəbul olunub.

Daha sonra iclasda Mülki Prosessual Məcəlləyə, İnzibati Prosessual Məcəlləyə, "Dövlət rüsumu haqqında" qanuna və İnzibati Prosessual Məcəlləyə təklif olunan dəyişikliklərə dair 4 qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Bildirilib ki, bu qanun layihələri Hüquq siyasəti və dövlət quruculuğu komitəsində, həmçinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində geniş müzakirə olunub.

Parlamentdə qanun layihələrini geniş şərh edən Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli xatırladıb ki, 2019-cu ildə Azərbaycan Prezidenti tərəfindən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərman imzalanıb. Həmin fərmanın icrası ilə bağlı parlamentə aid olan hissə artıq uğurla həyata keçirilib, yeni qanunvericilik sahəsində islahatlarda cənab Prezidentin tövsiyəsi əsasında çoxlu qanunlar qəbul edilib. Apellyasiya və Ali Məhkəmə instansiyalarına hakimlər təyin olunub. Yeni kadrların iş keyfiyyəti də fərqlidir.

Komitə sədri deyib ki, bu layihə də həmin fərmanın icrasının davamı kimi qəbul olunmalıdır. Oktyabr ayının 1-də qanunun qüvvəyə minməsi nəzərdə tutulur. Layihədə konseptual yeni fikir ondan ibarətdir ki, tam yazılı icraat institutu yaradılır. Bu məsələ günün zərurətidir. Kassasiya instansiyası işin hüquqi tərəfinə qiymət verir, yəni sübutlar təqdim olunur və məhkəmə buna hüquqi qiymət verməlidir. İşin faktiki halları artıq birinci və apellyasiya instansiyasında araşdırılıb.

Əli Hüseynli qeyd edib ki, tətbiq olunan yeni qayda vaxt itkisinin və bir sıra hallarda qeyri-prosessual münasibətlərin də qarşısını alacaq. Məhkəmə-hüquq sistemində hazırlıq institutunun möhkəmləndirilməsi vacibliyini önə çəkən birinci vitse-spiker layihədə elektron məhkəmə sistemi ilə bağlı olan müddəalara da toxunub. Azərbaycanda yaradılmış kommersiya məhkəmələrinin faktiki olaraq elektron məhkəmə olduğunu vurğulayıb və müzakirəyə çıxarılmış layihədə mülki prosesin də elektron varianta keçməsinin təşviq edilməsini mütərəqqi hal kimi dəyərləndirib.

Milli Məclis Sədrinin birinci müavini geniş şərhində qanun layihələrində mübahisə doğurmuş tezislərə də aydınlıq gətirib. Qeyd edib ki, sosial şəbəkələrdə vəkil cərimələrin artırılmasına tənqidi münasibət bildirib. Əli Hüseynli deyib ki, ikinci oxunuşa qədər deputatların, vəkillərin, hüquq ictimaiyyətinin iştirakı ilə layihədəki mübahisəli müddəalarla əlaqədar ictimai dinləmə keçiriləcək.

Sonra iclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət rüsumu haqqında" qanuna dəyişikliklərlə bağlı məsələni şərh edib. Bildirib ki, təklif olunan dəyişikliklər əsasən üç istiqaməti özündə ehtiva edir: ödənilən dövlət rüsumunun məhkəməyə verilən iddianın məbləğindən diferensial asılılığı; yığılan rüsumların bir hissəsinin məhkəmə aparatı işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilməsi; ilk dəfə tətbiq olunan özəl ekspertiza qurumlarının fəaliyyətinin tənzimlənməsi və bununla bağlı şəhadətnamənin rüsumunun müəyyən olunması.

Tahir Mirkişili beynəlxalq təcrübədə bu məsələlərin necə tənzimləndiyi barədə də danışıb.

Plenar iclasda aparılan müzakirələrdə deputatlar Zahid Oruc, Fazil Mustafa, Azay Quliyev, Qənirə Paşayeva, Nurlan Həsənov, Əziz Ələkbərov, Etibar Əliyev irad və təkliflərini diqqətə çatdırıblar.

Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov deputatları maraqlandıran bir sıra məsələlərə aydınlıq gətirib.

Müzakirələrdən sonra Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş), İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş), "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) və İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışı keçirilib

**İyunun 25-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında və Əlahiddə Çevik Polis Alayında vakant sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**





Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə ayrı-ayrılıqda maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, DİN-ə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 203 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Onlardan 33 nəfəri torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş gənclər, 5-i isə şəhid ailələrinin üzvləri olub.

Gənclərlə görüşdə çıxış edən nazir Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafında, həmçinin 44 günlük Vətən müharibəsində gənclərimizin böyük rolu olduğunu, onların müxtəlif sahələrdə uğurla fəaliyyət göstərdiklərini və ölkəmizin ümumi inkişafına böyük töhfə verdiklərini xatırladıb. O, seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul olunacaq gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb və tövsiyələrini verib.

# Müdafiə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib

**26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə iyunun 25-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.**





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsi dərin hörmət və ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub. Sonra Müdafiə Nazirliyinin rəhbərliyi Şəhidlər xiyabanına gələrək Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə canlarından keçmiş şəhidlərimizin məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

# Silahlı Qüvvələr Günü münasibətilə müdafiə naziri hərbi hospitalda olub

**Silahlı Qüvvələr Günü münasibətilə Müdafiə Nazirliyinin rəhbər heyəti iyunun 25-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olub.**





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin hospitalın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyulub və ehtiram ifadə edilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov hospitalda müalicə olunan hərbi qulluqçularla görüşərək onların səhhəti ilə maraqlanıb, tezliklə sağalaraq xidmət yerlərinə qayıtmalarını arzu edib.

Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini hərbi qulluqçulara çatdırıb.

# Avronest Parlament Assambleyasının videokonfrans formatında Büro iclası keçirilib

**İyunun 25-də Avronest Parlament Assambleyasının (PA) videokonfrans formatında Büro iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, onlayn iclasda Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Azər Kərimli iştirak edib. Tədbir Avronest PA-nın həmsədrləri Andrius Kubilius və Maka Botçorişvilinin açılış nitqləri ilə başlayıb. Büronun işinə Andrius Kubilius moderatorluq edib. İclasda iştirak edən nümayəndə heyətlərinin rəhbərləri çıxış edərək ölkələrində gedən iqtisadi-siyasi proseslər, COVID-19 pandemiyasının mövcud vəziyyəti və onunla mübarizə tədbirləri barədə məlumat verib, Şərq Tərəfdaşlığı bölgəsində təhlükəsizliyin təmin edilməsi və ölkələrin ərazi bütövlüyünün qorunması məsələlərinə toxunublar.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Azər Kərimli ötən ilin sonunda ölkəmizin öz ərazi bütövlüyünü bərpa etməsi ilə regionda yaranmış yeni əməkdaşlıq imkanları barədə məlumat verib. Bildirib ki, yeni reallıqlar Azərbaycan və Ermənistan arasında 30 illik silahlı qarşıdurmaya son qoyub, tərəflər arasında normal münasibətlərin qurulmasına, davamlı sülhün, iqtisadi əlaqələrin bərqərar edilməsinə, infrastruktur və kommunikasiya layihələrinin həyata keçirilməsinə əlverişli zəmin yaradıb. O, Ermənistanda formalaşacaq yeni hökumətin Azərbaycana qarşı revanşizmlə məşğul olmayacağına, üçtərəfli Bəyanatın müddəalarına əməl edərək regional əməkdaşlığı dəstəkləyəcəyinə ümidini ifadə edib.

Azər Kərimli qarşı tərəfin mina xəritələrini təqdim etməməsindən, Azərbaycan jurnalistlərinin minaya düşərək həlak olmasından, Zəngəzur dəhlizinin reallaşdırılmasından, Qarabağda bərpa işlərindən danışıb.

İclasda Şərq Tərəfdaşlığı ölkələri arasında əlaqələrin inkişafı, bu ilin sonunda baş tutması gözlənilən Şərq Tərəfdaşlığı sammitinin gündəliyi və digər məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul edilib.

# Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası gəlirlər 24 681 734,6 min manat, xərclər 26 416 297,5 min manat məbləğində olmaqla təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icra olunmuş gəlirləri və xərcləri aşağıdakı kimi qəbul edilsin:

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| **1.** | **Gəlirlər** | **24 681 734 586** |
2.2. həmin Qanunun 2-ci maddəsindəki cədvəlin 1.14-cü bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

2.3. həmin Qanunun 2-ci maddəsindəki cədvəlin 2.12.2.1-ci yarımbəndində "məqsədli büdcə fondu" dedikdə "Avtomobil yolları" məqsədli büdcə fondu nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2021-ci il*

# Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkili haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi və ərazilərin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlar zamanı şəhid olmuş şəxslərin ailə üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnunluğunun təmin olunması, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin, şəffaflığın artırılması, habelə xidmətlərin vahid məkandan təxirəsalınmaz və operativ icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Şəhid ailələrinin üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə göstərilən xidmətlərin vahid məkandan həyata keçirilməsini təmin etmək məqsədilə "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri" (bundan sonra - Mərkəz) yaradılsın.

2. "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı" təsdiq edilsin (əlavə olunur).

3. "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra - Nazirlik) bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən siyahıda nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) həmin siyahıda göstərilmiş xidmətlər üzrə fəaliyyətinin əlaqələndirilməsi və müraciətlərin icra vəziyyətinin monitorinqi üzrə əlaqələndirici orqan qismində müəyyən olunsun.

5. Müəyyən edilsin ki:

5.1. Mərkəzdə xidmətlər "bir pəncərə", həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında göstərilir;

5.2. Mərkəzdə xidmətlər birbaşa (yerində), "Çağrı mərkəzi" vasitəsilə və səyyar formada təşkil edilir.

6. Mərkəzin fəaliyyəti ilkin mərhələdə Nazirliyin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin DOST mərkəzlərində, daha sonra xidmət göstəriləcək şəxslərin sayı nəzərə alınmaqla, digər inzibati ərazi vahidləri üzrə Nazirliyin yerli qurumlarının inzibati binalarında təşkil edilsin.

7. Bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən siyahıda nəzərdə tutulmuş dövlət orqanları (qurumları):

7.1. Mərkəzdən daxil olmuş müraciətlərin icrasını, o cümlədən vaxtında və tam (əhatəli) cavablandırılmasını təmin etmək məqsədilə mövcud ştat vahidləri çərçivəsində müvafiq struktur bölməsi yaratsınlar və ya bununla bağlı səlahiyyətləri mövcud struktur bölməsinə həvalə etsinlər;

7.2. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən siyahıda nəzərdə tutulmuş xidmətlərin göstərilməsinin və hüquqmüəyyənedici sənədlərin verilməsinin Mərkəz vasitəsilə həyata keçirilməsini təmin etmək üçün Mərkəzin fəaliyyət göstərdiyi yerləri dövlət büdcəsində aidiyyəti dövlət orqanları (qurumları) üçün müəyyən edilmiş büdcə təxsisatları çərçivəsində zəruri işçi qüvvəsi, texniki kommunikasiya və informasiya resursları ilə təmin etsinlər, habelə həmin resursların zəruri dövlət informasiya sistemlərinə (ehtiyatlarına) çıxışını təşkil etsinlər;

7.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsinlər.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

8.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən siyahıda göstərilmiş dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin rəhbərliyi ilə həmin dövlət orqanları (qurumları) rəhbərlərinin müavinlərinin təmsil olunduğu Əlaqələndirmə Komissiyasının yaradılmasını təmin etsin;

8.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Nazirlik:

9.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən siyahıda göstərilmiş dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının Mərkəzdə müvafiq xidmətlər göstərmələri üçün zəruri şərait yaradılmasını və digər tədbirlər görülməsini təmin etsin;

9.2. Mərkəzdə xidmət göstərəcək dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri arasında əlaqələndirməni Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə həyata keçirməklə Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemində müvafiq dəyişikliklər edilməsini üç ay müddətində təmin etsin;

9.3. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən siyahıda göstərilmiş dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi, Mərkəzə daxil olan müraciətlərin icra vəziyyətinin monitorinqi və onların icrasına dair hesabatlılığın təmin edilməsi məqsədilə Katiblik yaratsın;

9.4. Mərkəzin fəaliyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir

### Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı

| Sıra №-si | Xidmətin adı |
|---|---|
| 1 | 2 |
| **1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | |
| 1.1. | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə dair arayışlar verilməsi |
| 1.2. | tibbi sosial ekspertiza və reabilitasiya üzrə xidmətlər, o cümlədən əlilliyin müəyyən edilməsi, reabilitasiya vasitələri ilə təminat |
| 1.3. | məşğulluq sahəsində göstərilən xidmətlər |
| 1.4. | əmək pensiyası və sosial müavinətlər üzrə müraciətlərin qəbulu |
| 1.5. | Azərbaycan Respublikası Prezidentinin təqaüdləri üzrə müraciətlərin qəbulu |
| 1.6. | sosial xidmət sahəsində göstərilən xidmətlər, o cümlədən əlilliyi olan şəxslərin peşə-əmək reabilitasiyası, sosial məişət xidmətlərinin göstərilməsi, sanatoriya-kurort putyovkaları (yollayışları) ilə təminat |
| **2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi** | |
| 2.1. | şəhid və şəhid ailəsi statusunun əldə olunması üçün arayışlar verilməsi məqsədilə müraciətlərin qəbulu (zabit və gizir heyətinə münasibətdə) |
| 2.2. | müharibə veteranı adının və vəsiqəsinin verilməsi üçün müraciətlərin qəbulu (Azərbaycan Ordusuna münasibətdə) |
| 2.3. | orden və medallarla təltif olunma üçün müraciətlərin qəbulu (Azərbaycan Ordusuna münasibətdə) |
| 2.4. | xəsarət (yaralanma, travma, kontuziya) alınması barədə, habelə əlilliyin müəyyən edilməsi üçün tələb olunan müvafiq arayışlar verilməsi məqsədilə müraciətlərin qəbulu |
| 2.5. | sığorta ödənişləri ilə bağlı tələb olunan sənədlərin verilməsi üçün müraciətlərin qəbulu |
| **3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi** | |
| 3.1. | tabeliyində olan tibb müəssisələrində tibbi yardım göstərilməsi ilə bağlı müraciətlərin qəbulu |
| **4. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti** | |
| 4.1. | hərbi xidmətkeçmə haqqında arayış verilməsi |
| 4.2. | çağırışçılara müddətli həqiqi hərbi xidməti hansı hərbi hissədə keçdikləri barədə məlumat verilməsi |
| 4.3. | müharibə veteranlarına və şəhid ailələrinə müvafiq arayışlar verilməsi |
| 4.4. | hərbi qeydiyyatda olma barədə arayış verilməsi |
| **5. Yerli icra hakimiyyəti orqanları** | |
| 5.1. | yaşayış sahəsinə ehtiyacı olan qismində müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxsin, şəhid ailə üzvünün uçota alınması barədə müraciətlərin qəbulu |
| 5.2. | yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması barədə müraciətlərin qəbulu |
| 5.3. | ərazisində yaşayan şəhid ailələrinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə ailə tərkibini təsdiq edən arayışlar və digər arayışlar verilməsi |
| 5.4. | şəhid adının əbədiləşdirilməsi, o cümlədən prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi, eləcə də onların adlarının dəyişdirilməsi barədə müraciətlərin qəbulu |
| **6. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi** | |
| 6.1. | tabeliyində olan tibb müəssisələrində səhiyyə xidmətləri ilə bağlı müraciətlərin qəbulu |
| 6.2. | immunoprofilaktikaya dair məlumat verilməsi |
| 6.3. | tibbi arayışların elektron registrindən məlumatların verilməsi |
| **7. Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti** | |
| 7.1. | şəhid statusu verilmiş şəxsin vərəsələrinə sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu |
| 7.2. | müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu |
| 7.3. | hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrinin) yerinə yetirilməsi ilə əlaqədar xəsarət (yaralanma, travma, kontuziya) alan hərbi qulluqçulara sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu |

## Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir

### Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərilməsi Qaydası

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda şəhid ailələrinin üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə (bundan sonra - şəxslər) əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, habelə digər sahələrdə xidmətlər (bundan sonra - xidmətlər) şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində (bundan sonra - Mərkəz) göstərilməsi qaydasını müəyyən edir.

1.2. Mərkəzdə xidmətlər "bir pəncərə", həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilir.

1.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra - Nazirlik) Mərkəzdə xidmət göstərən aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsini həyata keçirir və müraciətlərin icra vəziyyətinin monitorinqini aparır.

1.4. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının normativ-hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

**2. Mərkəzin fəaliyyətinin məqsədləri**

2.0. Mərkəzin fəaliyyətinin məqsədləri aşağıdakılardır:

2.0.1. şəxslərin əlavə xərclərinin və vaxt itkisinin qarşısını almaq;

2.0.2. şəxslərə göstərilən xidmət səviyyəsini yüksəltmək və xidmətlərin əlçatanlığını, rahatlığını təmin etmək;

2.0.3. şəffaflığı təmin etmək, korrupsiyaya qarşı mübarizəni gücləndirmək.

**3. Mərkəzin fəaliyyətinin təşkilinə dair ümumi tələblər**

3.1. Mərkəzin iş qrafikini Nazirlik müəyyən edir.

3.2. Mərkəzdə göstərilən xidmətlər Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş siyahıda göstərilən dövlət orqanları (qurumları) tərəfindən göstərilir.

3.3. Mərkəzdə xidmətlər aşağıdakı qaydada təşkil olunur:

3.3.1. xidmətlər Nazirliyin müəyyən etdiyi inzibati ərazi vahidi (vahidləri) üzrə (xidmət göstəriləcək şəxslərin sayına uyğun olaraq ) göstərilir;

3.3.2. xidmətlər növbəlilik qaydasında həyata keçirilir;

3.3.3. xidmətlər bir-biri ilə qarşılıqlı əlaqədə, informasiya texnologiyalarından geniş istifadə edilməklə həyata keçirilir;

3.3.4. Mərkəzin fəaliyyəti Nazirliyin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin DOST mərkəzlərində, habelə xidmət göstəriləcək şəxslərin sayı nəzərə alınmaqla, inzibati ərazi vahidləri üzrə Nazirliyin yerli qurumlarının inzibati binalarında təmin olunur.

**4. Mərkəzdə xidmətlərin təşkili**

4.1. Mərkəzdə xidmətlər aşağıdakı formalarda göstərilir:

4.1.1. birbaşa (yerində) xidmət;

4.1.2. "Çağrı mərkəzi" vasitəsilə xidmət;

4.1.3. səyyar xidmət.

4.2. Birbaşa (yerində) xidmət vasitəsilə şəxsə Mərkəzdə müraciət etdiyi dövlət orqanının (qurumunun) əməkdaşı bilavasitə xidmət göstərir.

4.3. Birbaşa (yerində) xidmət göstərilməsi aşağıdakı qaydada həyata keçirilir:

4.3.1. şəxs Mərkəzə daxil olaraq məlumat köşkündən əldə etmək istədiyi xidmətlə bağlı hansı pəncərəyə və hansı sənədlərlə müraciət etməli olduğunu öyrənir, yaxud əldə etmək istədiyi xidmətlə bağlı tələb olunan sənədlərin tamlığının yoxlanılması üçün həmin sənədləri məlumat köşkünə təqdim edir;

4.3.2. məlumat köşkündə şəxsin əldə etmək istədiyi xidmətlə bağlı təqdim etdiyi sənədlərin tamlığı yoxlanıldıqdan sonra ona elektron növbə verilir, yaxud əlavə olunması tələb olunan sənədlər, habelə müraciətlə bağlı ərizənin və ya digər sənədlərin (anketlərin) doldurulmasının tələb olunduğu barədə məlumat verilir;

4.3.3. əldə etmək istədiyi xidmətlə bağlı ərizənin və ya digər sənədlərin (anketlərin) doldurulmasında şəxsin köməyə ehtiyacı olduğu halda o, Mərkəzdə fəaliyyət göstərən könüllülərə və ya Mərkəzin bu məqsəd üçün ayrılmış əməkdaşına müraciət edə biləcəyi barədə məlumatlandırılır;

4.3.4. şəxs ona verilmiş elektron növbəyə uyğun olaraq müraciət edəcəyi pəncərənin qarşısında gözləyir və növbəsi çatdıqda tələb olunan sənədləri həmin pəncərəyə təqdim edir;

4.3.5. müraciətlər Mərkəzdə qəbul olunur, müraciətlərin qeydiyyatına və icrasına nəzarət elektron formada aparılır;

4.3.6. göstərilən xidmətlə bağlı müraciətə baxılma və həmin müraciətin nəticəsinin rəsmiləşdirilməsi müraciət edildiyi vaxt mümkün olduğu halda, qərar yerində qəbul edilərək şəxsə təqdim olunur;

4.3.7. bu Qaydanın 4.3.6-cı yarımbəndinə əsasən, müraciətə baxılma mümkün olmadıqda, "İnzibati icraat haqqında", "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, şəxsin müraciəti "VƏM" qeydi ilə icra üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) dərhal göndərilir;

4.3.8. "VƏM" qeydi ilə daxil olmuş müraciətlər aidiyyəti dövlət orqanlarının (qurumlarının) bu məqsədlə yaradılmış və ya bununla bağlı səlahiyyətlərin həvalə edildiyi mövcud struktur bölmələri tərəfindən hərtərəfli, operativ araşdırılmaqla "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun icra olunur və qəbul edilmiş müvafiq qərar və ya hüquqmüəyyənedici sənədlər şəxsə göndərilməsi üçün Mərkəzə təqdim olunur;

4.3.9. Mərkəzdə şəxsin arzusu ilə "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə uyğun olaraq, informasiya sistemlərindən istifadə yolu ilə onun bu Qaydanın 1.1-ci bəndində göstərilən məsələlərlə bağlı hüquqları müəyyən edilir və həmin hüquqlarla bağlı müvafiq xidməti əldə etmək istəyi olduqda, ona bu Qaydada nəzərdə tutulan formada hüquqi xidmət və məsləhət xidmətləri göstərilir.

4.4. "Çağrı mərkəzi" vasitəsilə şəxs Mərkəzə gəlmədən internet və ya telefon vasitəsilə bütün xidmət növləri, tələb edilən sənədlər barədə məlumat ala, növbə tuta, Mərkəzin fəaliyyəti ilə bağlı təkliflərini bildirə bilər.

4.5. "Çağrı mərkəzi" vasitəsilə şəxslərə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara uyğun olaraq, bu Qaydanın 1.1-ci bəndində göstərilən məsələlərlə bağlı xidmət göstərilir.

4.6. "Çağrı mərkəzi" vasitəsilə xidmət göstərilməsi barədə müraciətlər xidmət keyfiyyətinin qiymətləndirilməsi məqsədilə qeydə alınır.

4.7. Sağlamlıq vəziyyəti məhdud olduğundan Mərkəzə gələ bilməyən şəxslərə səyyar formada xidmətlər göstərilir.

4.8. Səyyar xidmətlər şəxsin yaşadığı və ya olduğu yerdə Mərkəzin iş qrafikinə uyğun göstərilir. Müraciətlərin sayının çoxluğu və səyyar xidmət göstərilməsi tələb olunan ünvanların uzaq məsafədə yerləşməsi səbəbindən Mərkəzin gündəlik (həftəlik) müraciət qəbuluna məhdudiyyət tətbiq etmək hüququ vardır.

4.9. Hər iş gününün sonunda Mərkəzə daxil olmuş müraciətlər əsasında növbəti iş günü üçün səyyar xidmət göstərilməsi qrafiki hazırlanaraq təsdiq edilir və səyyar xidmət göstərəcək əməkdaşlar müəyyən olunur.

4.10. Səyyar xidmət göstərilməsi zamanı Azərbaycan Respublikasının qanunları və digər normativ-hüquqi aktları ilə müəyyən edilmiş sənədlərdən əlavə sənədlərin tələb edilməsi qadağandır.

4.11. Səyyar xidmət göstərilməsi şəxsdən tələb olunan sənədlərin təhvil alınmasını və (və ya) hazır sənədlərin ona təhvil verilməsini nəzərdə tutur.

4.12. Səyyar xidmət göstərilməsinə dair müraciət "Çağrı mərkəzi"nə zəng vurmaqla edilir. Şəxsin müraciəti zamanı "Çağrı mərkəzi"nin operatoru müvafiq xidmət göstərilməsi üçün əsas şərtləri (icra müddəti, normativ-hüquqi aktlara istinad etməklə tələb olunan sənədlər) izah edir və zəruri sənədlərin şəxsdə mövcudluğunu öyrənir.

4.13. Səyyar xidmət göstərilməsinə dair müraciət bu Qaydaya uyğun formada edilmədikdə, müraciət qəbul olunmur və imtinanın səbəbi barədə şəxsə məlumat bildirilir.

4.14. Şəxsin əldə etmək istədiyi xidmətlə bağlı müraciətinin qəbulu üçün Mərkəzdə göstərilən digər xidmət göstərilməsi də tələb olunduqda, ona həmin xidmət də təklif edilir.

4.15. Şəxs səyyar xidmət göstərilməsi şərtləri ilə razılaşdıqda və xidmət göstərilməsi üçün tələb olunan sənədlərinin mövcudluğunu bildirdikdə, ona dair məlumatlar (soyadı, adı, atasının adı, ünvanı, əlaqə nömrələri, xidmətin göstərilmə yeri və vaxtı, fərdi identifikasiya nömrəsi) öyrənilərək qeyd edilir, operator xüsusi proqram təminatı vasitəsilə xidmət göstərilməsi üçün uyğun olan vaxtı (tarix və saat) müəyyənləşdirir və şəxslə razılaşdırdıqdan sonra müraciəti qəbul edib təsdiqləyir.

4.16. Səyyar xidmət göstərilməsinə dair müraciəti operator qəbul edərək təsdiqlədikdən sonra həmin müraciət xüsusi proqram təminatı vasitəsilə müvafiq Mərkəzə ötürülür.

4.17. Mərkəzin səyyar xidmət göstərəcək əməkdaşı müraciətdə qeyd edilən ünvana getməzdən əvvəl xidmətin qüvvədə olmasını dəqiqləşdirir.

4.18. "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən, səyyar sosial xidmətlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq göstərilir.

# Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2020-ci il büdcəsinin icrası haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə"yə və 2001-ci il 12 sentyabr tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları"na müvafiq olaraq Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2020-ci il büdcəsinin icrası ilə bağlı hazırlanmış hesabata dair Dövlət Neft Fondunun Müşahidə Şurasının və Azərbaycan Respublikası Hesablama Palatasının rəylərini və Dövlət Neft Fondunun maliyyə fəaliyyətinin beynəlxalq auditor təşkilatı tərəfindən keçirilmiş auditinin nəticələrini nəzərə alaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2020-ci il büdcəsinin icrası, gəlirlər 9 360 769,8 min manat, xərclər 12 425 288,5 min manat və ya Fondun 2020-ci il büdcəsində nəzərdə tutulana nisbətən gəlirlər üzrə 119,5 faiz, xərclər üzrə 99,9 faiz səviyyəsində olmaqla, aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | Göstəricilər | min manatla |
|---|---|---|
| **Gəlirlər, cəmi:** | | **9 360 769,8** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 6 587 262,2 |
| 2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilərin müqavilə sahəsindən istifadə üçün akrhesabı ödənişləri | 6 752,4 |
| 3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər | 20 362,0 |
| 4. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər | 1 978 615,8 |
| 5. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilərin ödədikləri bonuslar | 767 777,4 |
| **Xərclər, cəmi:** | | **12 425 288,5** |
| | o cümlədən: | |
| 1. | Məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi | 199 998,1 |
| 2. | Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinə transfertin yuxarı həddi | 12 200 000,0 |
| 3. | "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 4 103,2 |
| 4. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 21 187,2 |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2021-ci il*





# Döyüş meydanına səyahət

## Böyük Qələbəmizin əbədiləşdiyi Hərbi Qənimətlər Parkı qürur rəmzimiz, fəxarət ünvanımızdır

*Əvvəli 1-ci səh.*

İndi qarşımda yenə həmin mənzərə dayanır. Düşmənin hərbi texnikaları, silah-sursatı, müdafiə istehkamları, bunkerləri, boş qalmış dəbilqələri...

Bu məkanı düşmənin hərbi taktikasının qəbiristanlığı da adlandırmaq olar. Ancaq bura bizim Şanlı Zəfərimizin simvolu olan Hərbi Qənimətlər Parkıdır. Qürur və fəxarət ünvanımızdır.

### Qalibiyyət dastanını xatırladan məkan

Parkın ərazisini gəzdikcə altı ay öncəki hissləri yenidən yaşayıram. Cəbrayıl, Qubadlı, Xocavənd istiqamətində keçdiyimiz döyüş yollarını, yaşadıqlarımızı vaxt tapanda döyüşçü kimi “savaş gündəliyimə” qeyd edirdim. Aylar sonra yenə həmin mənzərə ilə üz-üzəyəm, amma bu dəfə gördüklərimi jurnalist kimi tarixə köçürürəm.

Parkda nümayiş etdirilən 300-dən çox eksponat düşmənin 30 il ərzində hansı hərbi texnika, silah-sursatla silahlandığını, necə müdafiə istehkamları qurduğunu göstərir. Parkın yaradılması 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistanı döyüş meydanında məğlub etməsi nəticəsində ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin və ermənilər tərəfindən qurulmuş müdafiə sədlərinin nümayiş etdirilməsi məqsədini daşıyır.

Tarixi Zəfərin əbədiləşdirilməsi üçün paytaxtın Xətai rayonunda ümumi sahəsi 5 hektar olan ərazidə açıq səma altında yaradılmış bu nadir məkanın elə yanından keçərkən ordumuzun qalibiyyət dastanı yada düşür.

Parkın girişində informasiya mərkəzi və suvenir satışı məntəqəsi yaradılıb. İnformasiya mərkəzində parkdakı bütün eksponat, kompozisiyalar haqqında məlumatlar var və hətta onların hansı sırada yerləşdiyi də göstərilir. İnformasiya mərkəzi ilə üzbəüz yerləşən suvenir satışı məntəqəsində müxtəlif əşyalar var. Parka təşrif buyuranlar buradan xatirə üçün Vətən müharibəsinə aid suvenirlər və hərbi geyim əşyaları da əldə edə bilirlər.

### 522 hərbi yük maşınının nömrəsi

Parkda hərbi-zirehli texnikalarla yanaşı, bir-birindən maraqlı kompozisiyalar da quraşdırılıb. Yəni burada sərgilənən qənimətlər müxtəlif istiqamətlidir.

Parkda yaradılan hər bir element demək olar ki, nadirdir. Parkı hazırlayanların kreativ ideyaları da diqqəti çəkir. Məsələn, oturacaqlar qənimət kimi götürülmüş mərmi yeşiklərindən düzəldilib. Ərazidəki işıqlandırma sistemi mərmilərin ərintilərindən, zibil qutuları isə top gilizlərindən hazırlanıb.

Maraqlı tablolardan biri ordumuzun işğaldan azad olunan torpaqlarda düşməndən qənimət kimi götürdüyü avtomobillərin nömrə nişanından hazırlanan və üzərində “Qarabağ Azərbaycandır!” yazılan lövhədir.

Erməni hərbçilərinin qoyub qaçdıqları hərbi avtomobillərin əksəriyyəti saz vəziyyətdədi. Parkda həmin avtomobillərin nömrələrindən ibarət yaradılan lövhə Ali Baş Komandan İlham Əliyevin söylədiyi kimi, erməni fərariliyinin təzahürüdür. Çünki bu nömrələr düşmənin 522 hərbi yük maşınının nömrəsidir. Onlar Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya qənimət kimi götürülüb. Yük maşınlarının burada sərgilənən nömrələri qənimət kimi götürülmüş texnikanın, sadəcə, kiçik hissəsini təşkil edir.





















### Boş qalmış dəbilqələr, saz vəziyyətdə olan texnikalar...

Savaş günlərində bəlkə də ən çox rast gəldiyimiz əşya erməni əsgərinin boş qalmış dəbilqələri idi. Bizim onlara ehtiyacımız olmadığı üçün əksəriyyəti ayaqlar altında təpiklənə-təpiklənə əzilirdi.

8-9 ay əvvəl bu dəbilqələr boş deyildi, onlardan bizə qəzəbli düşmən baxışları sancılmışdı. İndi isə Bakı küləyinin şapalağı ilə bir-birinə toxunan dəbilqələrdən yayılan zəng səsi ekspozisiyanın yaratdığı ovqatı ikiqat artırır. Bu paslı dəbilqələrin çırpınışı əcəl zənginə çevrilərək özü uzaqlarda olsa da, qulağı hər zaman bizdə olan düşmən üçün rekviyem kimi cingildəyir.

Parkda yaradılan həmin kaskalardan ibarət kompozisiya dərin fəlsəfi mənası ilə diqqəti cəlb edir. Düşmən hərbçisinin boş qalmış dəbilqələri onu göstərir ki, erməni əsgəri nə qədər pulsuz silah-sursat, hərbi texnika ilə təchiz olunsa da, yenə Azərbaycan hərbçisi qarşısında aciz idi. Vətən müharibəsində yüksək döyüş ruhu ilə savaşan Azərbaycan əsgərinin qarşısında heç bir zireh tab gətirə bilməzdi.

Parkdakı bütün texnikalar yararsız vəziyyətdə deyil. Yəni saz vəziyyətdə olanları da var. Məsələn, buradakı 57 zirehli texnikanın 18-i, 30 artilleriya qurğusundan 11-i, 49 avtomobil texnikasından 11-i işlək vəziyyətdədir.

Silah-sursat eksponatlar sərgisi iki hissəyə bölünür və burada nasaz silah yoxdur. Birinci eksponatlarda 15-i, ikincisində isə 27-si saz vəziyyətdə olan müxtəlif iriçaplı silahlardır.

Hətta parkda nümayiş olunan düşmənin KUB zenit-raket kompleksi, hərəsindən bir nümunə olmaqla tırtıllı ağır texnikası da saz vəziyyətdədir. Eləcə də bir neçə ağır texnika - T-72 tankları, piyadaların döyüş maşınları, 2 S1 “Qvozdika” özüyeriyən artilleriya qurğusu, “OSA” zenit-raket kompleksi və digər eksponatları da bu sıraya daxil etmək olar. Hər texnikanın qarşısında quraşdırılmış məlumat lövhəsi imkan verir ki, gördüyün zirehli texnika, silah-sursatla bağlı ətraflı məlumat ala biləsən.

Düşməndən qənimət götürülmüş iriçaplı minaatanlar da diqqətdən yayınmır. Bu minaatanlar kustar üsulla hazırlanmış rels üzərində hərəkət edən silahlardır ki, savaş zamanı ordumuza qarşı onlardan istifadə olunurdu. Özəllik ondan ibarətdir ki, bu minaatanlar relslə hərəkət edilir, atəş açılır, daha sonra gizlədilirdi. Bu da atəş nöqtəsini müəyyən etmək üçün çətinlik yaradırdı. Amma ordumuzun artilleriya bölmələri onları da dəqiq atəşlə zərərsizləşdirə bilirdilər.

### Bunkerlər, “keçilməz Ohanyan sədləri”, mühəndis maneələr

Şanlı Zəfər tariximizin bir hissəsinə çevrilmiş parkın ən maraqlı hissələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis maneələr sistemini ehtiva edən ərazidir. Hansı ki, bunlar döyüşlər zamanı düşmənin ən etibar etdiyi müdafiə istehkamları idi.

Amma bu istehkamlar da onların işinə yaramadı. Müasir döyüş taktikası ilə düşmən üzərinə şığıyan Azərbaycan hərbçiləri əsl qəhrəmanlıq nümayiş etdirərək böyük maneələri aşırdılar. Döyüş tapşırığını yerinə yetirən bölmələrimiz itki versələr də, geri çəkilmirdilər, əksinə, düşmən üzərinə aslan kimi atılırdılar. Nə qədər çətin olsa da, Azərbaycan Ordusunun şəxsi heyəti bu maneləri aşaraq düşməni iti qovan kimi torpaqlarımızdan uzaqlaşdırırdılar.

Onu da deyək ki, düşmənin yaratdığı 10 səddən ibarət müdafiə sistemini yarmaq həqiqətən böyük qəhrəmanlıq, peşəkarlıq tələb edirdi. Çünki hər bir texnika, canlı qüvvə üçün təhlükəli maneələr mövcud idi.

Məsələn, birinci sədd avtomobil və zirehli texnikaların keçə bilməməsi üçün düzəldilmişdi. Düşmən xəndəyi qazarkən torpağı öz tərəfinə töküb ki, hücum edən bölmələrimiz xəndəyi asanlıqla doldura bilməsinlər. İkinci sədd tank əleyhinə mina sahəsi məqsədilə qurulmuşdu. Mina sahəsi 2-3 cərgəli idi. Minalararası məsafə 4-5,5 metr, cərgələrarası məsafə isə 5 metr saxlanılmışdır. Üçüncü səddəki tank əleyhinə dirəklər texnikaların hərəkətini məhdudlaşdırırdı. Dördüncü səddəki metal kirpilər isə texnikaların hərəkətini əngəlləmək üçün qurulmuşdu. Beşinci sədd alçaq dirəklər üzərində tikanlı məftildən hazırlanmış tordan ibarət idi. Bu maneə 3 metr enində qurulur, canlı qüvvənin keçə bilməməsi üçün tətbiq olunurdu. Altıncı sədd hündür dirəklər üzərində tikanlı məftildən hazırlanmış tor idi. 1-1,5 metr hündürlükdə dirəklərdə qurulmuşdu. Şəxsi heyətin və texnikanın keçə bilməməsi üçün əngəl yaradır, keçə bilmək qabiliyyətini azaldırdı. Yeddinci sədd piyada əleyhinə mina sahəsi idi. Üç və daha çox cərgədə qurulurdu. Bu sədd canlı qüvvənin tələfat verməsi məqsədilə tətbiq olunurdu. Səkkizinci sədd az nəzərəçarpan məftil maneələr idi. Bu, canlı qüvvənin hərəkətini əngəlləmək məqsədilə düzəldilirdi. Doqquzuncu sədd tikanlı məftillər idi. Bu maneə 2-3 cərgəli qurulur və şəxsi heyətin hərəkətini əngəlləyirdi. Nəhayət, onuncu sədd səngər üzərində qurulmuş lent tipli məftil maneələr idi.

Savaş zamanı bu manelərə daha çox Füzulidə, Cəbrayılda, Ağdamda, Goranboyda rast gəlinirdi. Düşmən bu maneələr sistemini əsasən Füzuli və Cəbrayılda 9 sədd, Tərtər-Ağdamda 6 sədd, Goranboy istiqamətində isə 3 sədd həddində quraşdırmışdı. Ancaq Azərbaycan əsgəri “keçilməz” adlanan bu sədləri yeni döyüş taktikası ilə adlayaraq düşmənə uzun müddət unuda bilməyəcəyi ağır zərbələr endirdi.

İndi həmin sədlərin eynisi Bakının mərkəzində quraşdırılıb, Qarabağa gedə, o maneələri canlı görə bilməyənlər düşmənin necə müdafiə mövqeyi yaratdığını, Azərbaycan əsgərinin hansı sədləri yardığını burada görə bilərlər.

### Erməni rəzilliyi - zəncirlənmiş əsgərlər, yeraltı yollar...

Yataq və komanda otaqlarında erməni hərbçilərinin müqəvva-maketləri də yaradılıb. Yaralı əsgərlərin üzlərindəki iztirab və qorxu, zabitlərin aciz vəziyyəti çox maraqlı formada təsvir edilib. Burada zəncirlənmiş erməni əsgərlərinin maketlərini də görmək olar. Bu da tam reallığı əks etdirir. Çünki savaş vaxtı erməni zabitləri əsgərlərin səngərləri tərk edib qaçmaması üçün bu rəzilliyə əl atmışdılar. Özləri şərəfsizcəsinə döyüş meydanından qaçır, zəncirlənmiş erməni əsgərləri isə ağ bayraq qaldıraraq təslim olurdular.

Burada nəzarət sistemi də olduğu kimi qurulub. Erməni hərbçiləri məhz bu sistemlə işğal altında olan əraziləri kameralarla nəzarətdə saxlayırdı. Divardan asılmış xəritədə isə ordumuzun hərbi birləşmələrinin hücum istiqamətləri əks olunub.

Yeraltı yollar birbaşa səngərlərə çıxır. Səngərlərdə olan avtomobil təkərləri, beton qalıqları da döyüş bölgəsindən gətirilib. Düşmənin iriçaplı pulemyotları müxtəlif istiqamətlərə tuşlanıb.

Bu, o səngərdi ki, düşmən əsgəri Azərbaycan PUA-larını görən kimi pulemyotunu ataraq qaçıb qorxaqcasına gizlənirdi. Amma artilleriya bölmələrimizin dəqiq atəşləri ilə gizləndikləri səngərlər, dəlmə-deşiklər məzarlarına çevrilirdi. Sağ qalanları isə səngərdən çıxıb it kimi qaçırdı, ya da ağ bayraq qaldırıb təslim olurdu.

Burada eyni zamanda Ermənistan ordusunun bölmələrinin döyüş mövqelərində xidmət və məişət şəraiti öz əksini tapıb. Düşmən ordusunun bölmələrinin döyüş mövqelərində təchiz edilmiş əsgər yataqxanası da olduğu kimi qurulub.

Parkın ərazisində hərbi çadır altında qurulan “Kinozal” otağında Vətən müharibəsinə aid videoçarxları və qısametrajlı filmləri izləmək mümkündür. Burada həmçinin fiziki qüsurlu vətəndaşlar üçün istirahət yerləri, sanitariya qovşağı, kofe və çay guşəsi də hərbi üslubda hazırlanıb.

Ümumiyyətlə, bu park, əslində, dəmir yumruğun zərbə gücünü sübut edən məkandır. Parka gələn insanlar burada yaradılan qurğuları gördükdən sonra həmin mövqeləri rəşadətli Azərbaycan Ordusunun necə yarması, necə böyük qəhrəmanlıq göstərməsi barədə təsəvvür ala bilirlər. Yəni bu gün parka baş çəkənlər Böyük Zəfərin hansı çətinlik və mərdlik hesabına qazanıldığına şahidlik edirlər.

### Bakının ən çox ziyarət edilən məkanlarından biri

44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri də törədib, o cümlədən döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirib, dinc sakinləri qətlə yetirib. Parkda həmin faktları xronoloji ardıcıllıqla özündə əks etdirən lövhə də mövcuddur. Burada Şuşaya atılmış “İskəndər M” raketinin qalıqları da var.

Parkın açılışı zamanı hərbçilərlə görüşən Ali Baş Komandan İlham Əliyev tarixi zəfəri belə qiymətləndirmişdi: “İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq”.

Yaratdığı Hərbi Qənimətlər Parkı ilə bağlı fikirlərini bölüşən Prezident demişdir ki, buraya gələn hər bir insan ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər.

Bəli, parkı gəzdikcə sanki Qubadlıda, Xocavənddə addımlayırdım. O zaman keçirdiyim hissləri bu gün Hərbi Qənimətlər Parkında yenidən yaşayırdım. Aylar sonra həmin mənzərəyə yenidən tamaşa etmək, o anları yenidən yaşamaq da varmış qismətdə və bu gün Zəfər yolumuzu dünyaya nümayiş etdirən müqəddəs məkanda fəxarət hissi ilə addımlamaq ayrı bir sevinc hissi idi.

*Artıq qısa zaman ərzində park Bakının ən çox ziyarət edilən məkanlarından birinə çevrilib. Buraya təşrif buyuran insanların simasındakı qürur hissi açıq-aydın hiss olunur. Hərbi Qənimətlər Parkı təkcə Vətən müharibəsindəki uğurlarımızı özündə əks etdirən ərazi kimi deyil, həm də muzey kimi incəsənət sahəsində əhəmiyyətli bir məkandır.*

**Rəşad BAXŞƏLİYEV,**
***“Azərbaycan”***

# Müzəffər hərbi güc



**Bu gün Azərbaycan Ordusunun yaradılmasının 103-cü ili tamam olur. Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci ildə imzaladığı müvafiq fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun təşkil olunduğu gün - 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü kimi qeyd edilir.**
**Milli Məclisin komitə sədrləri və deputatlar ordumuzla bağlı fikirlərini qəzetimizlə bölüşdülər.**

## Yaranma tarixini ilk dəfə qalib kimi qeyd edən Azərbaycan Ordusu

***Hicran HÜSEYNOVA,***
*Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor:*

- Azərbaycan Ordusu ilk dəfə öz yaranma tarixini qalib formada qeyd edir. 103 illik tarixində çox çətin və şərəfli bir inkişaf yolu keçən ordumuz öz Şanlı Qələbəsi ilə nəinki ölkəmizin, eləcə də, dünyanın hərb tarixində xüsusi yer tutur. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla bütün zabit və əsgər heyətini bu gün münasibətilə təbrik edərək Azərbaycan dövlətçiliyinin inkişafına, müdafiəsinə yönəlmiş müqəddəs fəaliyyətlərində onlara sonsuz uğurlar arzulayıram. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan hər zaman özünün görkəmli sərkərdələri, hərbi xadimləri ilə tanınmışdır. Xalqımız onlarla fəxr edə bilər. 1918-ci il iyun ayının 26-da Milli Ordunun yaradılması hələ ötən əsrin əvvəllərində əldə olunan müstəqilliyimizin bəhrəsi idi. Azərbaycanın ordu quruculuğu sahəsində əldə etdiyi nailiyyətlər böyük tarixi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Sovet hakimiyyəti dövründə azərbaycanlı gənclər hərbi xidmətə çağrılsalar da, onlar döyüş üçün nəzərdə tutulmuş hərbi hissələrdə yox, əsasən tikinti batalyonlarında xidmət edirdilər. Əlbəttə ki, burada əsas məqsədi azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişdirilməsinə maneə olmaq idi. Bu siyasətin mahiyyətini yaxşı başa düşən Ulu Öndər Heydər Əliyev XX əsrin 70-ci illərində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına, azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də keçmiş SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbuluna nail olmuşdu.

1991-ci ildə yenidən müstəqilliyimiz bərpa olunsa da, ölkə daxilində hakimiyyətsizlik, xaos, siyasi çəkişmələr, ordunun iflic vəziyyətində olması, ərazilərin işğalı, ölkənin parçalanması və müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdı. Yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəlməsi və Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkədə həyatın bütün sahələrində islahatlar aparılmağa başlanıldı, vəziyyət getdikcə stabilləşməyə başladı. O, ölkə rəhbərliyinə yenidən qayıdışından sonra Silahlı Qüvvələr quruculuğu istiqamətində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan vermiş, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratmışdır. Ali Baş Komandan, Prezident cənab İlham Əliyev bu siyasəti daha da gücləndirərək qısa vaxtda Azərbaycan Ordusunu Cənubi Qafqazın ən güclü ordusuna çevirdi. Dövlətimizin siyasi və iqtisadi baxımdan davamlı inkişafı ordumuzun gələcəkdə də öz inkişaf tempini saxlamaq üçün əsaslı bir təminat oldu. Ötən müddət ərzində büdcə xərclərinin böyük bir hissəsi hərbi xərclərə yönəldilmişdir. Azərbaycan bir çox ölkələrdən hərbi silah və sursatlar, hərbi-texniki maşınlar almışdı. Lakin biz təkcə bu silahları ixrac etmədik, eyni zamanda özümüz də istehsal etməyə başladıq. Dövlət başçısının sərəncamı ilə 2005-ci ildə Müdafiə Sənayesi Nazirliyinin yaranması da strateji əhəmiyyət daşıyırdı. Ölkəmizdə hərbi təyinatlı məhsulların buraxılması prosesi uğurla gedir və əldə olunan nailiyyətlər dünya miqyasında da qəbul edilir. Bu günlərdə imzalanmış Şuşa Bəyannaməsindən sonra hərbi sahədəki mövcud əməkdaşlıq daha da möhkəmlənəcəkdir. Bu isə dünyanın aparıcı dövlətlərinin Silahlı Qüvvələri ilə rəqabət aparmaq gücündə olan ordumuzun daha da güclənməsinə təkan verəcəkdir.

44 günlük Vətən müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin gücünü, hərbi qabiliyyətini, hazırlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Ordumuz XXI əsrin müharibəsini apardı. Artıq dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Rəşadətli ordumuz çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında elm, peşəkarlıq, hərbi məharət göstərərək, erməni işğalçılarını məhv edərək, torpaqlarımızı azadlığa çıxartdı.

Müharibə zamanı 5-ci nəsil müharibəsini aparan ordumuz tərəfindən hərbi əməliyyatlar zamanı silah və sursatların ehtiyaclılıq səviyyəsi bir daha təcrübədən keçirildi ki, bu da gələcəkdə hərbi xərclərin və hərbi təyinatlı məhsulların istehsalında daha düzgün və real qərarların qəbul edilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Bu məsələyə xüsusi münasibət bildirən cənab İlham Əliyev qeyd edir ki, "Bu döyüşlər bizim üçün böyük təcrübədir. Biz gördük ki, hərbi arsenalımızda olan bəzi silahlar bəzi hallarda müasir döyüşlərdə o qədər də lazım olmur. Əksinə, biz bu gün yüksək texnoloji mərhələyə qədəm qoymuşuq və əlbəttə ki, texnologiyalar, peşəkarlıq böyük dərəcədə hər bir ordunun uğurunu təmin edir".

Ancaq bununla yanaşı, bu müharibənin qalibi var. O da torpaqlarımızı işğalçılardan azad edən, sərhədlərimizi qoruyan, hər bir vətəndaşımızın əmin-amanlığının, sakit həyatının keşiyində dayanan bizim mərd, cəsarətli əsgərlər və zabitlərimizdir. Onlar bu Vətən üçün, üçrəngli bayrağımız üçün canlarını, sağlamlıqlarını fəda edirlər. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər zaman hərbçilərin, müharibə veteranlarının və qazilərinin, eyni zamanda, şəhid ailələrinin rifahı və sosial müdafiəsi üçün bütün imkanları yaradırlar. "YAŞAT" Fondu, Heydər Əliyev Fondu və digər qeyri-hökumət təşkilatları da bu prosesdə fəal iştirak edirlər. Hər birimiz dərk edirik ki, biz Qarabağın azad edilməsinə, torpaqlarımızın erməni faşizmindən təmizlənməsinə və ərazi bütövlüyümüzün təmin olunmasına görə şəhidlərimizə, qazilərimizə, Azərbaycan əsgəri və zabitinə borcluyuq! Qalib xalqın vətəndaşı, qalib ordunun əsgəri olmaq böyük şərəf və məsuliyyətdir. Bir daha Ali Baş Komandan, Prezident cənab İlham Əliyev başda olmaqla, Azərbaycan xalqının qüdrətli ordusunun mərd zabit və əsgərlərini təbrik edirəm.

## Qüdrətli Azərbaycan dövlətinin şanlı və qalib ordusu

***Siyavuş NOVRUZOV:***
*Milli Məclisin Regional məsələlər komitəsinin sədri:*

- Hər bir dövlətin gücünü müəyyən edən əsas amillərdən biri onun hərbi potensialı və müdafiə qabiliyyətidir. Silahlı Qüvvələrin gücü təkcə ölkənin hərbi qüdrəti demək deyil, bu, eyni zamanda, dövlətin beynəlxalq siyasət və təhlükəsizlik arenasında mövqeyinin qorunması baxımından əhəmiyyətli faktordur. Qürur hissi ilə qeyd edə bilərik ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan həm də güclü və rəşadətli orduya malikdir.

Təbii ki, Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında yer alması təsadüfi deyil. Bunu təmin edən amil xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu nizami və güclü ordu quruculuğu siyasətinin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. Xüsusi qeyd etmək lazımdır ki, müstəqil ölkəmizin güclü - qüdrətli ordusunun memarı olan Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik illərində ordu quruculuğu prosesinin dövrün çağırışlarına müvafiq olaraq ardıcıllıqla həyata keçirilməsi Azərbaycanın hərbi qüdrətinin artırılması işinə mühüm töhfələr vermişdir. Ulu Öndər tərəfindən hələ sovet dönəmində ordu quruculuğu istiqamətində bir sıra mühüm addımlar atılmışdı. Cəmşid Naxçıvanski adına hərbi məktəbin o dövrdə Bakıda açılması Heydər Əliyevin xidmətlərinin nəticəsi idi. Həmin məktəb peşəkar hərbçi-kadrların yetişməsi işinə müstəsna töhfələr verib və bu gün də müstəqil Azərbaycanın Ordusu üçün zabitlər hazırlayır.

Ümummilli Liderimizin siyasətini uğurla davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycanda ordu quruculuğu çərçivəsində hərbi məktəblərin fəaliyyətinə böyük önəm verir. Bu isə bəhs olunan sahədə tədris prosesinin sistemli şəkildə və ardıcıllıqla davam etdirilməsinə, nəticə etibarilə, kadr potensialının inkişafına, orduda peşəkarlığın daimi olaraq artırılmasına imkan yaradır. Bundan başqa, Azərbaycan zabitləri NATO standartlarına uyğun olaraq hərbi təlimlərdə iştirak edirlər. Hərbçilərimiz bir çox ölkələrdə təcrübələrini artırırlar, gənclərimiz ayrı-ayrı ölkələrə hərbi təhsil almağa göndərilirlər. Bütövlükdə, bu gün kadr potensialının inkişafı, orduda peşəkarlığın daimi olaraq yüksəldilməsi Silahlı Qüvvələrimizin gücünü artıran çox əhəmiyyətli amildir.

Ən mühüm məsələlərdən biri ölkəmizdə hərbi sənaye kompleksinin inkişafı istiqamətində sistemli və məqsədyönlü tədbirlərin həyata keçirilməsidir. Məlumdur ki, Müdafiə Sənayesi Nazirliyi xeyli adda hərbi məhsullar istehsal edir ki, bu da beynəlxalq müstəvidə hərbi sənaye kompleksimizə, istehsal olunan silahlara və digər məhsullara marağı xeyli artırır. Son illər ərzində ölkəmizdə 20-dən çox hərbi zavod yaradılıb və bu zavodlarda çoxsaylı hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda Azərbaycan artıq hərbi məhsullarını ixrac etməyə başlayıb. Ölkəmizdə istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir.

Beləliklə, görülən işlərin nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir hərbi strukturu sayılır. Ordumuz, həmçinin dünyanın ən güclü 50 ordusu sırasında yer alır.

İftixaredici haldır ki, Azərbaycan Ordusu öz gücünü döyüş meydanında göstərib. Ordumuz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu hərbi əməliyyatlar apararaq 44 gün ərzində Ermənistanın silahlı qüvvələrini darmadağın etdi. Düşmənin məğlub olaraq qarşımızda diz çökməsi və təslim olması xalqımızın tarixi zəfəridir. Bu, həm də müzəffər ordumuzun öz tarixi missiyasını uğurla yerinə yetirdiyini göstərir.

Digər tərəfdən, Vətən müharibəsi Azərbaycan Ordusunda sağlam mənəvi-psixoloji durumun, ruh yüksəkliyinin, özünəinam və güclü vətənpərvərlik hissinin hökm sürdüyünü təsdiqlədi. Eyni zamanda Azərbaycan xalqının öz qüdrətli dövlətinin ordusuna qətiyyətli və birmənalı dəstək verməsi şanlı tarixi qələbəmizin əldə olunmasında müstəsna rol oynadı. Böyük fəxrlə deyə bilərik ki, bu gün harada yaşamasından asılı olmayaraq, hər bir vətənpərvər azərbaycanlı özünü Ali Baş Komandanımızın əsgəri, Vətənin müdafiəçisi kimi görür, dövlətə və ordumuza prinsipial dəstək verir. Bütün bunlar isə haqq mübarizəsi aparan Azərbaycanın qüdrətini artırır.

Əminliklə söyləmək olar ki, qüdrətli Azərbaycanın qalib ordusu bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək və yeni nailiyyətlərin, zəfərlərin altına imza atacaq!

Yaşasın qüdrətli Azərbaycan! Yaşasın şanlı Azərbaycan Ordusu! Yaşasın Müzəffər Ali Baş Komandanımız!

## Silahlı Qüvvələrimiz Azərbaycanın hərb tarixinə şanlı səhifə yazdı

***Tahir RZAYEV,***
*Milli Məclisin Aqrar siyasət komitəsinin sədri:*

- Azərbaycanın Silahlı Qüvvələri bu il öz bayramlarını böyük qürur və fərəh hissi ilə qeyd edirlər. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, düşünülmüş hərbi - siyasi gedişləri, xalqımızın birliyi və həmrəyliyi sayəsində düşmən üzərində möhtəşəm, tarixi qələbə qazanan Silahlı Qüvvələrimizin əsgər və zabitləri bu gün başlarını dik tuturlar, işğaldan azad etdikləri torpaqlarımıza baxıb qürurlanırlar.

Onların hər birinin sevinməyə, söz deməyə, öyünməyə haqqı var. Çünki Silahlı Qüvvələrimiz bizə möcüzə kimi görünən, əlçatmaz hesab olunan məsələləri igid əsgər və zabitlərimizin misilsiz qəhrəmanlığı hesabına həqiqətə çevirdi. Gizli qapılar açıldı, erməni mifi dağıdıldı, təcavüzkarlar tərəfindən axıdılan qanların qisası yerdə qalmadı. Azərbaycan Prezidenti, Ali Baş Komandan bu tarixi qələbəyə, ordumuzun, əsgər və zabitlərimizin cəsarətinə, əzminə, vətənpərvərliyinə, xalqımızın birliyinə və qəhrəmanlığına böyük dəyər verdi və qürurla bütün dünyaya bəyan etdi: "Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti bahasına, dövlətimizin siyasəti bahasına qazanmışıq".

Əlbəttə, bu dünyaya məlum olan bir həqiqətdir. Uzun illər Azərbaycan dövləti, ölkə rəhbəri, xalqımız təcavüzkarların əməllərinə, torpaqlarımızın işğal altında qalmasına dözdü, ümidini beynəlxalq təşkilatların qətnamələrinə, qərarlarına, böyük dövlətlərin vədlərinə bağladı. Danışıqlara, sülhə dəyər verdi, təşəbbüslərə, çağırışlara inandı. Bununla yanaşı, müharibənin qaçılmaz olduğunu anladı. Ölkə iqtisadiyyatı inkişaf etdirildi, ordu quruculuğu möhkəmləndirildi, əsgər və zabitlərin peşəkarlığı artırıldı, müasir silahlar alındı və onlardan mükəmməl istifadə olunmasının üsulları öyrənildi. Güclü və qüdrətli bir ordu yaradıldı, silahlı qüvvələrin təchizatına, modernləşdirilməsinə, hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə böyük qayğı və diqqət göstərildi.

44 günlük müharibə və düşmən üzərində heç vaxt unudulmayacaq, hər birimiz üçün əziz olan, qürurumuza, yenilməyən inamımıza çevrilən tarixi qələbə dövlətimizin rəhbərinin siyasətini, qətiyyətini nümayiş etdirməklə, həm də çətin gündə xalqımızın birliyini, əyilməzliyini ortaya qoydu, ordumuzun Azərbaycanın hərb tarixinə şanlı səhifə yazmaq bacarığına malik olduğunu sübuta yetirdi. Qısa bir müddətdə igid oğullarımızın şücaəti nəticəsində düşmən əzildi, demək olar ki, məhv edildi. Azərbaycan Prezidenti, Ali Baş Komandan, şanlı ordumuz , müzəffər xalqımız Silahlı Qüvvələr gününü qalib kimi qeyd etdiyi bu günlərdə qürur hissi keçirməklə bərabər, həm də sülhün, əmin-amanlığın təmin olunması üçün dünyaya çağırışlar edir, millətləri, xalqları həmrəyliyə səsləyir.

Erməni təcavüzkarlarının uzun illər xalqımıza, torpaqlarımıza təcavüz etməsinə, insanların başına min bir müsibətlər gətirməsinə, kütləvi qırğınlar, soyqırımları, təxribatlar törətmələrinə baxmayaraq, dövlətimiz müharibənin tərəfdarı deyildir. Azərbaycan dövlətinin Ermənistanın ağır çıxılmaz vəziyyətindən istifadə edib onun torpaqlarını zəbt etməyə, kütləvi tələfatlar törətməyə imkanı və gücü olduğu halda ölkəmizin rəhbəri müharibəni dayandırmağı lazım bildi və Ermənistana mövcud vəziyyəti, reallıqları qiymətləndirməyə, nəticə çıxarmağa imkan verdi.

Azərbaycan Prezidenti dəfələrlə xatırlatmışdır ki, "Bizim heç kimin torpağında gözümüz yoxdur. Biz tarixi ədaləti bərpa edirik. Azərbaycan əsgəri və zabiti torpaqlarımızın azad olunması uğrunda döyüşür".

Azərbaycanın Silahlı Qüvvələri sülhün və əmin-amanlığın keşiyindədir. İnsanlarımızın, sərhədlərimizin təhlükəsizliyi naminə sayıqdır, mətanətlidir. O, hər hansı bir təcavüzün qarşısını qətiyyətlə almağa və maneələri dəf etməyə qadirdir. Şəhidlərimizin ruhunu sevindirməyə, qisasını almağa nail olan, çətin döyüşlərdə misilsiz hünər göstərən, öz qəhrəmanlıq nümunələri ilə dünyanı heyran qoyan və hərb tariximizə qızıl səhifələr yazan Silahlı Qüvvələrimizlə hər birimiz fəxr edirik.

Bayram münasibətilə mübariz əsgər və zabitlərimizi təbrik edir, xalqımızın təhlükəsizliyi naminə onlara daim qələbə sevincləri arzulayırıq.

## Ordumuz qürurumuzdur

***Könül NURULLAYEVA,***
*Milli Məclisin deputatı:*

- Azərbaycan xalqı özünün müasir dövlətçilik tarixinin qürurverici dövrünü yaşayır. Ötən il Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbə, 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası bu tarixin ən böyük hadisəsi oldu. Elə buna görədir ki, dövlətçiliyimizlə bağlı olan əlamətdar günləri də indi daha qürurla, ürəkdolusu ilə qarşılayırıq.

Bu gün isə Vətən müharibəsində Qələbəni bizə yaşadan Azərbaycan Silahlı Qüvvələrinin, ordumuzun günüdür. 23 ildir ki, iyunun 26-sı - Azərbaycan Silahlı Qüvvələrinin yaradıldığı gün ölkəmizdə ümumxalq bayramı kimi təntənəli şəkildə qeyd edilir. Bu günün bayram kimi tarixiləşməsinin müəllifi müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Ulu Öndərin 1998-ci il mayın 22-də imzaladığı fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. Bu fərman tarixi həqiqətin və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox mühüm sənəddir.

Tarixi varisliyə önəmin nəticəsi kimi Silahlı Qüvvələr Gününü elan edən Ulu Öndər Heydər Əliyev həm də ordumuzun qurucusudur. Vahid komandanlığa əsaslanan Azərbaycan Ordusunun yaradılması həm də Heydər Əliyevin dövlət quruculuğunun ən şərəfli səhifələrindən biridir. Təəssüflə qeyd etməliyik ki, müstəqilliyimizin ilk illərində ordu yaradılması üçün qətiyyətli addımlar atılmadı. Silahlı dəstələrin ayrı-ayrı şəxslərə tabe olması isə sonrakı dövrdə başıpozuqluğun yaranmasına və torpaqlarımızın müdafiəsiz qalmasına gətirib çıxardı. Ulu Öndər Heydər Əliyevin xalqımızın tələbi ilə hakimiyyətə gəlişi zamanı faktiki olaraq ordu yox idi. Ona görə Ulu Öndər bütün işlərə sıfırdan başlamalı oldu. Amma müdrik siyasətçi Heydər Əliyev həm də qüdrətli sərkərdə idi və çətin şəraitdə, qısa müddətdə yaratdığı ordu Ermənistanın artan təcavüzünün qarşısını ala bildi, Füzili rayonunun 22 yaşayış məntəqəsini işğaldan azad etdi.

Ulu Öndər, əbədiyaşar şəxsiyyət Heydər Əliyevin yaratdığı, möhtərəm Prezident İlham Əliyevin gücləndirərək döyüş qabiliyyətinə görə dünyanın ən qüdrətliləri sırasına çıxardığı ordumuz bu gün hər birimizin fəxr yerimizdir. Söz anlamayan, diplomatik həll prosesində özünü adekvat aparmayan, təcavüz siyasətindən əl çəkmək istəməyən işğalçı Ermənistanı məhz rəşadətli ordumuz cəzalandırdı, hərb meydanında ona tarixi boyu unuda bilməyəcəyi dərs verdi. Ötən ilə qədər Silahlı Qüvvələr Günündə ordumuzla bağlı fikir bildirərkən qeyd edirdik ki, Ermənistanla aparılan sülh danışıqları baş tutmayacağı təqdirdə Azərbaycan Ordusu öz sözünü deyəcək. Vətən müharibəsindən əvvəl isə çıxışlarının birində Prezident İlham Əliyev demişdi: "Bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək".

Beləliklə, Ermənistan sözdən anlamadığı üçün 44 günlük Vətən müharibəsində söz Azərbaycan Ordusuna verildi. Sentyabrın 27-dən noyabrın 10-dək davam edən müharibənin hər günü ordumuzun irəliləməsi, torpaqlarımızın işğaldan azad edilməsi, düşmən üzərində qazanılan qələbə ilə yadda qaldı. Ordumuzun hər bir uğurlu əməliyyatı onun gücünün təntənəsi, zabitlərimizin, gizirlərimizin, əsgərlərimizin vətənpərvərlik salnaməsi oldu. Vətən müharibəsi dövründə Azərbaycan hərbçisinin rəşadətinin, qarşısına qoyulan bütün döyüş tapşırıqlarını şərəflə, dəqiqliklə yerinə yetirdiyinin şahidi olduq. Azərbaycan Ordusu cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə 44 gündə bütün dünyaya müasir döyüş əməliyyatlarını, yeni əsrin müharibəsini aparmağın nümunəsini göstərdi.

Bu böyük Qələbə həm də bütün resursları vahid amal uğrunda səfərbər etməyi bacarmağın nəticəsi idi.

Qədim yurdumuz Şuşanın işğaldan azad edilməsi isə ordumuzun yazdığı şanlı qəhrəmanlıq dastanına çevrildi.

Bu gün Ulu Öndərin ruhu şaddır. Çünki onun qurduğu ordu öz tarixi missiyasını layiqincə və şərəflə yerinə yetirdi. Şəhidlərimizin ruhu rahatdır, çünki uğrunda mübarizə apardıqları torpaqlarımız azad olunub. Dəmir yumruq isə yerindədir. İlham Əliyevin dediyi kimi: "Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq".

## Xalqımıza Zəfər yaşadan ordumuzla fəxr edirik

***Aqil MƏMMƏDOV,***
*Milli Məclisin deputatı:*

- Dövlətin təməl prinsiplərindən biri ordudur. Müasir Azərbaycan dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Bu mənada Ulu Öndərin rəhbərliyi ilə dövlətçilik ənənələrimizə söykənərək 1993-cü ildən ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün gücü ilə qürurlandığımız Azərbaycan Silahlı Qüvvələridir.

Heydər Əliyevin ordu quruculuğu sahəsində əsasını qoyduğu strategiya 2003-cü ildən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildi. İnkişaf edən iqtisadiyyata mütənasib güclü ordu formulu bu dövrdə Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayələrindən biri kimi diqqəti cəlb edib. Azərbaycanın ildənilə artan maliyyə imkanları iqtisadi inkişaf tempi Silahlı Qüvvələrimizin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb.

Vətən müharibəsində qalibiyyət Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə başladılan, ötən 17 ildə isə Prezident İlham Əliyev tərəfindən ən müasir çağırışlar səviyyəsində həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi tarixə yazıldı. Zaman göstərdi ki, Ulu Öndər Heydər Əliyevin başlatdığı ordu quruculuğu sağlam təməllərə əsaslanıb. İkinci Qarabağ müharibəsi isə təsdiq etdi ki, cənab İlham Əliyev 2003-cü ildən sonra müdrikcəsinə və uzaqgörənliklə ordumuzun döyüş imkanlarını ən yüksək səviyyəyə çatdırıb.

Bu gün Vətən müharibəsində Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə düşmənin başını əzən Silahlı Qüvvələrimizin Günüdür. Xalqımıza Zəfər yaşadan Silahlı Qüvvələrimizlə qürur duyuruq və ordumuzun şəxsi heyətinə öz vəzifələrinin yerinə yetirilməsində uğurlar arzu edirik.

***"Azərbaycan"***



# General dəyanəti

**...1978-ci il iyunun 29-u idi. Bakı isti yay günlərindən birini yaşayır, həyat öz qaydasında davam edirdi. Azərbaycan paytaxtı bir neçə həftədən sonra Bakıya səfər edəcək Sov.İKP MK-nın baş katibi L.İ.Brejnevi qarşılamağa hazırlaşırdı.**

**Həmin iyun səhəri gündəlik iş-gücü ilə məşğul olan sovet adamlarının ağlına belə gəlməzdi ki, cəmi bir neçə saatdan sonra nəinki Azərbaycanda, ümumən bütün ittifaq məkanında böyük əks-səda yaradan dəhşətli hadisə baş verəcək.**



## Gözlənilməz bir qətlin tarixçəsi

Bir azdan ölkənin hər yerinə yayılan cinayət xəbəri, həqiqətən, sarsıdıcı idi. Azərbaycanın daxili işlər naziri, general-leytenant Arif Heydərov günün ikinci yarısında kabinetində keçirdiyi işgüzar müşavirə zamanı güllələnərək öldürülmüşdü. Onunla birgə nazir müavini, general S.Kazımov və köməkçisi podpolkovnik Ə.Səfixanov da qətlə yetirilmişdi.

Atəş açan Şuşa həbsxanasının zabiti Ziya Muradov idi. O, üç adamı öldürəndən sonra özünü də güllələmişdi, intihar etmişdi. Uzun illər bu qətl hadisəsinin müzakirəsi aparıldı, milis kapitanını belə qanlı əmələ sövq edən səbəblər araşdırıldı. Və nəhayət, psixoloji durumu qüsurlu olan bir şəxsin cinayət əməli üzərindəki sirr pərdəsi tamamilə götürüldü.

Məlum oldu ki, qatil Rusiyada texnikumu bitirdikdən sonra bir müddət milis orqanlarında işləyib. Sahə müfəttişi olub. İşini Azərbaycana dəyişmək üçün Daxili İşlər Nazirliyinə aramsız müraciətlər edib. Məktublarını nəzərə alan rəhbərlik onun münasib işlə təmin olunmasına kömək göstərib. O, Şuşa həbsxanasında nəzarətçi vəzifəsinə qəbul edilib. Amma bir neçə aydan sonra Muradovun məktublarının arası yenə də kəsilməyib. Bu dəfə də o, valideynlərinin yaşadığı indiki Goranboy rayonunda sosialist əmlakının talanmasına və alverə qarşı mübarizə şöbəsinə, o dövrün ifadəsi ilə desək, "OBXSS"-ə müfəttiş təyin olunmasını tələb edib. Lakin həm xidməti göstəricilərinə, həm də rayon milisində ştat olmadığına görə bu tələbi təmin etmək mümkün olmayıb. Bir neçə dəfə DİN-ə dəvət edilərək onunla söhbətlər aparılıb. İmkan yaranan kimi müraciətinin nəzərə alınacağı bildirilib. Müəyyən psixi-mənəvi problemlərinin olduğu sonradan üzə çıxan Muradovu bu dəlillərin heç biri qane etməyib. O, tələbinin yerinə yetirilmədiyini görəndə növbəti dəfə Bakıya gəlib, tabel silahı ilə DİN-nin binasına daxil olub və məlum qətl hadisəsini törədib.

## Dost itkisi

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyində təmsil olunan üç yüksək rübtəli zabitin qətlə yetirilməsi ölkə ictimaiyyəti üçün böyük itki idi. General-leytenant Arif Heydərov təcrübəli dövlət xadimi olmaqla yanaşı, həm də cəmiyyətdə yüksək nüfuza malik görkəmli ziyalılardan sayılırdı. Çətinliklərlə dolu böyük bir yol keçmişdi. Öz zəhməti ilə yüksək dövlət vəzifələrində irəliləmiş, peşəkarlığı, alicənablığı, mənəvi dəyərlərə bağlılığı ilə onu tanıyan bütün insanların dərin rəğbətini qazanmışdı. Qətlindən cəmi bir gün əvvəl ailəsi ilə birgə 52 yaşını qeyd etmişdilər. Səhər isə belə bir faciə...

Generalın ölümü həmin dövrdə Azərbaycana rəhbərlik edən Ümummilli Lider Heydər Əliyevi çox sarsıtmışdı. General hələ yaralı vəziyyətdə xəstəxanada olarkən Heydər Əliyevin xahişi ilə Bakıya dünya şöhrətli neyrocərrah, professor A.N.Konovalov gəlmişdi. Amma A.Heydərovu xilas etmək mümkün deyildi. Başından aldığı ağır güllə yarası heç bir ümid yeri qoymamışdı.

Arif Heydərovu Ulu Öndərlə uzun illərin sədaqətli dostluq münasibətləri bağlayırdı. Heydər Əliyev bu dostluğu yüksək qiymətləndirərək deyirdi: "Arif Heydərov mənim üçün sevimli bir insan idi... Arif Heydərov mənim iş yoldaşım, dostum olubdur, tutduğum yüksək vəzifələrdə mənim silahdaşım olubdur. Mən ona çox inanırdım, etibar edirdim, onun fəaliyyətini çox yüksək qiymətləndirirdim. Ona görə də mən Azərbaycanda rəhbər olarkən o, mənim əsas dayaqlarımdan biri idi. Deyə bilərəm ki, əvvəl dövlət təhlükəsizliyi orqanlarında olduğu kimi, Azərbaycanın Daxili İşlər Nazirliyinə rəhbərlik etdiyi dövrdə - 8 il müddətində də çox fədakarcasına çalışdı, çox işlər gördü...".

Ulu Öndər gənclik dostuna güvənirdi. Hər zaman ona böyük etimad göstərirdi. General Arif Heydərov da ona həvalə edilmiş işə münasibəti, respublikada qanunçuluğun, ictimai asayişin təmin edilməsi naminə göstərdiyi fədakarlıqla bu inamı doğruldurdu.

Ölkəyə rəhbərlik fəaliyyətinin ilk günlərindən Azərbaycanda qanunun aliliyinin, nizam-intizamın, haqq-ədalətin təmin olunmasını özünə əsas missiya kimi müəyyənləşdirmiş Heydər Əliyevin belə sadiq kadrlara çox ehtiyacı vardı. Təsadüfi deyil ki, Ümummilli Lider Azərbaycana rəhbər seçiləndən dərhal sonra Arif Heydərovu ölkənin daxili işlər naziri vəzifəsinə dəvət etmişdi. O, bu vəzifəyə 1970-ci ildə Türkiyədən - diplomatik xidmətdən gəlmişdi. 8 il ərzində - ömrünün sonuncü gününə qədər üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirməyə çalışmışdı.

"General Arif Heydərov" adlı xatirələr toplusunda oğlu Murad Heydərov maraqlı bir məqamı bölüşüb: "Atamızın dostluq etdiyi adamlardan biri də o vaxtlar Türkiyədə SSRİ-nin fövqəladə və səlahiyyətli səfiri olmuş A.A.Smirnov idi. Sonradan Andrey Andreyeviç SSRİ Xarici İşlər nazirinin kadrlar üzrə müavini olarkən onu Cənub-Şərqi Asiya ölkələrindən birinə, səhv etmiriksə, Banqladeşə səfir təyin etmək istəmişdi. Əgər o, bu təklifə razılıq versəydi, SSRİ-nin tarixində ilk azərbaycanlı səfir olacaqdı. Bu həmin vaxt idi ki, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev də onu daxili işlər naziri vəzifəsinə təyin etmək istəyirdi. O isə iki təklif arasında qalmışdı... Lakin A.Heydərov lap onu Fransaya səfir təyin etsələr də, həmin dəvəti qəbul etməyəcək, Heydər Əliyevin təklifinə razılıq verəcəkdi. Çünki Heydər Əliyev həm respublikanın rəhbəri, həm də onun yaxın dostu idi".

## Alovlardan keçmiş ömür

1926-cı ilin 28 iyununda Ağdaş şəhərində dünyaya gəlmiş Arif Nəzər oğlu Heydərovun valideynləri əslən Qubadlı rayonunun Gürcülü kəndindən idilər. Atası Nəzər Heydərov 1913-1918-ci illərdə Balaxanıdakı neft mədənlərində işləmişdi. Sonra Qubadlı rayonunun inqilab komitəsinin, qəza partiya komitəsinin katibi və İcraiyyə Komitəsinin sədri, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin məsul təlimatçısı, Ağdaş və Şuşa rayon İcraiyyə Komitəsinin sədri olmuşdu. 1931-ci ildə Moskva Sənaye Akademiyasını, eyni zamanda Neft İnstitutunu bitirdikdən sonra 1949-cu ilədək Azərbaycanın neft sənayesində müxtəlif rəhbər vəzifələrdə çalışmış, 1949-1954-cü illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin müavini olmuşdu. "Zəngəzur dağlarında" adlı kitabın müəllifi idi.

Belə ziyalı bir insanın ailəsində doğulub böyüməsi, təbii ki, Arif Heydərovun dünyagörüşünə təsir etməyə bilməzdi. O, orta təhsilini başa vurandan sonra bir müddət Əzizbəyov neft trestində çilingər işləyir. 17 yaşında Moskvaya, Daxili İşlər Komissarlığının kəşfiyyatçılıq məktəbində oxumağa yollanır. 1944-cü ildə isə könüllü cəbhəyə gedir.

Moskvadan müharibəyə gedərkən ata-anası cəbhədəki övladlarından nigaran qalmasınlar deyə gənc Arif yaxın adamlarının yanında öz xətti və imzası ilə xeyli məktub qoyur ki, hər dəfə onlardan birini vaxtaşırı Bakıya göndərsinlər. Beləliklə, ailəsi onun cəbhədə olduğunu bilməsin. İki aydan sonra Moskvaya yolu düşən atası oğlunun 1-ci Ukrayna ordusunda vuruşduğunu öyrənir.

Bacarıqlı kəşfiyyatçı Moskva məktəbini keçdiyindən öz bilik və səriştəsi ilə çox fərqlənirdi. Müharibəyə Polşa ərazisində - Birinci Ukrayna Cəbhəsinin tərkibindəki əməliyyat qrupunun üzvü kimi qoşulmuşdu. Qələbəyədək burada döyüşüb. Reyxstaqda imzasını qoyub və 1945-ci il mayın 9-dan 1946-cı il sentyabrın 15-dək Almaniyadakı sovet hərbi kontingentinin Leypsiq dairə şöbəsində operativ əməliyyat qrupunun əməkdaşı olub.

O, marşal G.K.Jukovla görüşündən maraqlı əhvalatlar danışırdı... Marşal Berlinə hücum zamanı qoşun hissələrini gəzər, hətta ön cəbhəyə getməkdən də çəkinməzdi. Bu hissələrdən birində operativ vəziyyət haqqında kiçik leytenant Arif Heydərov ona məruzə etmişdi. O zaman gənc hərbçinin 18 yaşı var idi...

1947-ci ilə qədər Arif Heydərov Şərqi Almaniya Dövlət Təhlükəsizliyi Nazirliyi aparatının Saksoniya əyalətindəki əməliyyat bölməsində çalışır. Həmin il vətənə qayıdır. O vaxtdan başlayaraq 20 il Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində müxtəlif rəhbər vəzifələrdə işləyir.

## Diplomat

Onun Ulu Öndərlə dostluq münasibətləri də elə həmin dövrdən başlamışdı. Onlar iş yoldaşı olmaqla yanaşı, həm də tələbə yoldaşı idilər. Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində birgə oxuduqları illər onları daha da yaxınlaşdırmışdı. Aralarında möhkəm dostluq münasibətlərinin təməli qoyulmuşdu.

1968-ci ildə Nəzər müəllim rəhmətə gedəndə Arif Heydərov artıq Ankarada çalışırdı. Rəhbərlik ona Moskvadan keçməklə Bakıya gəlməyə cəmi bir həftəlik icazə vermişdi. Amma müsəlman adətlərinə görə, rəhmətə gedəni doğmaları dəfn günündən sonra cümə axşamları, üçü, yeddisi, qırxıncı günündə də yad edirlər. Onda yaxın dostunun bu övladlıq yükünü Heydər Əliyev öz üzərinə götürmüşdü...

Arif Heydərov 1949-1970-ci illərdə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin kəşfiyyat şöbəsində işləmişdi. Bu dövrdə operativ tapşırıqlarla əlaqədar dəfələrlə xarici ölkələrə getmiş, uzun müddət Almaniyada, Türkiyədə daimi işdə çalışmışdı. 1967-1970-ci illərdə Türkiyədə konsul olmuşdu. Alman, ingilis, türk, fars dillərini mükəmməl bilirdi. Onun qüsursuz əməyi SSRİ-nin yüksək dövlət təltiflərindən sayılan "Qırmızı Bayraq", "Şərəf nişanı" ordenləri və bir çox medallarla qiymətləndirilmişdi.

Arif Heydərov xarici ölkələrdə sovet diplomatiyasını təmsil edərək, SSRİ-nin xarici siyasəti üçün çalışsa da, Azərbaycanın onun üçün hər zaman xüsusi yeri vardı. Bunu, onun Türkiyədəki konsulluq illərinə aid maraqlı xatirələr də təsdiqləyir. Həyat yoldaşı Ədilə xanım Heydərova onun Ankarada konsul olarkən SSRİ-nin Türkiyədəki səfirliyi qarşısında Azərbaycan bayrağını necə asdığını yada salır: "O əsl vətənpərvər idi. Bu əhvalat Türkiyə səfirliyində 3 il konsulluq şöbəsinin rəisi işləyən zamanlarda olub. 28 apreldi, SSRİ-nin Türkiyədəki səfirliyi üzərində SSRİ bayrağı ilə yanaşı, o vaxtadək heç kimin görmədiyi bir bayraq da dalğalanır. Xarici İşlər Nazirliyindən, müxtəlif qurumlardan zənglər gəlir, o nə bayraqdır elə? Arif Heydərov cavab verir: - Bu gün mənim Azərbaycanımın respublika elan edildiyi gündür, o şərəfə qaldırılıb bu bayraq. Məsələ düz SSRİ xarici işlər naziri Smirnova qədər böyüyür... Türkiyədə bu olay yaddaşlarda qalmışdı. Növbəti il xeyli insan zəng edib səfirlikdə işləyən azərbaycanlıları təbrik edirdilər, bizi qonaq çağırırdılar".

## O, problemləri asanlıqla yoluna qoymağı bacarırdı

İkinci Dünya müharibəsindən əvvəl pisləşən SSRİ-Türkiyə münasibətlərinin 1960-cı illərin ortalarından etibarən yavaş-yavaş düzəlməyə başlamasında Arif Heydərovun o illərdəki diplomatik bacarıqlarının böyük rolu vardı. Türkiyədə də Azərbaycandan olan konsulu özlərinə doğma bilirdilər. O, bu ölkənin siyasi elitasında yüksək nüfuz qazana bilmişdi. Diplomatik qalmaqallara səbəb ola biləcək bir çox məsələləri öz şəxsi əlaqələri, nüfuzu sayəsində səssiz-küysüz, əlavə problemlər yaranmadan yoluna qoymağı bacarırdı. Belə məsələlərdən biri həmin dövrdə Türkiyənin Əlağa qəsəbəsində tərcüməçi işləyən, indi isə Rusiya Liberal Demokrat Partiyasının sədri kimi məşhur olan Vladimir Jirinovski ilə bağlı baş vermişdi. Belə ki, V.Jirinovski türk gəncləri arasında kommunist təbliğatı apardığına, çalışdığı müəssisənin işçilərinə üzərində V.İ.Leninin şəkli olan döş nişanları verdiyinə görə həbs edilir. Sovet tərcüməçisinin həbsi Türkiyə-SSRİ münasibətlərində problem yarada bilərdi. Həmin kritik məqamda Arif Heydərov işə qarışır, dövlət rəsmiləri ilə danışır, qısa zamanda V.Jirinovskini həbsdən azad etdirərək Moskvaya yola salır.

A.Heydərov tale tərəfindən ona ayrılmış 52 illik ömrünün yarısını məhz kəşfiyyat işinə həsr etmişdi. O, daim çarpışmalarda olmuş, təhlükələrlə üzüzə gəlmiş, yuxusuz gecələr, həyəcanlı anlar, narahat günlər yaşamışdır. Ümumiyyətlə, bu fədakar insan ömrü boyu ləyaqətlə və qorxu-hürkü bilməyən döyüşçü kimi fərqlənmiş, həyatı, sözün həqiqi mənasında, mübarizələrdə olmuşdur.

Şərəfli kəşfiyyatçı, diplomat adını doğrultmaq, aldığı tapşırıqları yerinə yetirmək üçün bir-birindən məsul və mürəkkəb əməliyyatlar keçirmişdir. Aldığı bütün tapşırıqları yüksək səviyyədə yerinə yetirmişdir. Vaxtilə onunla çiyin-çiyinə çalışmış peşəkar kəşfiyyatçılar yazırlar ki, Arif Nəzər oğlu analitik zəkaya, hərtərəfli, dərin biliyə malik bir insan idi, hər cür mürəkkəb, dəyişkən siyasi və operativ şəraitdə düzgün istiqamət götürməyi, ən ağlabatan qərar qəbul etməyi bacarırdı və bunun sayəsində hər hansı kəşfiyyat işinin uğurla başa çatdırılmasına müvəffəq olurdu. Heydərovun xarakterində peşəkar kəşfiyyatçı üçün zəruri olan bütün keyfiyyətlər var idi.

İxtisasca tarixçi idi. Tarixi, o cümlədən öz xalqının tarixini gözəl bilirdi. Sovet dönəmində ermənilərin azərbaycanlılarla "dost" olduğu hər addımbaşı təlqin edilsə də, Arif Heydərov xalqının dostlarını da, düşmənlərini də yaxşı tanıyırdı.

Polis polkovniki F.Hüseynovun xatirələrində A.Heydərovun düşmənlərimizə nifrəti barədə maraqlı məqamlar açıqlanır.

...Ötən əsrin 70-ci illərində Ermənistanın İcevan rayonunda müşavirə keçirilirdi. Tədbirin ziyafət hissəsini İcevan rayon partiya komitəsinin sinəsində deputat nişanı gəzdirən birinci katibi idarə edirdi. Bu həmin vaxt idi ki, ermənilər Yerevan şəhərinin 1750 illik yubileyini təntənəli surətdə qeyd etməyə hazırlaşırdılar. Qısası, cavan katib sağlıq deyir və sözünün canı bu olur ki, Cənubi Qafqazda ən qədim şəhər Yerevandır, ən bacarıqlı və vətənpərvər insanlar isə ermənilərdir. Natiq dostluq şərəfinə badə qaldırmağı təklif edir. Bu zaman general Heydərov badəsini yerə qoyur və deyir ki, mən sizin dediyiniz sağlığı qəbul etmirəm. Çünki siz tarixi yaxşı bilmirsiniz. İş orasındadır ki, bu yaxınlarda biz Bakının 10 min illiyini qeyd edəcəyik.

Erməni katib tarixçi olduğunu söyləyir, Heydərov isə rişxəndlə gülərək deyir: "Biz də sizin kimi bir daşın üzərinə tarix yazıb Xəzər dənizinə tullamışıq, bu yaxınlarda çıxarıb yeni bir tarix icad edəcəyik".

Ziyafətdə iştirak edən Ermənistan, eləcə də Gürcüstan nümayəndələri azərbaycanlı nazirə təsir edə bilmirlər və erməni katib ondan dönə-dönə üzr istəyir.

Bir sözlə, Arif Heydərov öz vətənpərvərliyi ilə hamıya nümunə idi.

## Alicənab insan

A.Heydərov genişdüşüncəli, xoşxasiyyətli, ziyalı, alicənab insan idi. Düzlüyü, ədaləti özünün həyat məramı sayırdı. Adamlarla davranışında həssas və sadə idi. Buna görə də ətrafdakılar, ümumən ictimaiyyət onun xatirini dünyalar qədər istəyirdi. Bəzən çaşıb elə fikirləşmək olardı ki, belə yumşaq ürəkli, insanlara mehribanlıqla yanaşan birisi bu çətin sahələrdə necə işləyə və rəhbər ola bilər. Müasirləri söyləyirlər ki, o, çox dözümlü, səbirli, təmkinli və qətiyyətli idi. Ən başlıcası isə, qanuna gəldikdə, heç vəchlə ondan yan keçməzdi. Prinsipiallıq nümayiş etdirər, yeri gələndə sərt də olardı.

Həmin illərdə respublikada cinayətkarlığın qarşısının alınması sahəsində böyük işlər görülmüşdü. Cinayətkarlığa qarşı mübarizədə Azərbaycan Respublikası ovaxtkı ittifaqda, müttəfiq respublikalar arasında ən yüksək göstəricilərə malik idi. Buna görə SSRİ Nazirlər Soveti nazir A.Heydərova general-leytenant hərbi rütbəsini vermişdir. Həmin vaxt müttəfiq respublikaların nazirləri içərisində Arif Heydərovun şəxsi nüfuzunun nəticəsi olaraq onu Sov. İKP qurultayına nümayəndə seçmişdilər. Bu, Azərbaycanın tarixində görünməmiş hadisə idi. Bundan başqa o, Azərbaycan KP MK-nın üzvü, respublika Ali Sovetinin deputatı, Azərbaycan KP qurultaylarının nümayəndəsi olmuşdur. Və A.Heydərov bütün bu şan-şöhrətdən əsla qürurlanmırdı.

## Sədaqət rəmzi

Qatil gülləsinə qurban getmiş Arif Heydərovu son mənzilə o vaxt Dzerjinski klubu adlanan indiki Şəhriyar sarayından yola saldılar. Adamlar xatırlayırdı ki, dəfn mərasimində belə insan axınını sonuncu dəfə dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin dəfnində görüblər. İnsanlar ona son borclarını verməyə gəlirdilər. Fəxri xiyabandakı vida mitinqində Heydər Əliyev çıxış etdi. Dostunun, silahdaşının faciəli ölümünün ağrı-acısı, iztirabları Ümummilli Liderin mərasimdəki nitqindən də duyulurdu. "Bizim kədərimizin həddi yoxdur...", deyirdi Ulu Öndər. O, Arif Heydərovun simasında əziz dostunu, məslək yoldaşını itirmişdi.

Bu il görkəmli dövlət xadimi, general-leytenant Arif Heydərovun anadan olmasından 95 il ötür. Dünyasını dəyişməsindən, daha doğrusu, faciəli ölümündən isə 43 il keçir. Az müddət deyil... Bununla belə, onu tanıyanlar, xatirəsini yad edənlər, silahdaşları, xeyirxahları arasında Arif Heydərov haqqında ancaq xoş söhbətlər dolaşmaqdadır. Onun müsbət xüsusiyyətlərini, peşə məharətini, yüksək vəzifələrdə özünü doğrultmaq səriştəsini, xalqın məhəbbətini qazana bilmək qabiliyyətini dildən-dilə, nəsildən-nəslə ötürən xatirələr hər bir kəsin qəlbində hələ də yaşamaqdadır. Bu da səbəbsiz deyil. Çünki general Arif Nəzər oğlu həyat yollarında atdığı hər addımda ancaq xalqına sədaqətli xidmət nümunəsi göstərmişdir.

Arif Heydərovun ölümündən sonra da Ulu Öndər Heydər Əliyev bu dostluğa sadiq qaldı. Onun ailəsinə, övladlarına qayğısını, nəzər-diqqətini əsirgəmədi.

*Bakıdakı mərkəzi küçələrdən biri, Daxili İşlər Nazirliyinin məktəbi, Nazirliyin hospitalı bu gün Arif Heydərovun adını daşıyır. Xəzər dənizində mərhum generalın adına tanker üzür. Yeri gəlmişkən, Arif Heydərov küçəsi Heydər Əliyev prospekti ilə paralel gedir. Onlar cismani yoxluqları dövründə də yanaşıdırlar. Dostluğun, silahdaşlığın, Azərbaycana, Vətənin dəyərlərinə, əqidəyə sadiqliyin rəmzi kimi...*

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Milli Məclisin deputatı İmamverdi İsmayılovun "Şuşanın günəşi" sərlövhəli məqaləsi Türkiyə mətbuatında dərc olunub



**Milli Məclisin deputatı, yazıçı-publisist İmamverdi İsmayılovun "Şuşanın günəşi" sərlövhəli bədii-publisistik məqaləsi Türkiyənin bir sıra kütləvi informasiya vasitələrində dərc edilib.**




AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qazandığı Qələbə, 44 günlük şanlı Vətən müharibəsində təxminən otuz illik zaman kəsiyində işğalda saxlanılan torpaqlarımızın, o cümlədən hər birimiz üçün müqəddəs məkan sayılan Şuşanın azadlığa qovuşmasının müəllifdə yaratdığı hiss və həyəcan tərənnüm edilir. Müəllif uzun illərin ayrılığından sonra Şuşaya etdiyi səfərin təfərrüatlarını qələmə almaqla mədəniyyətimizin beşiyi sayılan Şuşanın gözəlliyini və tarixi qalamızın Azərbaycan üçün hansı məna daşıdığını oxuculara çatdırır.

Məqalə ilə Türkiyənin http://azerhaber.com, https://www.gazetekars.com, igdir15temmuzgazetesi.com, yesiligdir.com saytlarında tanış olmaq olar.

# Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov beynəlxalq tədbirdə çıxış edib

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş direktoru Daren Tanqın bir sıra dövlətlərin əqli mülkiyyət (ƏM) qurumlarının rəhbərləri ilə videogörüşü keçirilib.




Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyindən məlumat verilib. Bildirilib ki, tədbirdə çıxış edən D.Tanq milli əqli mülkiyyət idarəsinin sabiq rəhbəri kimi müraciət edərək görüş iştirakçılarının qarşılaşdığı problemlərdən məlumatlı olduğunu bildirib. Sonra o, 2022-2026-cı illər üçün hazırlanmış Orta Müddətli Strateji Plan və Üzv dövlətlərin təklifləri və məsləhətləşmələri nəticəsində hazırlanan 2022-2023-cü illər üçün Proqram və Büdcə haqqında ətraflı məruzə edib.

Baş direktor bütün dünyada istifadəçilərin maraqları naminə ƏM sahəsində, xüsusilə də ƏM hüquqlarının idarəedilməsi və texnologiyaların ötürülməsi sahələrində yüksəkkeyfiyyətli xidmətlərin inkişaf etdirilməsinin vacibliyini qeyd edib. Bu xidmətlər fərdi və institusional imkanların yaradılması, o cümlədən milli, regional və beynəlxalq səviyyələrdə elmi-tədqiqat müəssisələri arasında şəbəkə əlaqələrinin qurulması vasitəsilə daha da təkmilləşəcəkdir.

Tədbirdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov da nitq söyləyib.

ÜƏMT-nin Baş direktoru tərəfindən təqdim olunan möhtəşəm inkişaf proqramının ilham verdiyini qeyd edən K.İmanov Azərbaycanın ÜƏMT ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini və ÜƏMT ilə Azərbaycan arasındakı Anlaşma Memorandumunun, o cümlədən 2018-2021-ci illər üçün Fəaliyyət Planının Azərbaycanda əqli mülkiyyət sisteminin inkişafına danılmaz töhfə verdiyini bildirib. O, dövlət başçısının rəhbərliyi ilə əldə olunmuş iqtisadi nailiyyətlər, o cümlədən ƏM sahəsində vahid dövlət qurumunun yaradıldığını nəzərə çatdırıb və ÜƏMT-nin məqsəd və mandatının həyata keçirilməsində D.Tanqın göstərdiyi səylərə Azərbaycanın dəstəyini ifadə edərək qarşıdakı illər üçün yeni Fəaliyyət Planı hazırlanmasında maraqlı olduğunu vurğulayıb.

Agentliyin rəhbəri müasir texnologiyaların mövcud ƏM landşaftına təsir etdiyini və getdikcə daha çox təsir edəcəyini deyərək, 2020-ci il 21 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti və Dünya İqtisadi Forumunun prezidenti arasında imzalanmış niyyət protokolu və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli Fərmanı əsasında "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi"nin yaradıldığını və aprelin 1-dən fəaliyyətə başladığını diqqətə çatdırıb. K.İmanov bildirib ki, "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi Mərkəzin fəaliyyətində iştirak edir - İdarə Heyətinin sədr müavini Mərkəzin Müşahidə Şurasının üzvüdür və bizim vəzifəmiz IV sənaye inqilabının nailiyyətlərinin həyata keçirilməsi strategiyasında iştirak etmək, daxili texnologiyaların inkişafına təkan vermək və ixtiraçılıq fəallığını artırmaq, o cümlədən texnologiyaların kommersiyalaşdırılması və transferi mexanizmlərini formalaşdırmaqdır. Xüsusi qeyd edək ki, Agentliyin tabeliyində Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi yaradılıb".

O, kreativ sektorun əhəmiyyətini vurğulayaraq, son iki ildə kiçik və orta sahibkarlıq üçün bir sıra "dəyirmi masa"lar və forumlar keçirildiyini, broşürlər buraxıldığını, işğaldan azad edilmiş ərazilərimizdə "ağıllı şəhər", "ağıllı kənd" (smart-city, smart-village) konsepsiyaları tətbiq edildiyini, 10 il ərzində kreativ sektorun iqtisadiyyata verdiyi töhfənin 3 faiz artdığını və ÜƏMT metodologiyasına görə, ÜDM-in 5,1 faizini təşkil etdiyini bildirib.

Agentliyin rəhbəri ƏM-in müasir inkişafındakı tendensiyalardan qaynaqlanan problemlərə toxunaraq Azərbaycanın ÜƏMT-nin süni intellekt sahəsində işini dəstəklədiyini bildirib və mütəxəssislərin "ƏM hüquqlarının klassik kateqoriyalarından kənara çıxan məlumatlar siniflərinə münasibətdə mülkiyyət hüquqlarının yenidən müəyyən edilməsinin qaçılmaz göründüyü" fikri ilə razılaşdığını ifadə edib.

K.İmanov iqtisadiyyatla ƏM hüquqlarının qorunması arasında korrelyasiya məsələsinə toxunaraq, Agentlik tərəfindən bu sahədə aparılmış araşdırmanı diqqətə çatdırıb, eyni zamanda müəllif hüququ ilə sənaye mülkiyyəti arasında kəsişən məqamları qeyd edərək bu məsələnin ÜƏMT çərçivəsində müzakirə edilməsini təklif edib.

ÜƏMT-nin baş direktoru D.Tanq Azərbaycan nümayəndəsinin çıxışını yüksək dəyərləndirib və K.İmanovdan ölkəmizin sahə üzrə qabaqcıl təcrübəsi və aparılmış araşdırmaların nəticələri ilə bölüşməyi xahiş edib.

Videogörüşdə Avrasiya regionunun 28 ölkəsinin əqli mülkiyyət üzrə orqanlarının səlahiyyətli nümayəndələri iştirak ediblər. Tədbirdə Türkiyə, Rusiya, Hindistan, Səudiyyə Ərəbistanı, Bolqarıstan, Qırğız Respublikası, Finlandiya və İordaniyanın əqli mülkiyyət qurumlarının rəhbərləri də çıxış ediblər.

Çıxışlarda ÜƏMT-nin əqli mülkiyyət ekosistemlərinin inkişafı, ƏM-in iqtisadi aspektləri və kommersiyalaşdırılması sahəsində gənclər, xüsusilə də kiçik və orta bizneslə bağlı fəaliyyəti dəstəklənib.

Qeyd edək ki, bu tədbir müxtəlif saat qurşaqları üzrə təşkil edilən belə xarakterli ikinci görüşdür. İlk görüş Uzaq Şərq və Sakit Okean ölkələri üçün keçirilib. Növbəti tədbir Latın Amerikası dövlətlərinin nümayəndələri üçün təşkil ediləcək.



# Qaliblərin bayramı

*Əvvəli 1-ci səh.*

Elə kiçiklikdən qəhrəmana çevrilmək, bu Vətənə xidmət etmək, ordunun yenilməz əsgəri olmağı arzulayır, düşmənə qalib gəlməyi şərəf bilirlər.

Azərbaycan 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə məhz bu ruhda yetişmiş gənclərin, onlardan formalaşmış vətənpərvər ordunun sayəsində qalibiyyəti əldə etdi, işğaldan azad edilmiş torpaqlarımızda zəfər bayrağını göylərə qaldırdı.

## Yalnız güclü ordusu olan xalq öz haqqına sahib çıxa bilər

Azərbaycan Ordusu 103 illik tarixində bu il ilk dəfədir ki, 26 iyun-Silahlı Qüvvələr Gününü zəfər qazanmış ordu kimi böyük ruh yüksəkliyi ilə qeyd edir.

Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov bildirir ki, bu il Silahlı Qüvvələr Gününün keçirilməsi daha qürurvericidir. Çünki Azərbaycan Ordusu öz zəfəri ilə builki bayramı qaliblərin bayramına çevirdi.

Onun sözlərinə görə, diplomatik döyüşdə Azərbaycanın haqq işinə mane olan qüvvələrin müqavimətini qırmağa nail olan Ali Baş Komandanın Vətənə məhəbbət ruhunda yetişdirdiyi əsgər və zabitlər cəbhədə əsl qəhrəmanlıq göstərdilər, düşməni torpaqlarımızdan qovdular. Azərbaycan Ordusunun torpaqlarımızı azad etməsi Vətən müharibəsinin qələbə ilə nəticələnməsinə səbəb oldu: "Düşmən tarixi Azərbaycan torpaqlarından çıxmaqdan imtina edəndə Ali Baş Komandan siyasi qərarını verdi. Problemin həllinə beynəlxalq hüququn gücü çatmayanda Azərbaycan güc hüququndan istifadə edərək tarixi torpaqlarımızı azad etmək üçün Vətən müharibəsinə başladı, xalq bir yumruq kimi birləşdi, qələbə qazandı".

Qalibiyyət üçün güclü ordunun olmasını vacib sayan tarixçi alimin sözlərinə görə, yalnız güclü ordusu olan xalq öz torpaqlarına sahib ola bilər: "Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra xarici müdaxilə və daxili siyasi böhranla üz-üzə dayandı. Hakimiyyət mövcud vəziyyətdən baş çıxara bilmədi, torpaqlarımızın xeyli hissəsi düşmən qüvvələri tərəfindən işğal olundu. Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gələndən sonra ordu quruculuğu işinə başladı. Ümummilli Lider müasir Azərbaycan Ordusunun qurulması üçün qısa zaman kəsiyində ali hərbi məktəblərin yaradılmasına nail oldu, hərbi əməkdaşlıq sahəsində bir sıra dövlətlərlə əməkdaşlığa başlandı. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu işi "17 illik hakimiyyətim dövründə hər gün əsgərimin yanında oldum. Bu müharibənin qəhrəmanı Azərbaycan əsgəridir" deyən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

## Ən qüdrətlilər sırasında

Son illər ərzində uğurla inkişaf edərək Qafqazın hərbi gücünə çevrilən, dünyada orduların vəziyyətini qiymətləndirən sanballı qurumların reytinq siyahısına düşən Azərbaycan Silahlı Qüvvələri 44 günlük müharibədə təkcə regionun ən güclüsü olduğunu təsdiqlətmədi. O, həm də dünyanın 50 ən güclü ordusundan biri olduğunu real şəkildə beynəlxalq aləmə nümayiş etdirdi.









Prezident İlham Əliyevin vurğuladığı kimi, düşmənin elə bir hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin. Düşmənin atəş nöqtələrini qısa zamanda uğurla məhv edən ordumuzun Vətən müharibəsindəki müasir döyüş taktikası dünyanı heyrətləndirdi. Onun apardığı müharibə güclü məntiqə əsaslanmış, "ağıllı" müharibə idi.

Ərazi bütövlüyümüzün bərpası üçün əsas güc strukturu olan Azərbaycan Ordusunun hazırkı yüksək səviyyəyə gəlib çatması asan məsələ deyildi. Bu uğurların baş verməsində Prezident İlham Əliyevin rəhbərliyi ilə ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi, ordu quruculuğu sahəsində aparılan səmərəli islahatlar olduqca mühüm rol oynayıb. Son illərdə ordumuzun silah-sursat, texnika ilə təchizatı üçün milyardlarla dollar vəsait xərclənib.

İlham Əliyev dəfələrlə Azərbaycan Silahlı Qüvvələrinin texniki təchizat baxımından güclü ordular sırasında olduğunu, zirehli texnikanın ən yüksək standartlara cavab verdiyini, hava hücumuna qarşı müdafiə sisteminin müasirləşdiyini söyləyib. Hələ ötən il Prezident İlham Əliyev "Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. Biz bunu yorulmaz fəaliyyət nəticəsində əldə etmişik. Çünki mənim Prezident kimi fəaliyyətimdə ordu quruculuğu birinci yerdədir" deyərək Azərbaycan Ordusunun çox yüksək peşəkarlığa malik olduğunu nəzərə çatdırıb.

Ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov hesab edir ki, Ümummilli Lider Heydər Əliyevin yolunu davam edən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin ən müasir texnika və avadanlıqla təmin edilməsi, ordunun döyüş potensialının inkişafına şəraitin yaradılması onun qısa zaman ərzində dünyanın 50 ən güclü ordusu sırasında yer alması iə nəticələndi.

Ekspertin sözlərinə görə, Azərbaycan zabitləri həm postsovet məkanında, həm NATO ölkələrində keçirilən bütün tədbirlərə dəvət alırdılar və oradan ən yeni təşəbbüslərlə qayıdırdılar. Azərbaycan Ordusunda daim aparılan islahatlar nəticəsində onun güclü olmasına, döyüş potensialının yüksəlməsinə nail olunub. Bütün bu nailiyyətlərin nəticəsində Azərbaycan Ordusu 44 gün ərzində Ermənistanın işğalçı qüvvələrini darmadağın edə və dövlətin ərazi bütövlüyünü bərpa edə bildi: "Azərbaycan Ordusunun bu nailiyyətlərini məhz peşəkarlıq, qəhrəmanlıq nümunələri kimi dəyərləndirmək olar. Ordunun qalibiyyət əldə etməsinin əsas səbəbləri onun müasir silahlarla təmin edilməsi, yüksək intellektual potensiala malik olan şəxsi heyətin Azərbaycan Ordusuna gətirilməsi, Azərbaycanın öz torpaqlarını azad etməsi üçün apardığı haqq işi, Prezident İlham Əliyevin həm bir sərkərdə kimi müdrikliyi, həm də bir siyasətçi kimi müdrik siyasət yeritməsidir".

## Qibtə doğuran ordu

Müstəqilliyimizin ilk illərində ölkə daxilində hakimiyyət uğrunda qarşıdurmaların baş verməsi hərbi sahədə də pərakəndəliyin yaranmasına səbəb olmuşdu. Bu isə getdikcə daha çox torpağımızın ermənilər tərəfindən işğal edilməsi ilə nəticələnirdi. Erməni təcavüzü ilə uğurla mübarizə aparmaq üçün, ilk növbədə, qüdrətli ordu yaratmaq, bu sahədə buraxılmış kobud səhvləri aradan götürmək, xalqın döyüş ruhunu yüksəltmək, müharibə dövrünə uyğun təbliğat aparmaq lazım idi.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Məmmədov deyir ki, ordu quruculuğunu daim diqqət mərkəzində saxlayan Azərbaycanın Ordusu regionda və bütün dünyada qibtə doğurur. Ancaq hazırkı müzəffər ordunun qurulması uzun yollardan keçərək bugünkü vəziyyətinə çatıb: "Azərbaycan 1991-ci ildə müstəqilliyini əldə etsə də, həmin dövr təkcə formal müstəqillik deyil, həm də formal ordu gerçəkliyi hadisəsi idi. Ona görə də cəlb edildiyimiz müharibədə ordumuz erməni işğalçılarının həmlələrini dəf edə bilmir, milli təhlükəsizliyimizi qorumağı bacarmırdı. Bu azmış kimi Milli Ordumuz ölkəmizdə cərəyan edən siyasi proseslərə cəlb edilir, ayrı-ayrı siyasətçilərin hərbi birləşmələrinə çevrilirdi. Nəticədə ərazilərimizin 20 faizi işğala məruz qaldı, ölkəmizdə vətəndaş müharibəsi başladı" .

Hikmət Məmmədov bildirir ki, yalnız 1993-cü ildə böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə sözün əsl mənasında milli ordu quruculuğuna start verildi. Bütün qeyri-qanuni hərbi birləşmələr buraxıldı. Vahid komandanlığa tabe olan nizami ordu qurulmağa başlandı. Beləliklə də ordu quruculuğu işində ilk və olduqca mühüm addım atıldı.

Hərbi ekspert Şair Ramaldanov da qeyd edir ki, hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Ordusunun formalaşdırılması üçün ilk addımlarını atan Ümummilli Lider Heydər Əliyev hərbi sahədə apardığı işlər sayəsində qısa bir zamanda düşmənin irəliləməsinin qarşısını aldı. 1994-cü ilin yanvar ayında Horadiz əks-hücum əməliyyatı keçirərək 22 yaşayış məntəqəsi, o cümlədən Horadiz qəsəbəsinin, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin düşməndən azad edilməsinə nail oldu: "Düşmən Bişkek sazişini imzalamağa məcbur edildi və atəşkəs elan olundu. Ondan sonra Azərbaycan Ordusu sürətlə inkişaf edərək qısa bir zamanda bölgədə birinci oldu".

Şair Ramaldanov Azərbaycan Ordusunun son 20 il ərzində böyük inkişaf yolu keçdiyini və daim yeniliklər axtarışında olduğunu söyləyir. Onun sözlərinə görə, Azərbaycan Ordusu 20 il ərzində bütün istiqamətlərdə dəyişdi, Silahlı Qüvvələrin bütün qoşun növləri müasir texnika ilə təmin olundu. Bu illər ərzində Azərbaycan Ordusu onun qarşısında qoyulan əsas döyüş tapşırığını yerinə yetirməyə - torpaqlarımızı işğaldan azad etməyə tam hazır oldu. Ali Baş Komandanın əmrini gözləyən Ordu tapşırıq alandan sonra böyük qəhrəmanlıq göstərərək zəfər qazandı: "Biz Azərbaycan Ordusunun son 20 il ərzindəki inkişafının nəticələrini döyüş meydanında gördük. Düşmənin işğal etdiyi ərazilərimizdə müdafiə istehkamlarını möhkəmlətməsinə baxmayaraq, hərbçilərimiz çətin relyefi olan ərazini qısa bir zamanda qət edərək Şuşaya gedib çıxdılar, düşməni darmadağın etdilər. Kapitulyasiya aktının imzalanmasını Azərbaycan Ordusunun son 20 ildəki nailiyyətlərinin nəticəsi kimi qeyd etmək olar".

## Yeni mərhələ

2003-cü ildən sonra ordu quruculuğu prosesində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tamamilə yeni bir mərhələ başlayıb. Hikmət Məmmədovun sözlərinə görə, bu mərhələ indiki müzəffər ordumuzun yenidən komplektləşdirilməsi, hərbi texnika ilə təchiz edilməsi mərhələsidir. Yeni mərhələ həm də Azərbaycanda ilk dəfə hərbi sənayenin yaradılması dövrüdür.

Deputatın fikrincə, verilən strateji qərarlar ötən müddət ərzində ordumuzda kordinal keyfiyyət dəyişiklikləri yaratdı, 2016-cı ilin Aprel döyüşlərində öz gücünü göstərib ilk dəfə düşmən üzərində qələbə qazanmaqla həm də özünəinamı bərpa etdi. Hərbi-psixoloji baxımdan bu qələbə olduqca mühüm hadisə idi: "Cəmi dörd il sonra Azərbaycan Ordusu sübut etdi ki, o, dünyanın ən yaxşı təchiz edilmiş, ən yüksək döyüş qabiliyyətli və ən vətənpərvər ordularından biridir. 2020-ci il sentyabr ayının 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi şanlı ordumuzun qəti qələbəsi ilə tarixə yazıldı. Düşmən Ermənistanın işğalçı ordusu darmadağın edildi. Bu mühüm hadisə Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin və onun qurduğu şanlı ordumuzun adını tarixə qızıl hərflərlə əbədi olaraq yazdı. Bu artıq yaşanmış gerçəklikdir və hər bir azərbaycanlı öz Prezidenti və Ordusu ilə fəxr edir".

## İki dövrün müqayisəsi

44 günlük müharibə nəticəsində qazanılmış zəfərdə payı olan şəxslərdən biri də Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan zabiti, jurnalist həmkarımız Rəşad Baxşəliyevdir. 2001-2003-cü illərdə taqım komandiri kimi hərbi xidmət keçən Rəşad Baxşəliyev Vətən müharibəsinin könüllü iştirakçısıdır. Cəbrayıl, Qubadlı, Xocavənd, Şuşa istiqamətlərində aparılan döyüşlərdə iştirak edib. Göstərdiyi şücaətə görə, "Qubadlının azad edilməsinə görə" medalı ilə təltif edilən müsahibimiz ordumuzun həm əvvəlki, həm də müasir vəziyyətini canlı görən ehtiyatda olan hərbçilərimizdəndir.

Hərbi xidmət keçdiyi dövrlə müharibə dövründəki vəziyyəti müqayisə edən Rəşad Baxşəliyev deyir ki, islahatlara yeni başlayan Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyətində 2001-2003-cü illərdə vətənpərvərlik, döyüş əzmi yüksək olsa da, hərbi təchizat indiki kimi deyildi. "Hələ də keçmiş sovet dövründən qalmış hərbi texnikalar, silah-sursatlardan istifadə edirdik. Ordumuzun ümumi təminatı bu gün olduğu kimi ən müasir standartlar səviyyəsinə çatmamışdı. Ancaq Vətən müharibəsində tam başqa - istənilən döyüş tapşırığını qalibiyyətlə yerinə yetirməyə qadir qüdrətli ordu gördüm. Vətən müharibəsinədək Azərbaycan Ordusunun gücü bəlli idi, paradlarda qoşunların arsenalına hansı hərbi texnikaların daxil edildiyini görmüşdük. Ancaq 44 günlük savaş əsl reallığı ortaya qoydu. Düzdür, İkinci Qarabağ müharibəsinədək ordumuzun uğurlu Aprel, Günnüt və Tovuz döyüşləri olmuşdu. Lakin həmin döyüşlərdə Silahlı Qüvvələrin arsenalında olan az bir qisim hərbi texnika və silah-sursatdan istifadə edilmişdi. Vətən müharibəsi isə Azərbaycan Silahlı Qüvvələrinin gücünü, şəxsi heyətinin döyüş ruhunu, əzmini dünyaya nümayiş etdirdi".

Rəşad Baxşəliyevin sözlərinə görə, Vətən müharibəsi zamanı işğalçı ölkə bir daha gördü ki, qarşısında 1990-cı illərin əvvəllərində olduğu kimi, pərakəndə hərbi dəstələr deyil, peşəkar, ən müasir silahlarla təchiz olunan, döyüşkən və regionun ən güclü nizami ordusu var: "Qürurverici hal idi ki, müharibə başlayan gündən Silahlı Qüvvələrin şəxsi heyəti qisas və qələbə hissi ilə döyüşə girmişdi. Azərbaycan əsgəri yalnız öz gücünə, peşəkarlığına, xalqına və ən əsası Ali Baş Komandanı İlham Əliyevə güvənərək ərazi bütövlüyümüzün bərpasına qadir olduğunu dünyaya nümayiş etdirdi. Onu da xüsusi olaraq vurğulayım ki, Azərbaycan Ordusu çətin relyef şəraitində, mürəkkəb istehkamları darmadağın edərək qələbə qazandı. Prezidentimizin də söylədiyi kimi, Azərbaycan Ordusu XXI əsrin müharibəsini apardı".

Müsahibimiz əlavə edir ki, Azərbaycan dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları silahlara, texnikalara sahibdir. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırılıb. Silahlı Qüvvələrimizin hədəfi son dərəcə yüksək dəqiqliklə vuran və qarşısıalınmaz zərbə gücünə malik silahlarla, düşmənin ağır texnikasını və canlı qüvvəsini darmadağın edən pilotsuz uçuş aparatları ilə tam modernləşdirilməsi Azərbaycanda ordu quruculuğu istiqamətində görülən ciddi tədbirlərdəndir: "Bunun nəticəsidir ki, son bir neçə ilin statistikasına əsasən, Azərbaycan müasir silahlanmaya görə Avropada 2-ci, dünyada 3-cü yerdə qərar tutub: "Şübhəsiz ki, bütün bu uğurlar həyata keçirilən məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olub. Əgər belə olmasaydı, Azərbaycan BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan 4 qətnaməsini təkbaşına reallaşdıra və cəbhə xəttinin bütün istiqamətlərində əməliyyat şəraitinə tam nəzarət edə bilməzdi".

Ehtiyatda olan hərbçi hesab edir ki, hərbi sənaye kompleksini də formalaşdıran Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Azərbaycan öz ordusunu istehsal olunan yerli hərbi təyinatlı məhsullarla əhəmiyyətli dərəcədə təchiz edə bilir: "Bütün bunlar göstərir ki, Azərbaycanda ordu quruculuğu sahəsində kompleks islahatlar aparılır. Həm ordunun arsenalına ən modern silahlar daxil edilir, həm qoşun növlərinin döyüş qabiliyyəti artırılır, həm də hərbçilərin sosial şəraiti yüksəldilir".

## Ordumuz daha güclü, dövlətimiz daha qüdrətli olacaq

Alınmaz qala sayılan Şuşanı azad etmək üçün Vətən oğulları güllə yağışı altında qayalara dırmaşaraq dillərə dastan düşən qəhrəmanlıqlar göstərdilər, bayrağımızı ən uca zirvələrdən asdılar. Bu oğullar torpağımızın işğal altında olan hər qarışının azad edilməsi üçün fədakarlıq göstərdilər. "Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Biz mütləq öz torpaqlarımıza qayıdacağıq" deyərək verdiyi vədi yerinə yetirən Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi qüdrətli Azərbaycan Ordusunun məhz belə igidləri sayəsində torpaqlarımızın işğaldan azad edilməsinə nail olduq.

Ən böyük hünər və qəhrəmanlıqlar Vətən naminə edilir. Bu müharibə də Azərbaycan Ordusunun hünər, qəhrəmanlıq meydanı idi. Öz qüdrəti ilə yeni tarix yazan ordumuz dünyanın güc ölkələrinin edə bilmədiyini öz gücü ilə etdi.

*30 ilə yaxın erməni tapdağı altında əzilən torpaqlarımız bu gün məğlubedilməz Azərbaycan əsgərinin şanlı, zəfər addımlarının gücündən möhkəmlənir, əvvəlki qüdrətini bərpa edir. Torpağımız onu mənfur düşmənə təslim etməyəcək Azərbaycan əsgərinə, Azərbaycan əsgəri isə onu yenilməz edən Ali Baş Komandanına güvənir. Azərbaycan əsgəri qalib sərkərdəsinin arxasında qürurla addımladıqca bu ordu daha güclü, bu dövlət daha qüdrətli olacaq!*

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# Qüdrətli sərkərdə

*Əvvəli 1-ci səh.*

Bu vəziyyət erməni tərəfini atəşin dayandırılması barədə ciddi düşünməyə vadar etdi.

1994-cü il mayın 12-də atəşkəs elan ediləndən sonra ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. Tezliklə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi, Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

## Döyüş imkanları ən müasir səviyyəyə çatdırıldı

Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşıda dayanan əsas vəzifələrdən biri ordumuzun gücləndirilməsi, döyüş qabiliyyətinin daimi olaraq artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsi idi. Bütün bunları xüsusi diqqət mərkəzində saxlayan Prezident İlham Əliyevin hər zaman qarşıya qoyduğu vəzifələrdən biri ordumuzun döyüş imkanlarının artırılması olub. Hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı Prezident İlham Əliyev demişdi: "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".

Ötən illərdə Ali Baş Komandan İlham Əliyevin xüsusi nəzarəti ilə ordumuzun döyüş qabiliyyətinin artırılması üçün bu sahədə qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirildi. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırıldı. Bu mənada inkişafın Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri də ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətini artırması idi.

Azərbaycan ictimaiyyəti Silahlı Qüvvələrimizin artan gücünü əvvəlki vaxtlarda hərbi paradlarda və təlimlərdə görmüşdü. 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ildə Naxçıvanda Günnüt zəfəri Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ordusu qarşısında əzici gücünü praktik təsdiq etmişdi. Son iki döyüşdə ordumuz əlverişsiz mövqelərdən çıxaraq strateji mövqelərə sahib olmuşdu. Bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verdi ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək.

2020-ci ilin iyul ayında isə dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təxribatın qarşısı silahlı qüvvələrimizin bölmələri tərəfindən rəşadətlə alındı. Düşmən əks-həmlə və qisas əməliyyatı ilə ordumuzun gücünü yenidən hiss etdi, döyüş meydanında çoxsaylı itki verərək geri çəkilməyə məcbur oldu. Bununla da Azərbaycan Silahlı Qüvvələrinin müqayisəolunmaz üstünlüyü, hər an düşməni məhv etməyə hazır olması növbəti dəfə öz təsdiqini tapdı.

Bütün bunlar təsdiq edirdi ki, Dağlıq Qarabağda yenidən hərbi əməliyyatlar başlasa, Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı ildırım sürəti ilə azad edəcək.

## Tariximizin şanlı Zəfəri

Ermənistanın sentyabrın 27-dən törətdiyi növbəti hərbi təxribat Azərbaycanın öz torpaqlarının azad edilməsi uğrunda əks-hərbi əməliyyatlara başlamasına səbəb oldu. 44 gün davam edən və tariximizə Vətən müharibəsi kimi həkk olunan bu savaş Azərbaycan ictimaiyyətinin torpaqlarımızın azad olunması ilə bağlı gözləntilərini reallığa çevirdi. Cəbhənin elə bir istiqaməti olmadı ki, qoşunlarımız hücumda ləngisinlər. Elə bir cəbhə xətti olmadı ki, düşmənin müdafiə mövqelərinin yarılması mümkün olmasın.

Noyabrın 10-da rəsmiləşən tariximizin şanlı Zəfərini Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun şəxsi heyəti, əsgərlərimiz, zabitlərimiz, gizirlərimiz qazandılar. Hansı hərbi vasitələrdən istifadə etmələrindən asılı olmayaraq, bu qələbə sevincini xalqımıza hərbçilərimiz yaşatdılar. Onlar döyüş meydanında böyük rəşadət və şücaət nümayiş etdirdilər. Eyni zamanda Vətən müharibəsi göstərdi ki, xalqımız onu ümdə arzularına qovuşduran Liderinin, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşib. Beləliklə, İlham Əliyevin yenilməz siyasi iradə və qətiyyəti, ordumuzun gücü və xalqımızın öz rəhbəri ətrafında bir amal uğrunda səfərbərliyi Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsini şərtləndirən əsas amillər oldu.

Ordumuz döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. Ümumiyyətlə, hərbi əməliyyatların strateji və taktiki planlaşdırılmasında Azərbaycan dünyaya yeni model təqdim etdi. Eyni zamanda İkinci Qarabağ müharibəsində aparılmış uğurlu hərbi əməliyyatlar strateji və taktiki baxımdan da tarixə düşdü. Hansı ki, bir çox ölkələr bu gün ordumuzun döyüş təcrübəsi ilə yaxından maraqlanırlar. Bununla da Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 18 ildə İlham Əliyevin xüsusi diqqəti sayəsində həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı. İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə ən böyük uğurlarından biri məhz Azərbaycan Ordusunu mükəmməl hərbi gücə çevirməsidir.

Bu qələbə göstərdi ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə əsasını qoyduğu ordumuz onun arzu etdiyi kimi inkişaf edib, qüdrətlənib, regionun hərbi gücünə çevrilib. Heydər Əliyev Azərbaycan Ordusunu yaratdı, İlham Əliyev onu dünyanın ən güclüləri sırasına çıxartdı. Vətən müharibəsində isə ordumuz qarşısında duran tarixi missiyanı layiqincə yerinə yetirdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

*Taleyimlə döyüşmüşəm sübhədək*
*Bu gecə yuxuda gördüm dərdimi,*
*Sinəmə çəkdiyi dağı göstərdim,*
*Ağlatdım dərdimi, yordum dərdimi!..*

***Alnında puçurlanan təri silib gecənin simsiyah zülmətinə boylandı...***

***Yadında deyildi, səhərdən bəri neçənci ağır əməliyyatdan çıxırdı... Gün ərzində nə dayanmışdı, nə dincəlmişdi, amma qəribə idi ki, heç bir yorğunluq hiss etmirdi. Sadəcə, səbəbini bilmədiyi bir ağırlıq, qüssə ürəyini məngənəyə alıb sıxırdı...***

***Şaxtaya baxmayaraq, pəncərəni taybatay açıb soyuq havanı sinəsinə çəkdi. Qəfildən burnuna yenicə qazılmış torpaq qoxusu gəldi... Həyatda ən xoşladığı rayihəydi bu, sanki, körpə ətriydi...***

***Qeyri-ixtiyari əlini uzadıb neçə gündür açmağa macal tapmadığı gündəliyini götürdü və elə sürahiyəcə dirsəklənib yazmağa başladı...***

***...Küləyin lap uzaqlardan gətirdiyi bu doğma torpaq qoxusu onu, sanki, illərin o üzünə apardı. Budur, yenə Kəlbəcərdə, anadan olduğu Milli kəndindədir. Uşaqlara qoşulub dağlara gedir, sıldırım qayalara dırmaşır, qartalların yuvalarına tamaşa edir.***



# Vətənin şair ruhlu həkim-şəhidi

## Azərbaycan hərb tarixində şəhid olan ən yüksəkrütbəli tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayevin fəxarətli ömür gündəliyi

Yenə quzuları qatıb qabağıma gül-çiçəkli çəmənlərə otarmağa aparır, dədəsinin (atasını belə çağırırdı) danlayacağını bilsə də, sərçə ovlamaq istəyir, amma heç zaman buna nail ola bilmir...

Qulağına anasının səsi gəlir... "Rasim, ay bala, hardasan, gəl də..."

Tez şirin oyundan ayrılıb evə qaçır. Həyət-bacada, ev-eşikdə daim hansısa bir işlə məşğul olan, qardaş-bacılarına qayğı göstərən, heç zaman yorulduğunu, yatdığını görmədiyi anasını bihal, xəstə vəziyyətdə yataqda olduğuna baxıb birdən-birə uşaq aləmindən ayrılıb böyüyür... Özünə möhkəm söz verir, "böyüyüb mütləq həkim olacam, anamı sağaldacam, onu heç zaman ağrımağa qoymayacam..."

❖ ❖ ❖

*Yavaş-yavaş sübh açılır, gündəlikdəki sətirlərin üzərində üfüqdən boy göstərən solğun qış günəşinin şəfəqləri rəqs edərək həkimi həzin və nisgilli xatirələr cığırından sürətlə uzaqlaşdırır...*

*Qarşıda onu daha amansız bir ayrılığın gözlədiyini bilmədən xatirələrinin sonuna üç nöqtə qoyaraq, gündəliyini bükür və səliqə ilə yerinə qoyur...*

Növbəti və həyati əhəmiyyətli səfərə hazırlaşırdı Azərbaycan Silahlı Qüvvələrinin tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayev...

Şuşadan zəng gəlmişdi. Ağır yaralılar var idi və vaxt itirmədən özünü ora çatdırmağa tələsirdi... "İgidlər məni gözləyir" deyirdi...

Yol bitmək bilmir, uzandıqca uzanırdı. Həkim isə tələsir, dəqiqələrlə döyüşür, quş olub uçmaq, özünü yaralı hərbçilərin imdadına yetirmək istəyirdi. İndi hər anın necə qiymətli, necə əvəzsiz olduğunu ondan başqa kim bilə-bilərdi ki...

O qədər olmuşdu ki, zamana qalib gəlib yaralı hərbçiləri ölümün əlindən almış, neçə-neçə tükənən ümidlərə can vermişdi...

İndi də arxa cəbhədə dayanıb gözləməmiş, özü birbaşa yollanmışdı Şuşaya. Çünki qanları, canları ilə Şuşanı azadlığa qovuşduran igidlərin həyatı təhlükədə idi, vaxt itirmək olmazdı...

❖ ❖ ❖

*Dağlar, dərələr, meşələr ötüşərək bir-birini sürətlə əvəz edirdi...*

*Vətən torpağının hər qarışına heyranlıqla tamaşa edən həkimin beynində xatirələr xatirələrə calanır, yenə də onu Kəlbəcərə, Milliyə uşaqlığının, gəncliyinin ən gözəl illərinə aparırdı... Beynində öz-özünə danışır, gah gülümsəyir, gah da gözlərinin önündən qəm karvanları keçirdi...*

...Atası Yaqub kişi Kəlbəcərdə məşhur seyidlər nəslindəniydi. Zəhmli, hökmlü, tündxasiyyət biri idi. Uşaqlarına qarşı da çox sərt idi, heç vaxt sevgisini açıq büruzə verməzdi. Yadından çıxmaz, bir dəfə izin verməməsinə baxmayaraq, sərçə ovlamaq istəmişdi və dədəsinin bunu bilsə, ona bərk hirslənəcəyindən qorxurdu. Həm də məktəblər bağlanıb yay tətili başlayanda gözdən yayınıb tapşırılan işləri buraxaraq qaçıb kəndin yaxınlığında traktorun necə yer qazdığına tamaşa edir, yaş torpaqdan qalxan ətri acgözlüklə ciyərlərinə çəkərdi. Hətta bu anlarda səbəbini bilməsə də, düşüncəsini çuğlayan qəribə bir hiss yaşayardı. Bu mənzərə Rasimi o qədər özünə çəkirdi ki, anasının yemək üçün qoyduğu azuqəni də tamamilə yaddan çıxarırdı. Və buna görə də gündən-günə zəifləmiş, sonda xəstələnmişdi... Taqəti yox idi, qızdırması qalxmışdı... Amma elə ilk dəfə onda dədəsinin ona baxaraq necə gülümsədiyini, nəvazişlə danışdığını görmüş, özünü dünyanın xoşbəxti hiss etmişdi...

Eh uşaqlıq...





*Rasim Abdullayevin şəhid olmasından 30 dəqiqə öncə çəkdirdiyi son şəkli*

*Bir parça bayatı, bir parça layla,*
*Ver Tər-tər gətirsin arana dağlar..!*
*Bir az da göz yaşı göndər ağlayım,*
*Səni and vermişəm Qurana dağlar..!*

❖ ❖ ❖

*Tibbi yardım maşını kələ-kötür yollarla ildırım kimi irəliləyirdi... Amma zaman tunelində həkimin fikir qatarı daha sürətlə şütüyürdü...*

1993-cü il idi. Rasim onda Azərbaycan Tibb Universitetinin tələbəsi idi. O, gecə-gündüz kitabları əlindən yerə qoymamış, anası Nübar xalanın arzusunu yerinə yetirərək həkimlik ixtisasına qəbul olmuşdu. Amma zalım tale tələbəlik illərini zindana çevirmişdi. Onu Kəlbəcərə, Milliyə həsrət qoymuşdu. Həmin məşum ilin aprelində Kəlbəcər eli yurdundan didərgin düşəndə Rasim də ailəsindən xəbər almaq üçün Murova qədər soraqlaşa-soraqlaşa getmiş, amma ona demişdilər ki, ailə üzvlərin, ata-anan əsir düşüb. Bu qara xəbəri eşidəndə gəncin ürəyinə sanki ox batmışdı... Taqətdən düşmüş, qol-qanadı sınmışdı. Düz bir aydan sonra, Samuxda yanmış bir kitabxananın binasında məskunlaşan ailəsindən aldığı teleqram sayəsində onların sağ-salamat olmasından xəbər tutmuşdu...

Çox məşəqqətli illər idi. Həm mənəvi, həm maddi baxımdan ailə çox çətinlik çəkirdi. Rasimin də vəziyyəti olduqca ağır idi. Kirayədə qalmaq, yemək-içmək, yol üçün pul yoxuydu. Demək olar ki, Rasimin oxuması üçün bütün ailə üzvləri səfərbər olmuş, öz boğazlarından kəsib onun təhsil alıb həkim olması üçün çalışmışdılar. Yaqub əmi də öz təqaüdünü bütünlüklə Rasimin oxuması üçün ayırmışdı.

Rasim hələ Kəlbəcərdəykən oxumağa olan istəyi ilə seçilirdi. 1982-ci ildə Milli kənd tam orta məktəbinin birinci sinfinə qəbul olmuş, 1990-cı ilə qədər orada təhsil almış, daha sonra Kəlbəcər şəhər 1 saylı tam orta məktəbdə təhsilini davam etdirmişdi. Müharibənin ən qızğın vaxtları olan 1992-ci ildə məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Tibb Universitetinə qəbul olmuşdu. 1998-ci ildə ATU-nu müvəffəqiyyətlə bitirərək 2000-ci ilə qədər Sumqayıt şəhər 1 nömrəli xəstəxanasında interna keçmişdi. Sonra könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin tibb xidmətində hərbi tibb qulluqçusu olaraq vəzifəsinə başlamışdı.

❖ ❖ ❖

Yadından çıxmaz, bir dəfə qardaşı Əvəz iş yerinə, yanına gəlmişdi. Birdən otağın qapısı açılmış və içəri bir oğlan daxil olmuşdu. Rasim həkim dərhal soruşmuşdu ki, "oğul, Alxaslıdan kimin oğlusan?" Oğlanın cavabından bəlli olmuşdu ki, o, Alxaslıdan, Rasim həkimin dediyi həmin adamın oğludur. Qardaşının təəccübünü gördükdə isə həkim gülərək demişdi: "Mən kəlbəcərlilərin hamısını anatomik quruluşundan tanıyıram ki, kim hansı kənddəndir, kimin övladıdır..."

Hansı məclisə gedirdilərsə, Əvəz görürdü ki, tanımadıqları adamlar gəlib Rasimin boynunu qucaqlayırlar ki, ay həkim, sən məni filan vaxtı müalicə etmisən, sağaltmısan...

Tələbə, iş yoldaşları, qohumları Rasimi gülərüz, zarafatcıl bir insan kimi tanıyırdılar, amma bircə Rasimin özünə əyan idi içindəki təlatümləri. Heç zaman ürəkdən sevinə bilmirdi, könlü ağır dərd yükü çəkirdi. Vətəninə həsrət qalması, valideynlərinin itkisi, bir də... səbəbini bilmədiyi, anlamadığı bir qəm ona əzab verirdi...

Bəlkə də elə buna görə idi ki, qələmə aldığı yüzlərlə şeirin hamısında ələm hökmranlıq edirdi...

*Qəmə mahnı qoşub nəğməkar oldum*
*Mən belə doğulub, belə yaşadım*
*Təkcə ayrılıqdan gözlərim doldu,*
*Qalan vaxtı, ölə-ölə yaşadım!..*

❖ ❖ ❖

Düz 20 il idi ki, Rasim Abdullayev taleyini hərbi həkimlik peşəsinə bağlamışdı. İlk hərbi xidməti 2000-ci ildə Əhmədbəyli hospitalında olmuşdu. 2005-ci ildə bu hospitalda xidmət etdikdən sonra 2005-2015-ci illərdə Mərkəzi Hərbi Poliklinikada Terapiya şöbəsində müxtəlif vəzifələri, o cümlədən şöbə rəisi vəzifəsini yerinə yetirmişdi. 2010-cu ildə "Qüsursuz xidmətə görə 3-cü dərəcəli" medalı, 2015-ci ildə isə "Qüsursuz xidmətə görə 2-ci dərəcəli" medalı ilə təltif edilmişdi.

2016-cı ildə, tarixə şanlı Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Rasim Abdullayev hərbi tibb qulluqçusu və Gəncə Hərbi Poliklinikasının rəisi idi. O, döyüşün qızğın nöqtələrində qalan yaralı zabitlərə yerindəcə tibbi yardım göstərmiş, neçə-neçə vətən oğlunu həyata qaytarmışdı.

Bu xidmətlərdən sonra 2016-cı ilin sonları, 2017-ci ilin əvvəlləri onun iş yeri dəyişdirilmiş və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tibb xidməti rəisi vəzifəsinə təyin olunmuşdu.

2020-ci ilin əvvəllərinə qədər bu vəzifəni yerinə yetirən Rasim həkim son vəzifəsinə - Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində tibb bölüyünün komandiri təyin olunmuşdu.

44 günlük Vətən müharibəsi dövründə tabeliyində olan həkim briqadası ilə birlikdə gecə-gündüz, yatmaq, dincəlmək bilmədən hər bir yaralı əsgərin həyatı uğrunda çarpışıb vuruşmuş, sözün əsl mənasında onları ölümün pəncəsindən dartıb çıxarmışdı.

Həkim Hadrut istiqamətində gedən döyüşlərin ən qızğın nöqtələrində qalmış yaralılara yerindəcə tibbi yardım göstərirdi. Vətən müharibəsinin son gününə qədər 100-dən çox yaralıya döyüş meydanında tibbi yardım göstərən Rasim Abdullayev qarşı tərəfin işğalından yeni-yeni azad olunan təhlükəli ərazilərə gedir, oradakı yaralılara tibbi yardım göstərir, onları təxliyyə edirdi.

❖ ❖ ❖

*Onu anidən gələn telefon zəngi fikirlərindən ayırır. Qardaşıdır zəng vuran. Şuşanın azadlığının, Kəlbəcərin, Laçın və Ağdamın bir güllə belə atılmadan, bir əsgər belə itirmədən, bir yaralı belə olmadan alınacağının yaratdığı şən əhvali-ruhiyyə ilə danışırlar. Rasim qardaşına gözaydınlığı verir, gülərək "tezliklə Kəlbəcərdə görüşərik" deyir...*

Söz vermişdi, gedib o torpaqlarda qurban kəsəcəkdi, ata-anasının məzarını Vətənə aparacaqdı...

Sonuncu dəfə sentyabrın 26-da ailəsi ilə, həyat yoldaşı Səadətlə, oğlanları Miryaqubla, İslamla, qardaşı Əvəzlə, bacıları Yeganə, Aybəniz, Əntiqə ilə görüşüb "Vətən məni çağırır", deyərək cəbhəyə yola düşmüşdü...

Onlarla tez-tez telefonla danışır, torpaqlarımız qarış-qarış düşmən tapdağından azad olunduqca, sevincini ailəsi ilə bölüşürdü...

Hər biri bir cəngavər oğullarımızın hünərindən, yaralı aslanlarımızdan danışır, qurtara bildiyi canlar üçün özünü dünyanın ən xoşbəxti sayırdı. Bəzən isə bir həkimin ölüm qarşısında aciz qaldığı, çarəsi tükəndiyi anların göz yaşlarına boğulur, çox əzab çəkirdi...

Noyabrın 10-u, 2020-ci il idi...

İndi də Rasim Abdullayev Şuşa istiqamətində qalmış yaralıların çıxarılması ilə bağlı komandanlıq tərəfindən verilən tapşırığı yerinə yetirmək üçün təhlükəli olduğunu bilsə belə, öz istəyi ilə hərbi tibb maşını ilə Hadrut-Şuşa yoluna çıxmışdı. Elə yolda da yaralı bir zabitə ilkin tibbi yardım göstərmiş, onun sınıq ayağını sarımışdı, amma bilmirdi ki, bu an o, sonuncu dəfə müqəddəs həkimlik missiyasını yerinə yetirir...

Və təxminən 20 dəqiqə sonra... Çanaqçı kəndində həkim özü də təhlükə ilə burun-buruna gəlir, mənfur düşmənin pusqusuna düşür...

Qəfildən güllə səsləri eşidilir, günün-günorta çağı Günəş batır, dünya qaranlığa bürünür, xatirələri yarıda qırılır...

Haradansa burnuna təzəcə qazılmış torpağın rayihəsi gəlir, körpə ətri duyur, anası onu haraylayır... "Rasim, ay bala, hardasan, gəl..."

*Başına gül taxdım, külək qopardı,*
*Ay ana, gələcəm, ömür qurtardı...*
*Eşidəssiz öz yanına apardı,*
*Gözünü Rasimə dikib bu məzar!..*

❖ ❖ ❖

*Beləcə, Vətənin daha bir mərd oğlu, cəsur həkimi 1975-ci il fevralın 21-də Kəlbəcərin Milli kəndində anadan olan Rasim Abdullayev 45 yaşında həyatda hər kəsdən, hər nəsnədən çox sevdiyi ana torpağın qoynunda əbədiyyətə qovuşur, şəhidlik məqamına ucalır...*

Azərbaycanın hərb tarixində və həmçinin Vətən müharibəsi tarixində şəhid olan ən yüksək rütbəli tibb xidməti qulluqçusu Rasim Abdullayevin 44 günlük qəhrəmanlıq salnaməmizdə böyük payı olur. O da müsəlləh əsgərə çevrilib ön səngərdə döyüşür. Əlinə silah almadan, Qarabağ uğrunda döyüşərək sinəsini gülləyə sipər edən igid oğullarımızı yaşatmaq üçün savaşır. Yüzlərlə yaralıya can verir, elə müqəddəs peşəsini icra etmək üçün çıxdığı növbəti səfərdə də Vətən uğrunda canını fəda edir...

Şəhadəti ilə Kəlbəcər elini, bütün Azərbaycan xalqını yasa boğan, ürəyimizə çalın-çarpaz dağ çəkən əmimiz oğlu Rasim Abdullayev Bakıda, II Şəhidlər xiyabanında uyuyur. Qəhrəman həkim şəhidliyindən sonra Prezident İlham Əliyevin Sərəncamına əsasən "Vətən uğrunda" döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Şuşanın, Cəbrayılın və Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Əminik ki, bu gün Kəlbəcərin yetişdirdiyi boylu-buxunlu, yaraşıqlı, gülərüz, vətənpərvər, şair, həkim oğlunun da ruhu şaddır, qürurludur. Çünki canını qurban verdiyi Vətəni azaddır...

İndi onun 45 illik yarıda qırılan ömrünün yarımçıq gündəliyinin davamını Kəlbəcərdə, Millidə iki igid oğlu, Miryaqubla, İslam yazacaq...

Atalarının gözləri ilə baxacaqlar heç zaman görmədikləri Vətənə, onun sözləri ilə aşina olacaqlar doğma yurda, sevgisi ilə vurulacaqlar, ana torpağa, onun ətrinə...

*Bu da yol ayrıcı, bu da son Vida*
*İndi günəş soyuyacaq, tələsmə!*
*Ayrılıq gələcək əlində qılınc,*
*Bizi qana boyuyacaq, tələsmə..!*

*Bir yer boş qalacaq, burada bizsiz,*
*Arzular, ümidlər, itəcək izsiz,*
*Eşqimiz susacaq, səssiz, səmirsiz,*
*Körpə kimi uyuyacaq, tələsmə..!*

*Rasim, gözlərinə görünməyəcək,*
*Bu həsrət heç kimlə bölünməyəcək,*
*Xatirəm beynindən silinməyəcək,*
*Bir gün səni qınayacaq, tələsmə..!*

***Yasəmən QƏNAƏTQIZI,***
***"Azərbaycan"***

# Əmanəti qorumaq şərəfdir

Döyüş yolu da ömrü kimi qısa olan bir qəhrəmanımızdan söz açmaq üçün onun dünyaya gəldiyi ilk gündən həyat yolunu nəzərdən keçirək. Çünki ömrü də döyüş yoluna bənzəyir.



Əslən Qubadlıdan olan Alıyev Elçin Bayram oğlu 16 iyul 1976-cı il tarixində Abşeron rayonunun Saray qəsəbəsində anadan olub. 1982-1992-ci illərdə Qubadlı şəhər 1 nömrəli orta məktəbində oxuyub. Orta məktəbi əla qiymətlərlə bitirib, həmin il BDU-nun Hüquq fakültəsinə daxil olub. Uşaqlıqdan hərb peşəsinə olan maraq təhsil yolunu dəyişib: bir ildən sonra istək və arzusu ilə Ali Hərbi Məktəbə dəyişilib - Tank Artilleriya fakültəsinə.

1997-ci ildə taktiki yerüstü artilleriya komandiri və artilleriya silahlarının istismarı üzrə mühəndis ixtisasları fakültəsini bitirib. Müxtəlif illərdə "N" saylı hərbi hissədə artilleriya batereyasının komandiri, briqadanın kəşfiyyat rəisi, artilleriya rəisinin köməkçisi, baş köməkçisi, 2014-cü ilin sentyabrından 2015-ci ilin yanvar ayınadək Heydər Əliyev adına Ali Hərbi Məktəbdə müəllim vəzifələrində çalışıb. 2015-ci ilin yanvar ayından 2017-ci ilin aprelinədək yenidən "N" saylı hərbi hissədə artilleriya bölmə rəisinin köməkçisi vəzifəsində xidmət göstərib.

2016-cı ilin Aprel döyüşlərində Lələtəpənin azad edilməsində öndə gedən igidlərimizdən biri kimi də tanınan, 2017-ci ilin aprel ayından öz arzusu ilə həqiqi hərbi xidmətdən ehtiyata buraxılan Elçin Alıyev 2020-ci il oktyabr ayının 1-dən könüllü olaraq "N" saylı hərbi hissədən döyüşlərə yollanıb. Döyüş yolu Ağcabədidəki təlim-məşq meydanında yeni əsgərlərə təlim keçməklə başlayıb. Sonra isə onlarla birlikdə Füzulidə gedən döyüşlərə qatılıb.

Hadrutda, Xocavənddə, Şuşada gedən döyüşlərdə fəal iştirak edən mayor Elçin Alıyev ayağından yaralansa da, bir addım belə geri çəkilməyib, arxa cəbhəyə dönməyib. 2020-ci il noyabrın 8-də belindən yaralanıb, ayaqları işləməyib. Yaralı halda bir gün qalıb. Ölümcül yara olmayıb. Sonrakı gün, yeni ayın 9-da böyük bir partlayış olub. Elçin olan yerə mərmi düşüb, o, şəhid olub. Məhz o gün - Şuşanın fəth edildiyi gün mayor Elçin Alıyev şəhidlik zirvəsinə ucalıb.

### Arzusuna çatdı: həm namaz, həm də torpaq üstə şəhid oldu

Azərbaycan Prezdentinin sərəncamına uyğun olaraq (ölümündən sonra) "Vətən Uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Qubadlı uğrunda" medalları ilə təltif olunan şəhid komandir Bakı şəhərindəki 2-ci Fəxri xiyabanda dəfn edilib...

Ömür-gün yoldaşı Ramiyə xanım deyir ki, Elçinlə 7 il idi ki, ailə həyatı qurmuşdu: "...Bir övladımız oldu. Çox xoşbəxt idik. Düzü, onu itirməkdən qorxurdum həmişə. Heç kəsi qırmazdı, özü qırılardı. Kimsəni üzməmək üçün, incikliyini gizlədər, üzə gülüb keçib-gedərdi. Oğlu Rəhim ötən il oktyabrın 1-də məktəbə getdi. Həmişə deyərdi ki, Rəhimi 18 yaşa catdırım, sonra rahat ölərəm..."

Sonuncu dəfə döyüşə gedəndə həyat yoldaşının qulağına pıçıldadığı kəlmələr belə olub: "...Rəhimə mənsizliyini hiss etdirmə, həyatdı, bilmək olmaz... Rəhimi sənə, səni də Allaha əmanət edirəm. Allahdan başqa güvənli yer yoxdur... Sən dözümlü, güclü qadınsan. Yenə də güclü ol! Dualarını əsirgəmə..."

Ramiyə xanım dodaqları səyriyə-səyriyə fikrini davam etdirir: "... O, gedəndə donub qalmışdım. Heç nə deyə bilmədim. Görüşə də bilmədim. Çünki inanmadım. Amma yol gedə-gedə çox danışdıq. Beyləqana çatanda dedi ki, bu da son! Formanı geyib əyninə şəkil çəkdirib göndərdi: "Bax, indi inan. Döyüş paltarım əynimdədi artıq". Onda hönkürüb ağladım. Bircə onu dedim: "ehtiyatlı ol, bizi zəngsiz, xəbərsiz, sənsiz qoyma..."

Axırıncı zəngi ötən il noyabrın 2-də oldu. O qədər danışdı ki, biznən. Uşağına söz verdi: "...Az qalıb, gələcəm, səni aparıb gəzdirəcəm..." Amma dediyi sözə əməl edə bilmədi.

### Bir gündə iki şəhid xəbəri alanlar...

Elçinə 9 gün zəng catmayıb. Bu da onların 7 illik ailə həyatının son döngəsi. Ömür-gün yoldaşı Elçinin müqəddəs ruhuna sədaqətlə and içib ki, onun yadigarı Rəhimi istədiyi, atasının arzuladığı kimi - özünə layiq övlad kimi böyüdəcək: "...Mən xoşbəxtliyimi, arzularımı orda - onunla bir məzara basdırdım. Onun mənə qoyub getdiyi yeganə miras, var-dövlət, əmanət Rəhimimiz, bir də ki, Qarabağın azadlığı, Şuşanın özümüzə qaytarılması, Zəfərimizdir! Bu əmanətləri göz bəbəyi kimi qorumaq da bizim şərəfli və müqəddəs borcumuzdur..."

Həyat yoldaşı şəhid mayor Elçin Alıyevin yazılmamış və oxunmamış ömür kitabını vərəqləyir, xatırladıqca kino lenti kimi beynindən keçirdiklərini göz yaşları içində danışır...

Oğuz rayonunda dünyaya göz açdığını deyən Ramiyə xanım xatırladır ki, üç ildir kirayədə yaşayırlar. Ata-anasını erkən itirib. Elçin də onu ikinci dəfə yetim qoyub. O, yalnız ömür-gün yoldaşını itirməyib. Hələ Ermənistanın 1988-ci ildən başlayan təcavüzkar və işğalçılıq siyasətinə qarşı torpaqlarımızın müdafiəsinə qalxanların arasında onun da doğmaları səngər həyatı yaşayıb və şəhidlik məqamına ucalıblar. Murovdağ uğrunda gedən döyüşlərdə şəhid olan əzizlərindən Araz Abdullayev 1994-cü ildə "Murovdağ əməliyyatı"nda dünyasını dəyişib. Digər doğması Mehdi Kərimov da həmin ildə əbədiyyətə şəhidliyi ilə qovuşub. Bəli, bir gündə 2 şəhid xəbəri...

"Mənim atam 49 yaşında həyatdan gedib. Onda 22 yaşım vardı. Dərk edirdim hər şeyi. O vaxtlar mən də ata həsrəti çəkirdim. 5 yaşlı körpəyə nə deyə bilərsən?! Hec nəyi dərk etmir, heç nə ilə razılaşmır, xəyallar qurur, yuxular danışır. Atası gələndə onu möhkəm qucaqlayıb bir daha heç yerə buraxmayacağını və evdə nələr olduğunu ona danışacağını deyib. Səbirsizliklə gözləyir yolunu! Sənin kimi atanı kim istəməz ki?!", - deyir Ramiyə xanım və susur...

***M.NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Atadan oğula qalan yadigar

## Birinci Qarabağ savaşının qazisi Habil Atayevin oğlu, leytenant Nicat Atayevin də ruhu şəhidlik zirvəsindən Vətənə boylanır

Azərbaycanın son 30 illik tarixində görünməmiş hadisələr baş verdi. Ölkənin dirçəldilməsi, onun siyasi, iqtisadi, mədəni inkişafı müstəqilliyinin qarantı idi. Buna görə də Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə yenidən xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı respublikamızın bugünkü inkişafının təməlini qoydu.



Azərbaycan xalqı dövlət rəhbərinin siyasi iradəsinə güvənərək, ona sığınaraq, ətrafında monolit birlik yaradaraq, nəhayət ki, tapdaqda qalan ərazilərini 2020-ci ilin payızında, cəmi 44 günlük Vətən müharibəsi ilə azad etdi. Müzəffər Ordumuz Ali Baş Komandan İlham Əliyevin və xalqımızın yenilməz iradəsi, müasir döyüş taktikası ilə düşməni diz çökdürdü.

10 noyabr 2020-ci ildə Ermənistanın diz çökərək kapitulyasiya aktına imza atması ilə Azərbaycan Zəfər salnaməsini özünün şərəfli tarixinə yazdı.

Xalqımızın igid, cəsur oğulları isə bu müharibədə Ana Vətənin müdafiəsinə qalxdıqları üçün şəhidlik zirvəsinə ucaldılar, onlardan biri də şəhid Nicat Habil oğlu Atayevdir. Söhbət Azərbaycan Silahlı Qüvvələrinin leytenantı, Vətən müharibəsində şəhid olan Nicat Atayevdən gedir. Polis mayoru və Qarabağ müharibəsinin qazisi Habil Atayevin oğlu leytenant Nicat Atayev 1994-cü il martın 5-də Mingəçevir şəhərində anadan olmuşdu.

Leytenant Nicat Atayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında saxladığı ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ömrü və döyüş yolu qısa olan Nicat Atayev Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı istiqamətində şəhid olub.

Bakıda, II Fəxri xiyabanda dəfn olunan Nicat Atayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi. İgid döyüşçünün təltifi yalnız bundan ibarət deyildi. O, Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaətinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin 25 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə də təltif edildi. Yerin behişt olsun, igid döyüşçü, şərəfli yolun yolçusu - şəhidimiz!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***




## Pakistanda terrorçularla atışmada 5 hərbçi həlak oldu

Pakistanın qərbində yerləşən Belucistan əyalətində terrorçularla atışma nəticəsində azı 5 hərbçi həlak olmuşdur. Pakistan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirmişlər ki, terrorçular Sibi şəhəri yaxınlığında hərbi patrulu atəşə tutmuşlar. Hücum edənlərdən bir neçəsi öldürülmüşdür.

Son məlumata görə, hadisə baş vermiş regionda irimiqyaslı antiterror əməliyyatı başlamışdır.

## Uxnaaqiyn Xurelsux Monqolustan Prezidenti vəzifəsinin icrasına başlayıb

İyunun 19-da Monqolustanın altıncı Prezidenti seçilmiş Uxnaaqiyn Xurelsux Böyük dövlət xuralının deputatları, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin rəhbərliyi və hökumət üzvləri qarşısında and içmişdir. Bu barədə yerli KİV xəbər verir.

Paytaxt Ulan-Batorun əsas meydanında andiçmə mərasimindən sonra dövlətin yeni başçısını Monqolustan Silahlı Qüvvələrinin hərbçiləri salamlamışdır. Xatırladaq ki, ilk dəfə 6 il müddətinə Prezident seçilmiş Monqolustan Xalq Partiyasının namizədi Uxnaaqiyn Xurelsux 67,8 faiz səs qazanmışdır.

## Myanmada qurbanların sayı 880 nəfərə çatdı

Myanmada hərbi xuntanın hərəkətlərinə qarşı çıxış edən və öldürülən etirazçıların sayı 880 nəfərə çatıb. Bu barədə Siyasi Məhbuslara Yardım Assosiasiyasının (AAPP) hesabatında məlumat verilir. Təkcə son sutka ərzində qiyamçıların tərəfdarları üç aksiya iştirakçısını qətlə yetirmişdir. Xuntanın 5104 əleyhdarı hələ də həbsdə saxlanılır. Daha 1965 nəfərin həbsinə order verilmişdir.

BMT-də bildirmişlər ki, Myanma ordusu ilə çevriliş əleyhdarları arasında toqquşmalar səbəbindən son 5 ay ərzində 230 min nəfər evlərini tərk etmək məcburiyyətində qalmışdır. Təkcə Karen ştatında 177 min nəfər meşələrə qaçmışdır.

Xatırladaq ki, bu il fevralın 1-də Myanma ordusu çevriliş edərək hakimiyyəti ələ keçirmişdir. Hazırda ölkədə hakimiyyət silahlı qüvvələrin baş qərargah rəisi Min Aun Xlaynın əlindədir. Çevrilişdən sonra ölkədə fövqəladə vəziyyət rejimi elan edilmişdir. Myanmaya bir il ərzində hərbi xunta rəhbərlik edəcək. Hərbi çevriliş nəticəsində 24 nazir və onların müavinləri vəzifələrindən kənarlaşdırılmış, xarici işlər naziri və dövlət müşaviri Aun San Su Çji və digər rəhbər şəxslər saxlanılmışdır.

## Mayamidə 12 mərtəbəli ev uçdu

ABŞ-ın Florida ştatının Mayami şəhərində 1980-ci illərdə inşa edilmiş 12 mərtəbəli bina uçmuşdur. Nəticədə 3 nəfər həlak olmuşdur. Dağıntılar altında qalmış 99 nəfərin taleyi barədə məlumat yoxdur. “BBC News” telekanalının xəbərinə görə, xilasedicilər binanın qalıqları altında qalmış 35 nəfəri, o cümlədən bir uşağı sağ tapmışlar. Onlardan 8-i müxtəlif xəsarətlər almışdır.

Xilasedicilərin dediyinə görə, qurbanların sayı arta bilər. Hadisənin səbəbi hələ ki, məlum deyil.

# “Azercell”in #QadınDediyin layihəsinin növbəti beynəlxalq uğuru

**“Azercell”in təşəbbüsü ilə hazırlanan və sosial mediada milyonlarla baxış toplayan #QadınDediyin layihəsi növbəti beynəlxalq mükafata layiq görülüb.**




İndiyədək bir neçə nüfuzlu beynəlxalq festivallarda qalib olan layihə bu dəfə Şərqi Avropanın ən böyük yaradıcı festivallarından biri olan “White Square”də “For Bravery” özəl mükafatını alıb.

“For Bravery” mükafatı hər il cəmiyyətin önəmli problemlərini işıqlandıran ən cəsarətli layihələrə təqdim olunur. Bu il Minskdə keçirilən “White Square” festivalında dünyanın 30-dan çox ölkəsindən 1000-dən çox nümayəndə iştirak edib. Onlar arasında #QadınDediyin çarxının xüsusi qiymətləndirilməsi bu layihənin dünya miqyasında əhəmiyyətli mövzuya toxunduğunu təsdiqləyir.

Qadın hüquqlarının müdafiəsi kimi həssas bir mövzuya həsr olunan bu layihədə cəmiyyətimizdə zərif cins nümayəndələri ilə bağlı stereotiplər və bu yanaşmanın dəyişdirilməsi zərurətindən bəhs edir. Milli Olimpiya Komitəsi və “Azercell” arasındakı əməkdaşlıq nəticəsində yaranan layihədə öz həyat hekayələri ilə bu stereotipləri qıran uğurlu azərbaycanlı qadın idmançıları iştirak ediblər. Onlar öz hədəflərinə doğru əzmkarlıqla addımlamaqla, inkişafa, təhsilə, uğura gedən yolda sərhədlərin olmadığını sübut ediblər.

Ötən il yayımlanan bu layihə sosial şəbəkələrdə geniş əks-səda yaradıb. Nüfuzlu influenserlər və bloqqerlər tərəfindən dəstəklənən layihə sosial şəbəkələrdə 85%-i müsbət geri dönüş olmaqla, ümumilikdə 3.8 milyon insana çatdırılıb. Beləliklə, Azərbaycan reklam tarixinin ən cəsarətli kampaniyalarından birinə çevrilən #QadınDediyin layihəsi həm yerli, həm beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməyə bacarıb.

Qeyd edək ki, “Azercell” şirkətinin KSM sahəsində həyata keçirdiyi təşəbbüslər indiyədək dəfələrlə yerli və beynəlxalq müsabiqələrdə ali mükafatlara layiq görülüb. #QadınDediyin layihəsi bundan əvvəl Orta Asiyada marketinq, reklam və kommunikasiya sahəsinin ən nüfuzlu müsabiqələrindən sayılan “Red Jolbors” festivalında iki yüksək mükafat alıb.

# Miqrantlar Parisin mərkəzində çadırlar quraraq kömək istəyirlər



Afrika ölkələrindən və Əfqanıstandan olan qeyri-leqal miqrantlar və qaçqın uşaqlar Parisin mərkəzində çadırlar qurmuşlar. Onlar həyat şərtlərinin yaxşılaşdırılmasını tələb edirlər. Bu barədə “Anadolu” agentliyi xəbər verir.

Məlumata görə, paytaxt meriyası binası yaxınlığındakı aksiyada 300 nəfərdən çox adam iştirak etmişdir. Əfqanıstanlı Əli iki il öncə həyat yoldaşı ilə Fransaya gəldiyini bildirmişdir. Ailə əvvəlcə Türkiyədə qalmaq istəmiş, lakin imtina cavabı almışdır. Yunanıstanda isə onları xəbərdar etmişlər ki, ancaq 2024-cü ildə sığınacaq üçün müraciət edə bilərlər. “Yunanıstanda bizə çox çətin idi. Onda biz İtaliyaya, oradan isə Fransaya getmək qərarına gəldik. Lakin gördüyünüz kimi, burada da heç nəyə nail ola bilmədik”, - deyə Əli bildirir.

Müşayiətsiz miqrant uşaqlara yardım cəmiyyətinin başçısı Esperans Minart bildirir ki, Fransada yerli bələdiyyə orqanları həddi-büluğa çatmayanlara kömək etmir və uşaqlar aylarla küçədə yaşamaq məcburiyyətində qalırlar.

Xatırladaq ki, ötən il noyabrın 24-nə keçən gecə Fransa polisi Parisdə çadırlar qurmuş 500 nəfərə yaxın miqrantı ərazidən qovmuşdur. Aralarında uşaqlar da olan miqrantlara qarşı gözyaşardıcı qazdan istifadə olunmuşdur. Bir çox jurnalistlər, fəallar və siyasətçilər miqrantları dəstəkləmiş və asayiş keşikçilərinin zorakılığını qınamışlar.

# Vətən müharibəsini ömrünün ən unudulmaz səhifəsi sanır

**Vətən müharibəsi haqqında real təsəvvürə malik olmaq, döyüşçü missiyasını dərk etmək üçün şəhidlərimizin və qazilərimizin keçdiyi yola nəzər salmaq vacibdir. Vətən müharibəsi iştirakçılarından biri Xəyal İlqar oğlu Məmmədovdur.**



O, 1989-cu il yanvar ayının 23-də Qazı-Məmməd şəhərində (indiki Hacıqabul şəhəri) anadan olub. Ailənin böyük övladıdır, bir bacısı var. Atası sovet ordusunda və Azərbaycan Ordusunda gizir hərbi rütbəsində xidmətdə olub. Anası 1993-cü ildə ağır xəstəlikdən vəfat edib. Babası Cəfər Məmmədov İkinci Dünya müharibəsində döyüş yolu keçib, ancaq cəbhədən qayıtmayıb. Dayısı Abdulla Muradov zabit, əmisi Qulu Məmmədov gizir kimi (1992-1994-cü illərdə) Daxili Qoşunlarda hərbi xidmət keçiblər. Onlar Birinci Qarabağ müharibəsinin iştirakçılarıdır.

Xəyal Hacıqabul şəhərindəki Fariz Cəbrayılov adına 2 nömrəli orta məktəbdə təhsil alıb. Keçən əsrin 80-ci illərinin sonlarında Ermənistanın respublikamıza əsassız ərazi iddiaları səbəbindən alovlanan Birinci Qarabağ müharibəsi illərində və sonrakı uzunmüddətli atəşkəs dövründə böyüyərək formalaşan gənc nəslin nümayəndəsi kimi Xəyalın həyata baxışına, əqidəsinə bütün bu proseslər təsirsiz qalmayıb. O, vətənpərvər düşüncəli gənc kimi hərbi xidmət borcunu yerinə yetirməyə yollanıb.

2007-ci ilin oktyabr ayında Xəyal Məmmədov Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb. 2009-cu ilin aprel ayında çavuş rütbəsində müddətli həqiqi hərbi xidmətdən tərxis edilib.

Xəyal həmişə fikrinə diqqətlə yanaşdığı atası ilə məsləhətləşərək, həyatını hərbçi peşəsinə bağlamaq barədə qərar verib, qəlbində rəğbət bəslədiyi Daxili Qoşunların sıralarına qayıdıb. 2009-cu ilin dekabr ayında müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Həmin vaxtdan etibarən Vətən müharibəsinədək olan dövrdə qoşunların Lənkəran rayonunda yerləşən “N” saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunda atıcı, əməliyyat taborunun əməliyyat bölüyündə taqım komandirinin müavini, təminat bölüyünün təminat taqımında ATS emalatxana rəisi, təminat bölüyünün təminat taqımında avtomatik telefon stansiyasının rəisi, xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunda radiotelefonçu-istehkamçı, istehkamçı yarımqrupunun komandiri-baş istehkamçı vəzifələrinə təyin edilərək komandanlığın etimadını doğruldub.

2011-ci ilin noyabr ayından 2012-ci ilin may ayınadək Xəyal Məmmədov Daxili Qoşunların Ali Hərbi Məktəbi nəzdindəki gizirlərin hazırlanması kursunda təhsil alıb, ona gizir hərbi rütbəsi verilib. 2018-ci il avqust ayının 18-də baş gizir hərbi rütbəsinə yüksəlib. 2015-ci il 12 yanvar - 6 fevral tarixlərdə Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin təşkil etdiyi “Əsas humanitar minaaxtarma kursu”nu müvəffəqiyyətlə bitirib. 2018-ci il iyun ayının 26-da III dərəcəli “Qüsursuz xidmətə görə” və 2019-cu il mart ayının 4-də isə III dərəcəli “Hərbi xidmətdə fərqlənməyə görə” medalları ilə mükafatlandırılıb.

Vətən müharibəsi bir çox döyüşçü kimi onun da xatirələrdə yaşadacağı xüsusi bir səhifəsidir. Dediyinə görə, hərbi formanı geyindiyi gündən nə vaxtsa döyüşə gedəcəyi, torpaqlarımızı işğal edən düşmənə qarşı vuruşacağı, şəhidlərin qisasını alacağı barədə həmişə fikirləşib. “Xüsusi təyinatlının əsas amalı döyüş tapşırığını nəyin bahasına olursa-olsun yerinə yetirməkdir. Döyüş əmrini gözləyir və təlimlərdə tər tökərək o günə hazırlaşırdıq”, - deyə qazi vurğulayır.

2020-ci il oktyabr ayının 5-dən başlayaraq baş gizir X.Məmmədov Füzuli rayonunun ərazisində kapitan Cavid Tağıyevin (hazırda “N” saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri) rəhbərliyi altında döyüş əməliyyatlarına cəlb olunub. “Beton post” adlanan ərazidə şiddətli döyüş barədə danışan Xəyal düşmənin artilleriya vasitələrinin atəşinə məruz qaldıqlarını, xüsusən də çoxlu sayda minaatan mərmisinin atıldığını deyir. Göstərilən istiqamətdə hərbi qulluqçularımızdan kiçik gizir Anar Məmmədov şəhid olur, müddətdən artıq xidmət edən çavuş Elvin Abbasov isə yaralanır.

Qazimiz danışır ki, Füzuli rayonunun Kərimbəyli kəndi yaxınlığında bir neçə gün müdafiə mövqeyində dayanıblar. Buradan Cəbrayıl rayonunun ərazisinə hərəkət ediblər. Həmin istiqamətdə düşməndən azad olunmuş ərazilərdəki postlarda qarşıya qoyulan tapşırıqları yerinə yetiriblər. Oktyabrın son günündə Cəbrayıl rayonundan Xocavənd rayonunun Hadrut qəsəbəsinə göndəriliblər. Döyüşçülər hərəkət istiqamətləri dəqiqləşdirilərək ayrı-ayrı qruplara bölünüblər. Xəyal kapitan Taleh Rüstəmlinin (hazırda Daxili Qoşunların Bərdə rayonundakı “N” saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun komandiri) tabeliyinə verilən qrupun tərkibində döyüş yolunu davam etdirib.

Xocavənd rayonunun çətin relyefə malik ərazilərindən keçməklə onun daxil olduğu qrup və digər qruplar Şuşaya istiqamət götürüblər. Bir neçə gün piyada yol qət edərək Şuşanın ətrafına yaxınlaşıblar. Şəhərin yaxınlığındakı əlverişli mövqelərin tutulması, düşmənin köməyə gələ biləcək qüvvə və vasitələrinin yolunun kəsilməsi məqsədilə qruplara aidiyyəti döyüş tapşırıqları verilib. Onların qrupu Şuşa ətrafındakı meşəlik ərazidə irəliləyərək Xankəndi yolunu nəzarətə götürmək üçün mövqe tutub. Həmin yerdə düşmənin canlı qüvvəsini atəş zərbəsinə məruz qoyublar. Noyabrın 5-də düşmən tankından bizim mövqeyə atılan mərminin partlaması nəticəsində qəlpələr Xəyalın bədəninin müxtəlif nahiyələrini (üz, hər iki qolu və sağ ayağı) ağır dərəcədə yaralayıb. Döyüşçü yoldaşları ona yardım göstəriblər. Həmin döyüşdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularımız baş çavuş Vüsal Allahyarov, çavuş Afər Orucov, əsgər İsmayıl Məmmədov şəhid olublar, çavuş İlkin Abuyev və kiçik çavuş Rəvan Kazımov isə yaralanıblar.

Noyabrın 8-dək Şuşa uğrunda döyüşlər gedib, düşmən məğlubiyyətə uğrayıb. Xəyal bildirir ki, onu və digər yaralıları Şuşadakı evlərdən birində yerləşdiriblər. Şuşa uğrunda döyüşlərdə şəhid olan kapitan Şamil Babayevin, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularımız baş əsgər Pərviz Həsənovun, əsgər Fərid Seyfullayevin də adlarını xatırlayır, baş çavuşlar Fərid Əmiyev, Kənan Kərimov, çavuşlar Ənvər Beydiyev, Zamiq Ağayev, Mehrac Qarayevin şücaət göstərərək erməni işğalçılarını canlı qüvvə və texnika sarıdan ciddi itkiyə məruz qoyduqlarını da nəzərə çatdırır.

O, döyüş bölgəsindən noyabrın 7-də təxliyyə edilib. Füzuli və Ağcabədi rayonlarındakı xəstəxanalara, Daxili Qoşunların Hərbi hospitalına, Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına yerləşdirilib, qəlpə yaraları ilə bağlı cərrahi əməliyyat olunub, sağlamlığının bərpası yönündə müalicə alıb.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2020-ci il, 25 dekabr 2020-ci il, 29 dekabr 2020-ci il tarixli sərəncamları ilə baş gizir X.Məmmədov “Döyüşdə fərqlənməyə görə”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Xəyal evlidir, iki oğul və bir qız övladı var. Müharibə vaxtı harada olduğunu ailə üzvlərinə deməyib, onların narahat olmalarını istəməyib. Ön cəbhədən alnıaçıq, üzüağ qayıtmasından və doğmalarına qovuşmasından xoşbəxtdir. Qazinin bədənində hələ çıxarılmayan xırda qəlpələr, aldığı yaraların müəyyən fəsadları qalıb. Fədakar döyüşçüyə şəfa diləyirik.

***Yalçın ABBASOV,***
***DİN-in Daxili Qoşunlarının veteranı, tədqiqatçı-jurnalist***

# Dünyanın güclü ordularından biri

**İyunun 26-sı - Azərbaycan Silahlı Qüvvələrinin yaradıldığı gün 23-cü ildir ki, ölkəmizdə ümumxalq bayramı kimi təntənəli şəkildə qeyd edilir. Bu bayramı əvvəlki illərdəkindən fərqləndirən 44 günlük Vətən müharibəsində qazanılan Zəfər qələbəsinin ona başqa ovqat qatmasıdır. Bu günün bayram kimi tarixləşməsinin müəllifi müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir.**



Ulu Öndərin 1998-ci il mayın 22-də imzaladığı fərmana əsasən, 1918-ci ildə - Azərbaycan Xalq Cümhuriyyəti dövründə general Səməd bəy Mehmandarovun rəhbərliyi ilə ilk əlahiddə Azərbaycan korpusunun yaradıldığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edilmişdir. Ümummilli Lider Heydər Əliyev bu fərmanı ilə tarixi həqiqətin və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində gərəkli bir addım atmışdır.

Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra milli ordu quruculuğuna xüsusi diqqət yetirilmişdir. Dünya şöhrətli siyasətçi, ilk növbədə, ayrı-ayrı şəxslərin, bəzi siyasi partiyaların konyunktur maraqlarına, dövlət çevrilişi məqsədlərinə xidmət edən silahlı dəstələri buraxdıqdan, onların fəaliyyətini qanundankənar elan etdikdən sonra ordu quruculuğunda təşkilatlanma işlərinə başlanıldı. Hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması başa çatdırıldı. Orduya çağırış, fərarilik halları ilə bağlı problemlər həll edildi. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Hərbi ekspertlərin qeyd etdiyi kimi, ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ordu quruculuğu ilə bağlı müxtəlif qanunlar qəbul edildi, silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

Bu zaman özünü yenidən bərpa etməyə çalışan ordu Azərbaycana qarşı ərazi iddiaları çərçivəsində Ermənistan terrorçu silahlı birləşmələri ilə üz-üzə qalmışdı. Ulu Öndərin göstərişi ilə 1994-cü ildə Horadiz əməliyyatı keçirildi. Bu əməliyyat Azərbaycan Ordusunda inkişafın başlanğıcına yeni ruh verdi. Silahlı Qüvvələrin döyüş hazırlığının səviyyəsi tək hərbi texnika ilə deyil, onu idarə edə biləcək peşəkar zabit korpusundan əhəmiyyətli dərəcədə asılı idi. Bu baxımdan Azərbaycanda beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin formalaşdırılması ordu quruculuğunda vacib və tarixi əhəmiyyətli bir mərhələ oldu.

Ümummilli Liderin ordu quruculuğu, eləcə də milli təhlükəsizlik siyasəti ilə bağlı başladığı bu mərhələ onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı milli ordu quruculuğuna xüsusi diqqət yetirdi. Bütün bunlar ordumuzun gündən-günə güclənməsinə möhkəm zəmin yaradırdı. Nüfuzlu dövlətlərin silahlı qüvvələrindən dəfələrlə yüksək səviyyədə qurulan Azərbaycan Ordusu 2016-cı il Lələtəpə əməliyyatı və 2018-ci il Cocuq Mərcanlı hadisələri ilə dünyaya, eləcə də ermənilərin havadarlarına bir daha mesaj verdi ki, cəbhə bölgəsindəki təmas xəttindən də o yana keçərək terrorçu və işğalçı Ermənistan ordusunu İrəvana kimi qova bilər.

Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində son illər ordumuz döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Bunun müsbət nəticələrinin ötən ilin payızında 44 günlük Vətən müharibəsi zamanı işğalçı erməni qüvvələrinin Qarabağ torpaqlarından çıxarılanda bir daha şahidi olduq. Erməni təxribatlarına cavab olaraq Ali Baş Komandanın göstərişi ilə Azərbaycan Ordusu bütün cəbhəboyu əks-həmlə əməliyyatına başladı. Ötən il sentyabrın 27-də başlayan əməliyyat noyabrın 10-da işğalçı Ermənistanın kapitulyasiya aktını imzalaması ilə başa çatdı. Vətən müharibəsi adlandırılan 44 günlük ölüm-qalım savaşında düşmənə ağır zərbələr endirən Azərbaycan Ordusu gücünü bütün dünyaya göstərdi. Bu tarixi Qələbədə milli ordu quruculuğu sahəsində həyata keçirilmiş islahatlar: Ordumuzun müasir hərbi texnika ilə silahlandırılması, yüksəkixtisaslı, peşəkar zabit korpusunun formalaşdırılması Azərbaycana regionda ən güclü və modern orduya sahib olmaq qüdrəti qazandırmışdır. Dövlət başçısının fərmanı ilə respublikamızda Müdafiə Sənayesi Nazirliyinin yaradılması və bu qurumun normal iş fəaliyyətinin təşkil edilməsi böyük Zəfərin qazanılması yolunda atılmış əhəmiyyətli addımlardandır. Hələ on il bundan əvvəl Azərbaycan Respublikasının dövlət büdcəsində ordu quruculuğuna, hərbi xərclərə ayrılan vəsaitin Ermənistan Respublikasının ümumi büdcəsindən qat-qat çox olması sülh və danışıqlar yolu ilə yanaşı, zərurət yarandığı təqdirdə müharibə versiyasının işə salınmasına dövlət səviyyəsində aparılan hazırlıqların mühüm göstəricilərindən biri idi. Buna görə də ən nüfuzlu beynəlxalq hərbi ekspertlər Azərbaycan Ordusunu bütün əsas göstəricilərinə görə dünyanın ən güclü 50 ordusundan biri hesab etmişdilər.

Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Qoşulmama Hərəkatına, Avropa Birliyi Nazirlər Şurasına sədrlik etməsi, dünya ölkələri, xüsusən region dövlətləri ilə qurulmuş və inkişaf etdirilmiş əlaqələrə nail olması və s. mühüm addımlar ölkəmizin beynəlxalq miqyasda mövqelərini daha da möhkəmləndirmişdir. İllər uzunu birtərəfli qaydada seçilmiş hər hansı ölkələr qrupu ilə deyil, Şərqdə də, Qərb masştabında da demək olar ki, bütün ölkələrlə sağlam əlaqələr yaradan Azərbaycan Respublikasının qazandığı yüksək etimad Vətən müharibəsində dövlətimizin haqlı mövqeyinin düzgünlüyünü və dəstəklənməsini şərtləndirən əsas faktorlardan olmuşdur. Təbii ki, dəstəkləyənlərin öncülü sevincimizi öz sevinci, kədərimizi öz kədəri hesab edən qardaş Türkiyə Cümhuriyyəti, onun müdrik və qətiyyətli Prezidenti Rəcəb Tayyib Ərdoğan olmuşdur. 2021-ci il 15 İyun - Milli Qurtuluş Günündə erməni işğalından azad edilmiş Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində imzalanmış “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi” isə, ilk növbədə, siyasi-hərbi və iqtisadi əhəmiyyətinə görə tarixi bir sənəd oldu. Bəyannamədə müdafiə sənayesi və qarşılıqlı hərbi yardım məsələləri genişliyi ilə öz əksini tapıb. Bu o deməkdir ki, Türkiyə Silahlı Qüvvələri və ictimaiyyəti bundan sonra da Azərbaycan Ordusu ilə həmrəy olacaq. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşa şəhərində mətbuat konfransındakı bəyanatında Şuşa Bəyannaməsini müdafiə və hərbi sahədə Türkiyə Cümhuriyyəti ilə birgə fəaliyyətin təmin edilməsində xüsusi əhəmiyyətə malik olan əsas sənəd kimi qiymətləndirdi. Bütün bunlar Azərbaycan Silahlı Qüvvələrinin güc və qüdrətini nümayiş etdirməklə Ümummilli Lider Heydər Əliyevin ideyalarına sədaqət və ehtiramın nümunəsidir. Çünki Azərbaycan Silahlı Qüvvələrinin qüdrətlənməsi və işğal olunmuş ərazilərimizi istənilən an azad etməyə qadir mükəmməl bir orduya çevrilməsi yönündə Prezident İlham Əliyev tərəfindən göstərilən yüksək əzmkarlıq Heydər Əliyev ideyalarının davam etdirilməsidir.

Əsası hələ 1918-ci il Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan Ordusunun ənənələri müasir dövrdə də qorunub saxlanılır və inkişaf etdirilir.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***




## Budapeştlə Buxaresti səhv saldılar



**Fransa millisinin 6 nəfərdən ibarət azarkeş qrupunun başına qəribə hadisə gəlib.**

Eyni şirkətdə işləyən fanatlar iyunun 19-da Macarıstan - Fransa görüşü üçün Budapeştə yollanmalı olsalar da, zəif coğrafi məlumatlara görə, Budapeştdən 800 kilometr aralıda yerləşən Rumıniyanın paytaxtı Buxarest şəhərinə gedibləр.

Nəticədə azarkeşlər görüşü izləyə bilməyiblər. Sözügedən 6 nəfərlik qrup Buxarestə Ukrayna-Avstriya matçı üçün gələn azarkeşləri macarıstanlı fanatlar hesab ediblər. Qrupdan Rumıniyanın “Jurnalul National” nəşrinə açıqlama verən 1 nəfər isə hadisə haqqında deyib: “Hava limanına enəndən sonra azarkeş qruplarını izlədik. Matça gedənlərin macarıstanlı fanatlar olduğunu hesab edirdik. Həmin azarkeşlərin stadiona gedən yolu bildiyini düşünərək, onları izlədik. Ukraynalı olduqlarını heç fikirləşməmişdik. Avropa haqqında çox şey öyrənməyimiz lazımdır”.

Qeyd edək ki, Macarıstan-Fransa oyunu 1:1 hesablı heç-heçə ilə başa çatıb.






## “Avro-2020”nin təqvimi

### 1/8 FİNAL MƏRHƏLƏSİ

*26 iyun*

20:00. Uels - Danimarka
*Amsterdam*
23:00. İtaliya - Avstriya
*London*

*27 iyun*

20:00.Niderland - Çexiya
*Budapeşt*
23:00. Belçika - Portuqaliya
*Sevilya*

*28 iyun*

20:00. Xorvatiya - İspaniya
*Kopenhagen*
23:00. Fransa - İsveçrə
*Buxarest*

*29 iyun*

20:00. İngiltərə - Almaniya
*London*
23:00. İsveç - Ukrayna
*Qlazqo*

## Benzema Ronaldo ilə münasibətindən danışıb



Fransa millisinin futbolçusu Kərim Benzema “Real”da sabiq komanda yoldaşı olan Portuqaliya yığmasının kapitanı Kriştiano Ronaldo ilə arasındakı münasibətdən danışıb. Oyunçular “Avro-2020”nin qrup mərhələsinin üçüncü turunda Fransa - Portuqaliya matçında meydanda üz-üzə gəliblər.

Benzema 36 yaşlı hücumçu ilə görüşməkdən məmnun olduğunu deyib: “Ronaldo mənim çox yaxşı və yaxın dostumdur. “Real”da birlikdə çox şey əldə etdik , çoxlu qol vurduq. Onu yenidən görmək çox xoş idi. Milli komandalarımız və klublarımız üçün görüşlərdə danışmışıq. Biz bir-birimizə uğurlar dilədik”.

Qeyd edək ki, Fransa - Portuqaliya matçı 2:2 hesablı heç-heçə il başa çatıb.

## Fransada zədə şoku



Fransa millisi iki ciddi itki ilə üzləşib. Komandanın müdafiəçiləri Lukas Din və Lyuk Hernandez “Avro-2020”nin qrup mərhələsinin sonuncu turunda Portuqaliya ilə matçda (2:2) zədələniblər.

Fransa millisinin baş məşqçisi Didye Deşam görüşdən sonra oyunçuların zədəsinin durumu haqda UEFA-nın saytına danışıb. O, Din üçün turnirin böyük ehtimalla başa çatdığını deyib: “Hazırda onun durumu məni daha çox narahat edir. Dində əzələ zədəsi var. Onun bu turnirdə oynaya biləcəyinə inanmaq çətindir. Hernandezdə isə kiçik diz problemi var”.

Qeyd edək ki, Fransa 1/8 finalda İsveçrə ilə qarşılaşacaq.

GCM GLOBAL ENERGY AZERBAIJAN

“Global Energy Azerbaijan”
şirkəti və onun törəmə şirkətləri

“Absheron Operating Company”
“Binagadi Oil Company”
“Karasu Operating Company”
“Shirvan Operating Company”
“Neftechala Operating Company”

26 İyun - Silahlı Qüvvələr Günü

münasibətilə Azərbaycan xalqını və Müzəffər Azərbaycan Ordusunu təbrik edir, yeni-yeni uğurlar arzulayır!

# Külli miqdarda narkotik vasitənin dövlət sərhədindən keçirilməsi cəhdinin qarşısı alınıb





**Dövlət sərhədinin təhlükəsizliyinin təmin olunması, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.**

Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsi tərəfindən keçirilmiş tədbirlər nəticəsində təxmini çəkisi 70 kiloqram 405 qram narkotik vasitənin, 920 ədəd narkotik tərkibli və 150 ədəd güclü təsirli dərman preparatlarının qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

İyunun 20-də saat 02:00 radələrində Füzuli rayonunun “Bala Bəhmənli” sərhəd zastavasının ərazisində xidmət aparan sərhəd naryadı tərəfindən dövlət sərhədinin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində pozulmasına dəlalət edən əlamətlər aşkarlanıb, sərhəd zastavası dərhal “Silaha” komandası ilə qaldırılıb, ərazi qapadılıb. Keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində Horadiz-Bakı avtomagistral yolunun yaxınlığındakı ərazidən bağlama götürərək uzaqlaşmağa çalışan bir nəfər şübhəli şəxs saxlanılıb.

Saxlanılan şəxsin Bakı şəhər sakini 1986-cı il təvəllüdlü Piriyev Məhərrəm Vahab oğlu olması müəyyənləşdirilib, əlindəki bağlamaya baxış zamanı içərisində ümumi çəkisi 34 kiloqram 800 qram narkotik vasitə (26,4 kiloqram heroin, 2000 qram metamfetamin və 6400 qram marixuana) aşkarlanaraq götürülüb.

İyunun 22-də İmişli rayonunun “Bəhrəmtəpə” sərhəd zastavasının ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədinin pozulacağı barədə daxil olmuş məlumatla əlaqədar dövlət sərhədinin mühafizəsi gücləndirilmiş üsulla təşkil edilib, ərazidə əlavə heyət yerləşdirilib. Saat 03 radələrində dövlət sərhədinin pozulması aşkarlandıqdan sonra dərhal sərhəd pozucularının təqibinə başlanıb, hadisə yeri və yaxın ərazilər nəzarətə götürülüb.

Keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində Bəhrəmtəpə-Bakı avtomagistral yolu istiqamətində “MAZ” markalı 66-BN-623 dövlət nömrə nişanlı avtomobillə ərazidən uzaqlaşmağa cəhd göstərən iki nəfər şübhəli şəxs saxlanılıb.

Yevlax şəhər sakinləri 1981-ci il təvəllüdlü İbadi Ceyhun Tofiq oğlu və 1982-ci il təvəllüdlü Xalıqverdiyev Elçin Eyvaz oğlu olmaları müəyyənləşdirilmiş şəxslərin üzərindəki iki bağlamanın içərisindən təxmini çəkisi 35 kiloqram 605 qram narkotik vasitə (26 min 442 qram heroin, 5863 qram marixuana, 3300 qram metamfetamin), 920 ədəd “metadon M-40” və 150 ədəd “preqabalin” həbləri aşkarlanaraq götürülüb.

Faktlar üzrə cinayət işləri başlanıb, saxlanılan şəxslər təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbiri seçilib. Cinayət işləri üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Azərbaycan ərazisində terror-təxribat cinayətləri törədən Ermənistan silahlı dəstələrinin üzvlərinin növbəti məhkəməsi keçirilib

İyunun 25-də Bakı Ağır Cinayətlər Məhkəməsində 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin üzvlərinin cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə bu cinayət işi üzrə təqsirləndirilən 14 nəfərin - Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç, Baqasyan Armen Yegizari, Qasparyan Qor Vaqramini, Sefilyan Kamo Karenoviç, Hakobyan Volodiya Vaçaqani, Asetryan Gevorq Norairoviç, Yenqoyan Sisak Qrişai, Petrosyan Albert Kamoyeviç, Sedrakyan Romik Misakini, Minasyan Aram Qarnikoviç, Minosyan Mkrtıç Simonoviç, Matesyan Edqar Vaçaqanoviç və Karapetyan Yuri Tiqranoviçin terror-təxribat cinayətləri ilə bağlı cinayət işinə baxılıb.

İctimaiyyətə açıq və şəffaf şəkildə keçirilən məhkəmə iclasında media nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər.

Məhkəmə iclasında təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib. Daha sonra təqsirləndirilən şəxslərə hüquqları izah edilib, onların dövlət hesabına vəkillər və tərcüməçi ilə təmin olunduqları bildirilib. Sonra vəkillər bütün proseslərin video-audio görüntülərlə keçirilməsi barədə vəsatət veriblər. Həmin vəsatət təmin edilib.

Prosesdə təqsirləndirilən şəxslər dindirilib və ittiham aktı elan olunub.

Məhkəmə iclası fasilədən sonra davam edib.

Təqsirləndirilən şəxslərə sərbəst ifadə vermək təklif olunub. Onlardan ikisi - Qraç Avakyan və Geğam Serobyan məhkəmə prosesində sərbəst ifadə veriblər. Onlar hakimin, prokurorun və vəkillərin suallarını cavablandırıblar.

Növbəti məhkəmə iclası iyunun 29-na təyin edilib.

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il dekabrın 13-də keçirilmiş antiterror əməliyyatı nəticəsində tərk-silah edilmiş üzvləri barəsində cinayət işinin istintaqı DTX-nin İstintaq Baş İdarəsində aparılıb.

İstintaqla müəyyənləşdirilib ki, Ermənistan Respublikasının vətəndaşlarından ibarət bir qrup şəxs qanunsuz şəkildə odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr yaratmışlar. Həmin birləşmələrin üzvləri 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq 2020-ci il dekabrın 13-dək ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar edib, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Bu faktlarla bağlı qanunsuz silahlı birləşmənin üzvləri Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç və digərlərinin, ümumilikdə 14 təqsirləndirilən şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunurlar.

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi *açıq tender elan edir*

Tender 4 (dörd) LOT üzrə keçirilir:

**LOT-1** Ağsu rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması

**LOT-2** Beyləqan rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması

**LOT-3** İsmayıllı rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması

**LOT-4** Qax rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər LOT üzrə 100,00 (bir yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tam adı, hüququ statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmamasına dair arayış;*
- *son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;*
- *iddiaçının analoji işlərdə təcrübəsi, potensial texniki və kadr imkanlarının olmasına dair rəsmi arayış;*
- *iddiaçının satınalma prosedurunun başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **19 iyul 2021-ci il saat 11:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə **29 iyul 2021-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **30 iyul 2021-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 24 aprel 2021-ci il tarixli nömrəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən sərgilər çərçivəsində təbliğat mallarının idxal və ixrac üçün qablaşdırılması, gömrük, hava nəqliyyatı ilə daşınması və logistika xidmətlərinin satın alınması məqsədilə dərc olunmuş satınalma prosedurları və təkliflər sorğusunun nəticələri iddiaçıların sayının yetərsay olmaması səbəbindən ləğv edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 19 may 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə 2021-2022-ci tədris ilinə tam orta təhsil səviyyəsi (10-11-ci siniflər) üçün kağız dərsliklərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair keçirilmiş açıq tenderin qalibi Tender komissiyasının qərarına əsasən, “İndiqo” Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur.

23 iyun 2021-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Ağstafa Suvarma Sistemləri İdarəsinin nasos stansiyalarının, maşın mexanizmlərin və nəqliyyat vasitələrinin cari təmiri işləri üçün ehtiyat hissələrinin satın alınması məqsədi ilə keçirilməsi nəzərdə tutulan açıq tender məqsibəqəsi İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 20.04.2021-ci il tarixli məktubunda göstərilən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 36.5 və 36.5.3. maddələrinə əsasən, tender təklifləri formal tələblərə uyğun gəlmədiyindən ləğv edilir.

***Tender komissiyası***

## Ağstafa Suvarma Sistemləri İdarəsi 2021-ci il üçün *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir

**LOT-1.** Nasos stansiyaların, maşın mexanizmlərin və nəqliyyat vasitələrinin cari təmiri işləri üçün ehtiyat hissələrinin satın alınması

İştirak haqqı 70 manatdır.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatları əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar öz tender təkliflərində bütün vergi rüsumları və digər xərclərini nəzərə almalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını “ASAN ödəniş” sistemi ilə hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Əlaqələndirici şəxs: Aşırov Nurəddin**
**Ünvan: Ağstafa şəhəri, Şıxəli Qurbanov küç., 19**
**Bank rekvizitləri:**
**Ağstafa SSİ**
**VÖEN: 3600071211**
**Hesab: AZ77CTRE00000000000002353701**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T. BİK: CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi olkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **19.07.2021-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **29.07.2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.07.2021-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

E-şərtlər toplusunu **25.06.2021-ci il** tarixdən sonra əldə etmək olar.

***Tender komissiyası***

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

## “BANK OF BAKU” ASC-nin səhmdarlarının nəzərinə

“Bank of Baku” Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının Ümumi Yığıncağının 06 iyul 2021-ci il saat 15:00-da keçiriləcək növbəti iclasının vaxtı dəyişdirilərək 15 iyul 2021-ci il saat 15:00-a təyin edilib.

**Ünvan: Bankın Baş İdarəsi, Bakı AZ1069, Atatürk prospekti, 42.**
**Telefon: 447-00-55.**

***İdarə Heyəti***

# 26 İYUN SİLAHLI QÜVVƏLƏR GÜNÜ



*Müzəffər Ali Baş Komandan başda olmaqla Şanlı Azərbaycan Ordusunun bütün əsgər və zabit heyətini səmimi-qəlbdən təbrik edir, şərəfli vəzifələrində yeni-yeni uğurlar arzulayırıq!*

TEKFEN İNŞAAT

# Şənlik mərasimlərinin keçirilməsinə icazələrin verilməsi üçün icaze.e-gov.az portalı iyunun 26-dan aktivləşdiriləcək

Şənlik mərasimlərinin keçirilməsinə icazələrin verilməsi üçün icaze.e-gov.az portalı 26 iyun tarixdə aktivləşdiriləcək.




Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ilə "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarına dəyişiklik edilib. Qərara əsasən müvafiq şərtlər daxilində şənlik mərasimlərinin keçirilməsinə icazə verilib.

AZƏRTAC xəbər verir ki, şənlik mərasimlərinin keçirilməsi üçün icazə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi (EHİM) tərəfindən idarə olunan icaze.e-gov.az portalından əldə olunmalıdır. Portalın fəaliyyəti iyunun 26-dan etibarən Mərkəz tərəfindən aktivləşdiriləcək.

Şənlik mərasimi keçirilən məkanın və ya müəssisənin sahibi həmin obyekt daxilində fəaliyyət göstərən tədbir zalları, onların tutumu və çalışan işçi heyət (müvəqqəti işə cəlb edilmiş işçilər daxil olmaqla) barədə məlumatı portala daxil etməlidir. Məkan sahibi tərəfindən əməkdaşlar haqqında məlumatlar portala daxil edildikdən sonra qurumda COVID-19 pasportu olan əməkdaşların faiz göstəriciləri haqqında məlumat əsas səhifədə əks olunacaq. 2021-ci il iyulun 1-dən etibarən COVID-19 pasportu tələb olunan iş və xidmət sahələri işçilərinin azı 80 faizinin COVID-19-a qarşı birinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatına malik olması, 2021-ci il 1 avqust tarixindən etibarən isə COVID-19 pasportunun olması tələb olunur.

Həmçinin şənlik mərasiminin keçirilməsinə ən azı 5 gün qalmış mərasimin keçirilmə tarixi, başlama və bitmə vaxtı (saat 00:00-dan gec olmamaqla), qonaq sayı haqqında məlumatlar icaze.e-gov.az portalına əlavə olunmalıdır. Bu zaman, həmçinin məkan sahibi ilə toy sahibi arasında "Şənlik mərasimlərində koronavirus infeksiyasının (COVID-19) idarə olunması ilə bağlı metodiki göstərişlər"də müəyyən edilmiş tələblərə əməl edilməsinə dair iltizam sənədi də doldurularaq portala yüklənilməlidir. Tədbirin başlamasına 5 gün qalmış tədbirlə bağlı heç bir düzəliş edilə bilməz.

Sistemdən istifadəyə dair təlimat videosu ilə burada tanış olmaq mümkündür.

icaze.e-gov.az portalı ilə bağlı yaranan çətinliklərlə əlaqədar 9108 "Çağrı" Mərkəzinə müraciət edilə bilər.

## "Bakı Metropoliteni QSC "N.Nərimanov" elektrik deposunda 3 saylı qanovda və elektrik mühərriklərinin əsaslı təmir sexində alüminium profildən və polkirbinatdan pəncərənin, sexdə alüminium profildən qapıların və pəncərələrin hazırlanıb quraşdırılması işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: **"Bakı Metropoliteni QSC-nin "N.Nərimanov" elektrik deposunda 3 saylı qanovda və elektrik mühərriklərinin əsaslı təmir sexində alüminium profildən və polkirbinatdan pəncərənin, sexdə alüminium profildən qapıların və pəncərələrin hazırlanıb quraşdırılması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal)** elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** adıçəkilən tender bölməsində əldə edə bilərlər (Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon:490-01-01).

**İştirak haqqı - 50 manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*2. İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **19 iyul 2021-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **29 iyul 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **30 iyul 2021-ci il saat 11:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


## OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

***1 illik***
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

***6 aylıq***
**62,40 (altmış iki manat qırx qəpik) manat**

***3 aylıq***
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

# Koronavirusdan daha 89 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 89 nəfər müalicə olunaraq sağalıb, 65 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 335 min 741 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 329 min 959 nəfər müalicə olunaraq sağalıb, 4967 nəfər vəfat edib. Aktiv xəstə sayı 815 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 713 min 779 test aparılıb. Dünənki test sayı isə 7728-dir.

# İyunun 25-də koronavirusa qarşı 72 mindən çox vaksin vurulub

İyunun 25-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 72 min 301 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 35 min 972, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 36 min 329 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 3 milyon 218 min 651-ə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 2 milyon 70 min 526, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 1 milyon 148 min 125 nəfərdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**FƏRMAN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**FƏRMAN ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarov sabiq deputat

**ASLAN ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Hərbi Məhkəməsinin sədri və kollektivi Gəncə Apellyasiya Məhkəməsinin hakimi Salman Hüseynova atası

**BİLAL HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Məmməd Abbasbəyliyə əzizi

**İLTİMAS ABBASOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**FƏRMAN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**FƏRMAN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin kollektivi xidmətin rəis müavini Məmməd Abbasbəyliyə əzizi

**İLTİMAS ABBASOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**FƏRMAN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**FƏRMAN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**FƏRMAN ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Hərbi Məhkəməsinin kollektivi Gəncə Apellyasiya Məhkəməsinin hakimi Salman Hüseynova atası

**BİLAL MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**FƏRMAN ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**FƏRMAN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Apellyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Gəncə Apellyasiya Məhkəməsinin hakimi Salman Hüseynova atası

**BİLAL HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Lənkəran Dövlət Universitetinin rektoru, professor Natiq İbrahimov və universitetin kollektivi Azərbaycan dili və ədəbiyyat kafedrasının dosenti, filologiya elmlər namizədi

**MİRHÜSEYN ABBASIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5179
Sifariş 1134
Qiyməti 40 qəpik